# İlqar Fəhmi:

https://www.facebook.com/groups/94201233113/

# Aktrisa

**(Roman)**

**1-ci hissə**

**Üçbucaq**

Möhtəşəm görkəmli bir qəhrəman əjdahanı yerə yıxıb əlindəki xəncəri onun qarnına soxmuşdu. O, fikirləşdi ki bəlkə elə bunun özü də İlahi bir işarəymiş, amma rəhmətlik başa düşməyib.

Sonra diqqətini bıçağın tiyəsindəki o biri naxışlara yönəltdi. "Naxışlar çox gözəl işlənib, lap Quran səhifələrinin, köhnə kitabların bəzədilməsini xatırladır. Lakin bir-birinə sarınmış güllər, yarpaqlar, qızılı butalar və başqa naxışlar kitab kənarlarında, zərgərlik işlərində daha gözəl görünərdi, nəinki bank prezidentinin enli sinəsinə saplanmış bıçağın tiyəsində".

Müstəntiq bunu fikirləşib yavaşca başını qaldırdı və yanında dayanmış köməkçisinə baxıb dedi:

- Deyəsən antikvar bıçaqdı, burda düzələnə oxşamır. Ya İrandan, ya da ərəb ölkələrinin birindən gətirilib. Mənə elə gəlir ki tiyəsi də qızıldandı.

Gənc köməkçi müstəntiq deyəni protokola qeyd edərkən istintaq qrupunun üzvlərindən biri təngənəfəs halda içəri girdi.

- Cənab müstəntiq, bıçağın hardan götürüldüyü yeri deyəsən tapmışıq.

Müstəntiq cəld ayağa qalxdı.

- Hardan götürülüb ki?

- Qonaq otağının divarına iri bir xalça vurublar. Xalçanın üstündə bir neçə dənə antikvar bıçaq, xəncər və tüfəng asılıb. Bu bıçağın bir tayı hələ də oradadır. Yəqin cüt olublar. Qatil birini götürüb, o biri isə qalıb yerində…

Müstəntiq üzünü köməkçisinə tərəf çevirib, - Gedək baxaq - dedi və qapıya tərəf yönəldi.

O, malikanəyə girib bıçaqlara baxana qədər sizə hadisə baş verən yer barədə məlumat versəm, zənnimcə yerinə düşər.

Bura Zuğulba bağlarının dənizə yaxın hissəsidir. Hadisə baş verən bağ isə ölkənin ən böyük maliyə kredit müəssisəsi olan "VEF-Bank"ın prezidenti Vaqif Eyvaz oğlu Fətəliyevə məxsusdur.

Bağın ümumi sahəsi təxminən 50-60 sot olar. Yola yaxın tərəfdə üç mərtəbəli gözəl bir ev yerləşir. Malikanənin tam əks küncündə, yəni dənizə yaxın hissədə isə divarları qalın plastik şüşədən olan 70-75 kv/metrlik ayrıca bir otaq tikilib. Bura bağ sahibinin şəxsi kitabxanasıdır. Bəzən kabinet rolunu da oynayır. Dörd-beş minə yaxın kitab otağın arxa divarının yanında quraşdırılmış səliqəli alüminium rəflərə düzülüb. Kitab rəflərinin yanındakı kresloda oturub başını aşağı sallatmış və ürəyinə bıçaq saplanmış əlli beş-altmış yaşlı kişi isə "VEF-BANK"-ın prezidenti, İqtisad elmləri doktoru Vaqif Fətəliyevdir.

Zənnimcə, artıq müstəntiqin yanına qayıtmaq olar. Onun haqqında isə çox danışmağa zənnimcə ehtiyac görünmür. Çünki onun bioqrafiyasının baş vermiş hadisələrə heç bir dəxli yoxdur. Haqqında yalnız bunu deyə bilərik ki, o, dərin müşahidə qabiliyyətinə malik, ağıllı, savadlı, öz işini bilən bir müstəntiqdir. Bu səbəbdən də 35 yaşı olmasına baxmayaraq prokurorluq işçiləri arasında böyük hörmətə və nüfuza malikdir . Çünki rüşvət almaqdan fərqli olaraq ağır cinayət işlərini araşdırmaq bir o qədər də asan iş deyil və bizim hüquq mühafizə orqanları işçilərinin çoxunun bu işdə zərrəcə bacarığı yoxdur. Elə sadalanan səbəblərə görə də bu ağır cinayət hadisəsini araşdırmağı məhz ona -müstəntiq Eldar Əfəndiyevə tapşırmışdılar.

Az müddət ərzində müstəntiq artıq divardakı xalçadan asılmış soyuq silah kolleksiyasına baxıb geri qayıtmış və istintaq qrupunun üzvlərini, ekspertləri hadisə baş verən yerə - yəni kitabxanaya yığmışdı.

- Hə, əzizlərim, - müstəntiq qaşqabaqla sözə başladı: - Əvvəlcə onu bildirim ki, yuxarıdan göstəriş var. Hadisələrin necə baş verməsi barədə məlumat hələ gərək kənara sızmasın. Mətbuata informasiya veriləcək ki, bankir infarkt olub. Özünüz bilirsiniz ki, bu ətrafda kimlərin bağları yerləşir. Belə yerdə qətl hadisəsinin baş verməsi ictimaiyyət tərəfindən pis qarşılana bilər. Odur ki, işinizi bilin. İndi də ibtidai istintaq barədə məlumatlarınızı dinləmək istəyirəm. Əvvəlcə ekspertlərdən başlayaq.

Ekspert qrupunun rəhbəri ayağa qalxdı:

- İlkin analizə görə hadisə dünən gecə saat 00-02 radələrində baş verib. Qətl Türkiyədə istehsal olunmuş suvenir bıçaqla həyata keçirilib.

Aldığımız məlumata görə bu bıçaq dəstini bankirə ötən il türk maliyəçilərindən biri hədiyyə edib. Suvenir bıçaq olsa da çox itidir. Zərbənin xarakterindən məlum olur ki, qatil çox da böyük qüvvə sərf eləməyib. Bıçağın kəsici hissəsi nazik olduğuna görə sinəyə çox rahat işləyib. Sonra, bıçağın tiyəsi başdan-başa çıxıntılı naxışlarla bəzədildiyi üçün barmaq izlərini müəyyən etmək

mümkün olmayıb. Stolun üstündəki konyak şüşəsində və qədəhdə isə yalnız mərhumun özünün əl izləri qalıb. Başqa əhəmiyyətli bir şey yoxdur.

Müstəntiq barmaqlarıyla stolu döyəclədi:

- Yaxşı, otur. Leytenant Ağayev, sən nə öyrəndin?

Gənc leytenant ayağa qalxdı və həmişəki kimi çaşa-çaşa öyrəndikləri barədə məlumat verməyə başladı:

- Deməli belə, axşam bunlar saat altıda gəliblər. Bu mərhum, onun müavini, iki nəfər də qonaq. Hə, bu qonaqlar da, biri bizimkidi, biri də rus. Mərhumun maliyə işlərində partnyorlarıdı. Biri Moskvada hansısa bankın vitse-prezidentidi, bizimki də həmin bankın burdakı nümayəndəsidir. Onlar gələndə evdə üç nəfər olub, mərhumun həyat yoldaşı, aşbaz xanım və evin qulluqçusu. Aşbazla qulluqçu yaşlı qadınlardı. Deməli, bankir, müavini və qonaqlar gəliblər, saat ona qədər bir yerdə olublar, sonra şam eləyiblər, saat on bir üçün hamısı gedib yatmağa. Ev sahibi isə gəlib bura, kitabxanaya. Qonaqlar dedi ki, uzaq yoldan gəldiyimiz üçün tez yatdıq. Ev sahibinin müavini bildirdi ki, saat on ikiyə qədər əl kompyuterimdə işləyib sonra yatmışam. Qulluqçu ilə aşbaz isə dedilər ki, şam yeməyindən sonra qabları yuduq, gəldik öz otağımıza. Bir az teleseriala baxıb yatdıq… Bunlar, deməli, növbəylə işləyirlər. Bir həftə bu aşbazla qulluqçudur, bir həftə o biri ikisi. Hə, ev sahibəsi də şam yeməyindən sonra öz otağında olduğunu dedi.

Leytenant qəhvəyi dəsmalla tərini silib boynundan ağır yük götürülmüş kimi rahatca yerinə oturdu.

Müstəntiq yenə narazılıqla başını yellətdi:

- Sən də neçə ildir ki, sistemdə işləyirsən, amma hər dəfə məruzə eləyəndə aləmi qarışdırırsan bir-birinə. Evdəkilərdən heç biri qışqırıq-zad eşitməyib ki?

Leytenant yenə ayağa qalxdı:

- Yox, heç kim, heç nə eşitməyib.

- Yaxşı, sən də demək olar ki, heç nə demədin

Üzünü o biri leytenanta tutan müstəntiq soruşdu:

- Sən bayırdan nə öyrəndin?

Bu leytenant bayaqkına nisbətən səlis danışdı:

- Bağın bir tərəfi Rabitə nazirinin bağına, o biri tərəfi isə bir biznesmenin bağına söykənir. Darvaza olan divarın sağ tərəfi isə açıqlıqdır. Qırx-əlli metrlik sahənin üzbəüz tərəfində isə Prezidentin İqamətgahı yerləşir. İqamətgahın ətrafında da prezident qvardiyasının əsgərləri gecə-

gündüz növbə çəkir. Onların növbə rəisi  və axşam növbə çəkən əsgərlərlə görüşdüm. Çünki prezident bağının ətrafında gecə-gündüz projektorlar yanır və bütün ətrafı işıqlandırır. Əgər bu iki tərəfdən bankirin bağına yaxınlaşan olsaydı, əsgərlər mütləq görərdilər. Onlar isə heç nə görməyib. Bu biri divarın o tərəfi dediyim kimi rabitə nazirinin bağıdır, oranın da öz mühafizə xidməti var. Qalır axırıncı divar, yəni evin arxa tərəfi. Evin arxasındakı bağla bankirin divarı arasında iki metr yarımlıq yol keçir. Mən belə düşünürəm ki, əgər bağa kimsə kənardan giribsə, yalnız burdan girib. Çünki gecələr bu yol qaranlıq olur.

Müstəntiq maraqlandı:

- Biznesmenin də bağının mühafizəçiləri var?

Leytenant başını buladı:

- Yox, bağ yiyəsi burda yoxdu. Bir ay bundan qabaq ailəsiylə Türkiyəyə istirahətə gedib. Bağda onun dostu, məşhur yazıçı Rüfət Hüseynzadə qalır. Onunla da görüşüb danışdım. Dedi ki, bağımı təmir elətdirirəm, ona görə bu yay burda qalacağam.

- Ailəsiylə?

- Yox, təkdi. Dedi ki, ailəm qaynatamın bağında dincəlir. Fikirləşdim ki, yəqin nəsə əsər yazır, onun üçün burda tək qalır.

- Yaxşı - deyə müstəntiq başını tərpətdi, - onda belə, leytenant Ağayev, sən indi gedirsən "VEF-BANK"ın ofisinə, rəhmətliyin bütün müavinlərini yaxşı-yaxşı dindirirsən. Çalış axşama qayıt gəl.

Gənc  Leytenant,

Oldu rəis - deyib otaqdan çıxdı.

Müstəntiq üzünü istintaq qrupunun o biri üzvlərinə tutdu,

- Siz də gedin bağın ərazisini yaxşı-yaxşı yoxlayın, bəlkə bir şey tapa bildiniz.

Hamı çıxdı. Otaqda yalnız müstəntiqlə köməkçisi qaldı. Müstəntiq narazılıqla deyindi:

- Bunlar da əl-ayağa dolaşmaqdan başqa bir şey bacarmırlar.

Sonra üzünü hüquq fakültəsini ötən il bitirmiş köməkçisinə çevirdi:

- Hə, dosum, nə fikirləşirsən bu iş barədə?

Köməkçi  yaxasını açıb qalstukunu bir az boşaltdı və ilk imtahanını verən tələbələrə xas olan coşqunluqla danışmağa başladı:

- Burda iki versiya ortaya çıxır. Ya kimsə kənardan daxil olub gizlincə Vaqif bəyi qətlə yetirib, ya da içəridəkilərdən biri bu hadisəni törədib. Məncə, üçüncü, yəni intihar versiyasını bir kənara qoymaq olar. Çünki bu cür intihar ağlabatan görünmür.

Müstəntiq mərhumu aparmağa gələn təcili yardım işçilərini yola salıb yenə köməkçisinə tərəf döndü.

Bu işin anlaşılmaz tərəfi odur ki, hər iki versiya həqiqətdən çox "vozdux"a oxşayır.

Köməkçi təəccübləndi:

- Niyə ki?

- Götürək birinci versiyanı. Tutalım, kənardan kimsə gecə bağa girib, qətli törədib. Belə halda qatil nəyə görə evə girərək divardakı bıçağı götürüb? Özüylə silah gətirə bilməzdi məgər?

Köməkçi fikirli-fikirli təsdiq etdi:

- Hə, düzdü. Onda belə çıxır ki, qətli evdəki adamlardan biri törədib.

- Bu halda da bəzi şeylər düz gəlmir. Əvvəla, ona görə ki, ilk növbədə evdəkilər şübhə altına düşəcək. İkincisi də ki, qatil evdən çıxıb kitabxanaya gedəndə, yaxud ordan geri qayıdanda pəncərədən kimsə onu görə bilərdi. Axı, ev adamla dolu olub. Ələlxüsus nəzərə alsaq ki, evin ətrafında gecə lampaları yanır, ağlı başında olan adam belə riskə getməz.

Köməkçi acı-acı gülümsündü:

- Onda belə çıxır ki, qatil evdəkilərlə dilbir olub? Daha doğrusu, evdəkilər dilbir olub kişinin axırına çıxıblar?

Müstəntiq də güldü:

- Sən deyəsən Aqata Kristinin kitablarını çox oxumusan. Amma hər halda nəticə çıxarmamışdan qabaq evdəkilərlə bir də danışmaq lazımdır. Zənnimcə, əvvəlcə qulluqçudan başlasaq yaxşıdır.

Müstəntiqlə köməkçisi qulluqçunun otağına girəndə onun başağrı dərmanı atdığını gördülər. Gözlərindəki qızartıdan məlum olurdu ki, xeyli ağlayıb.

Qulluqçu müstəntiqi görüb yenə ağlamağa başladı.

- Axı, bu necə ola bilər?! O elə yaxşı adam idi ki,…

Müstəntiq onu sakitləşdirməyə çalışdı.

- Hamımız nə vaxtsa öləcəyik. Özünüzü ələ alın. Əgər rəhmətliyin xətrini doğrudan da çox istəyirdinizsə, qatili tapmaqda bizə kömək edin.

Qulluqçu gözlərini sildi:

- Axı, mən heç nə bilmirəm. Dünən gün ərzində neynəmişiksə, bayaq sizinkilərdən biri yazıb qeyd elədi. Mən də altından qol çəkdim.

Müstəntiq xahiş elədi:

- Mümkünsə, Vaqif bəy bağa gələndən sonra baş verən hadisələri bir daha yadınıza salın.

Qulluqçu çiyinlərini çəkdi:

- Hadisə deyəndə ki,… saat altı olardı Vaqif müəllimgil gələndə. Hə, altı ilə yeddi arası. Təxminən saat ona qədər qonaq otağında oturdular. Sonra da şam yeməyi yeyib hərə öz yataq otağına çəkildi. Vaqif müəllim isə getdi kitabxanaya. O, demək olar ki, hər gecə ikiyə-üçə qədər orda olur. Kitab oxuyur, yazı yazır, sənədlərlə işləyir…

- Hə, onlar yerbəyer olandan sonra biz aşbazla bir yerdə qabları yuyub qalxdıq bura, bir az televizora baxıb yatdıq. Allaha and olsun ki, mənim başqa heç nədən xəbərim yoxdur. Yalnız səhər Lalə xanımın qışqırığına yuxudan durub qaçdıq kitabxanaya.

Müstəntiq qulluqçunun gözlərinin içinə baxdı:

- Yaxşı, onda xahiş edirəm yadınıza salın, dünən, ya srağagün xalçanın üstündəki bıçaqların hər ikisi yerindəydi? Siz axı, oraları tez-tez yığışdırırsınız.

- Hansı? O tüfənglə, xəncərlə bir yerdə asılmış bıçaqları deyirsiniz?

- Hə. -Müstəntiq təsdiq elədi.

Qulluqçu fikrə getdi. Birdən elə bil nəsə yadına düşdü, amma hiss olunurdu ki, danışmağa tərəddüd edir. Müstəntiq onu ürəkləndirməyə cəhd etdi:

- Xahiş edirəm, heç nədən çəkinib eləməyin. Əgər istəyirsinizsə Vaqif bəyin qatili tapılsın, gərək hər xırda detalı da açıq deyəsiniz.

Qulluqçu tərəddüddən tam xilas olmasa da asta-asta danışmağa başladı:

- Vallah, bıçağın divarda olub-olmamağı yadımda deyil. Çünki özünüz yəqin gördünüz ki, xalçanın üstündə xeyli xəncər-bıçaq asılıb. Onlardan birinin yerində olmaması yəqin ki, heç kimin diqqətini cəlb eləməz… - bir dəm susub davam elədi - Amma o yadımdadır ki, beş-altı gün bundan qabaq Lalə xanım xalçanın qabağındakı kresloda oturub ordakı bıçaqlardan hansınısa əlində tutaraq diqqətlə gözdən keçirirdi.

Müstəntiq sakit görkəmini saxlamağa çalışaraq qulluqçuya təşəkkür etdi və ayağa qalxdı. Qapıya yaxınlaşanda qulluqçu onu saxladı:

- Bir dəqiqə, cənab müstəntiq, bir şey də yadıma düşdü. Bizim evdə qonaqlarçün üç yataq otağı var, hər üçü üçüncü mərtəbədədi. Ev sahiblərinin yataq otağıyla eyni dəhlizdə. Dünən mən

qonaqlarçün də orda yer salmışdım, hərəsi üçün bir otaqda. Amma Vaqif müəllimin müavini etiraz edib özü üçün birinci mərtəbədəki otaqların birində yataq salınmasını xahiş etdi. Mən də birinci mərtəbədəki otaqlardan birində onun üçün yatacaq hazırladım.

Müstəntiq nəsə fikirləşib soruşdu:

- Həmin otaqda həyətə pəncərə var?

Qulluqçu təsdiq elədi:

- Hə, var. Evin arxasına açılır. Odey, pilləkənin sağ tərəfində birinci otaqdır. Özünüz də baxa bilərsiniz.

Müstəntiq qulluqçuya bir daha minnətdarlıq edib otaqdan çıxdı. Köməkçisi də onun dalınca otaqdan çıxıb qapını örtdü və soruşdu:

- Görəsən düz deyir?

- Nəyi?

- Ev sahibəsinin bıçağa baxmasını.

- Lap tutalım düz deyir. Nə olsun ki? Bu, hələ heç nəyə əsas vermir. Əvvəla bilmək olmaz o, hansı bıçağı gözdən keçirib. İkincisi də ki, lap elə həmin bıçağa baxıb, burda qeyri-adi nə var ki? Bıçaqdı da, xoşuna gəlib, götürüb baxıb.

- Bu xəncər-bıçaq Allah bilir nə vaxtdan o xalçanın üstündə asılıb, nəyə görə məhz indi onun diqqətini cəlb edir, qətldən bir-iki gün qabaq?

Müstəntiq də fikrə getdi:

- Düzdü, hər halda bu detalı nəzərdə saxlamaq lazımdı.

Müstəntiqlə köməkçisi danışa-danışa dəhlizin başına çatanda, arxadan yenə qulluqçunun səsi gəldi:

- Cənab müstəntiq,

Qulluqçu cəld gəlib arxadan onlara çatdı,

- Bağışlayın, özümü elə itirmişəm ki, beynimdə hər şey qarışıb. Bir şey də yadıma düşdü. Son bir ayda Vaqif müəllimlə Lalə xanım yaman tez-tez mübahisə edirdilər.Həm də mübahisəni həmişə Lalə xanım başlayırdı.-Səsini azaldıb təəssüf və həyəcanla sözünü bitirdi -Hətta Lalə xanım bir-iki dəfə Vaqif müəllimi elə əsəbiləşdirmişdi ki, Vaqif müəllim ona əl də qaldırmışdı, möhkəmcə vurmuşdu onu.

Müstəntiq fikirli-fikirli dilləndi:

- Yaxşı, əgər bundan sonra da yadınıza nəsə düşsə, mütləq mənə deyin.

- Baş üstə, cənab müstəntiq.

Qulluqçu bunu deyib yenə öz otağına tərəf döndü. Müstəntiq isə cibindən siqaret çıxardaraq barmaqlarının arasında yumşaltmağa başladı. Köməkçisi alışqan çıxarıb onun siqaretini yandırdı və dilləndi:

- Hə, belə çıxır ki, ərlə-arvad arasında son zamanlar münasibətlər bir o qədər də yaxşı olmayıb. Bəlkə elə qətlin səbəbi də bununla bağlıdır?

- Ola bilər, amma bayaqkı sözümü yadından çıxartma. O, evdən çıxanda, yaxud evə qayıdanda onu görə bilərdilər. Inanmıram ki, bu cür riskə getsin.

Onlar evdən çıxıb yenə hadisə yerinə, yəni kitabxanaya gəldilər. Müstəntiq ilkin dindirmələrin protokollarını oxumuğa başladı. Diqqəti çəkən bir şeyə rast gəlmədi. Cavablar demək olar ki, eyni idi - bilmirəm, eşitməmişəm, xəbərim yoxdur…

Onun protakolları oxuması təxminən bir saata qədər çəkdi. Qovluqları təzəcə bağlamışdı ki əməliyyat qrupunun üzvlərindən biri içəri girib müstəntiqə yaxınlaşdı:

- Rəis, kitabxananın yanında, otların içindən açar dəsti tapmışıq. Üstündə brelok da var - Deyib içində açar dəsti olan selofanı müstəntiqə uzatdı. Müstəntiq selofanı alıb açar dəstini diqqətlə gözdən keçirməyə başladı. Açarlar dəmir halqa ilə kitab formalı gümüşü breloka bərkidilmişdi. Müstəntiq breloku açdı. Içərisinə dırnaq boyda bir qız fotosu vurulmuş və fotonun altında yazılmışdı: «Əzizim Rüfətə yadigar». Müstəntiq çaşdı. Yəni bu açarlar qonşu yazıçınındır? Bəs görəsən bura necə düşüb? Yoxsa?..

Köməkçisinin səsi onu fikirdən ayırdı.

- Rəis, qonşu evdə yaşayan yazıçı sizi görmək istəyir.

Müstəntiq yubanmadan ayağa qalxdı:

- Hardadır?

- Bayırda gözləyir. Çağırım içəri?

- Hə, çağır.

Köməkçi bayıra çıxdı və bir-iki dəqiqədən sonra qonaqla bir yerdə kitabxanaya qayıtdı. Yazıçı müstəntiqlə salamlaşıb dilləndi:

- Eşitdim ki, belə bir hadisə baş verib, çox pis oldum. Vaqif müəllim yaxşı adam idi. Hamıya əl tutardı, heç kəsi qapısından əli boş, başı aşağı qaytarmazdı….

Sonra qəmginliklə içini çəkib soruşdu.

- Bəs hadisə necə olub? Axı, onun deyəsən mühafizəçiləri vardı?

Müstəntiq təsdiq elədi:

- Bəli, var idi. Amma mühafizəçilər onu bağa qoyub gedirdilər. Yəqin rəhmətlik fikilrləşib ki, burda heç bir hadisə baş verə bilməz. Çünki özünüz yəqin bilirsiniz ki, bu tərəflərdə kimlərin bağları yerləşir. Hər tərəf mühafizəçilərlə, prezident qvardiyasının əsgərləri ilə doludur. Amma nahaq, gərək hər ehtimala qarşı bağda mühafizəçi saxlayaydı.

Yazıçı heyifsləndi:

- Adamın heç inanmağı gəlmir. Elə iki gün bundan qabaq burda onunla söhbət edirdik. Keyfi də əla idi. Yəqin yazığın heç ağlına da gələ bilməzdi ki, belə bir iş ola bilər.

Müstəntiq maraqlandı:

- Siz onunla yaxın idiniz?

- Yox, mən burda yalnız bir aydı ki qalıram. Qonşuların da çoxunu şəxsən tanımıram. Vaqif müəllim də bir-iki dəfə küçədə qarşıma çıxıb, eləcə salamlaşmışıq. Amma bu yaxınlarda mənim bir ədəbi proyektim üçün maliyə dəstəyi lazım oldu. Tanışlarımdan biri mənə məsləhət gördü ki, Vaqif müəllimə müraciət edim. O, sənət adamlarına həmişə yardım edir. Həftənin əvvəlində onunla zəngləşib görüş təyin etdik. Iki gün bundan qabaq axşam saat on birdə elə bu kitabxanada görüşüb xeyli söhbətləşdik. Mən ona son kitabımı hədiyyə etdim.

Yazıçı bunu deyib ayağa qalxdı, kitab rəfinə yaxınlaşıb arxasını müstəntiqlə köməkçisinə çevirərək beş-altı saniyə kitablara baxdı. Nəhayət, əlində boz cildli bir kitab geri qayıtdı.

- Budur, yəqin rəhmətlik heç oxumağa vaxt da tapmayıb.

Müstəntiq kitabı alıb açdı və avtoqrafa baxdı. Srağagünki tarix və «Vaqif müəllimə hədiyyə» sözləri yazılmışdı. Kitabı bağlayıb stolun üstünə qoydu.

- Rüfət bəy, sizin pəncərələrdən baxanda, deyəsən bu bağın həyəti görünür. Bəlkə dünən axşam nəsə şübhəli bir şey görmüsünüz?

- Yox, bir o qədər də görünmür. Arada iri ağaclar əkilib. Ağacların arasından yalnız evin bir hissəsi görünür. Dünən gecə mən pəncərənin qabağında oturub kitab oxuyurdum. Bizdən görünən otaqda ev sahibəsi vargəl edə-edə telefonla danışırdı. Bir xeyli danışdı. Sonrasa işıqları söndürdü.

- Vaxtı yadınızda deyil ki?

Yazıçı bir az fikirləşib cavab verdi:

- Mən təxminən saat on birdə eyvana çıxdım. O, artıq danışırdı. Saat ikidən sonra işığı söndürdü.

- Bəs siz nə əcəb yatmamışdınız?

- Bilirsiniz, mən gecələr işləməyi xoşlayıram, sakitlik olur. Dəniz kənarındakı diskotekaların səsi də kəsilir, həm də hava sərinləşir. Dünən də həmişəki kimi sübh azanından sonra yatdım.

Müstəntiq cibindən bayaqkı açar dəstini çıxartdı:

- Rüfət bəy, bu sizin deyil ki?

Yazıçı müstəntiqin əlindəki breloku görüb elə bil sevindi.

- Hə, mənimdi, buralardan tapmısınız? Mən də iki gündür evdə axtarıram. Yəqin burda düşübmüş.

Əlini uzadıb açarları götürmək istəyəndə, müstəntiq etiraz edib bildirdi.

- Yox, Rüfət bəy. Bu hadisə yerindən tapılan əşyayi-dəlildir. Gərək bir müddət bizdə qalsın.

Yazıçı bir az qaşqabağını salladıb nəsə demək istəsə də müstəntiq onu qabaqlayıb üzrxahlıq elədi.

- Xətrinizə dəyməsin, Rüfət bəy. Qayda qanun belədir, iki üç gündən sonra mən özüm açarları sizə gönlərərəm.

- Yaxşı -yazıçı hirsi soyumuş halda cavab verdi -lazımdırsa, qalsın. Əgər mənlik işiniz yoxdursa, mən gedim. Bütün günü evdə olacağam. Gərək olsam, xəbər edərsiniz.

Müstəntiq onu ötürməkçün ayağa qalxdı:

- Işinizdə olun, lazım olsanız xəbər edərik.

Yazıçı müstəntiq və köməkçisi ilə sağollaşıb kitabxanadan çıxdı.

O çıxan kimi müstəntiqin köməkçisi dilxor-dilxor dilləndi:

- Belə çıxır ki, xanım həmin vaxt öz otağında olub və telefonla danışıb?

- Hər halda, telefon qovşağından dəqiqləşdirmək lazımdır. Amma inanmıram ki, qonşu yalan danışsın.

- Elə isə versiyamızın biri partladı.

- Amma yəqin ki, başqa məsələ də var.

Köməkçi diqqətini müstəntiqə yönəltdi.

- Nə məsələ?

- Bayaq qulluqçu dedi ki, Vaqif müəllimin müavini yuxarıda yatmağa etiraz eləyib. Xahiş eləyib ki, onunçün aşağıda yer salsınlar.

Köməkçi təəccübləndi:

- Nə olsun , burda nə var ki?

Müstəntiq kitabxananın qapısına tərəf getdi.

- Gedək göstərim.

Köməkçi heç nə anlamasa da müstəntiqin ardınca kitabxanadan çıxdı. Onlar bağı keçib evə yaxınlaşdılar. Müstəntiq həyətdəki polislərə nəsə tapşırıb evə keçdi. Ikinci mərtəbəyə qalxan mərmər pillələnlərin sağ tərəfində üç qapı vardı. Müstəntiq birinci qapını köməkçisinə göstərib dedi:

- Deyəsən buradı. Vaqif müəllimin müavini gecə bu otaqda yatıb.

- İçəri baxaq?- köməkçi tərəddüdlə soruşdu.

- Mütləq.

Qapı örtülü olsa da, açarlanmamışdı. Müstəntiq qapını yavaşca araladı və onlar içəri girdilər. Bu, on beş-on altı kv/m-lik səliqəli bir otaq idi. Içəridə iki çarpayı, bir stol və bir neçə stul vardı. Küncə televizor da qoyulmuşdu. Müstəntiqin dalınca içəri girən köməkçi üstü yığışdırılmamış çarpayıya işarə ilə dedi:

- Hə, müavin yəqin gecə bu çarpayıda yatıb. -Bir az pauza verib soruşdu: - Yaxşı, onun burada yatmağının hadisəyə nə dəxli var ki?

Müstəntiq pəncərəyə yaxınlaşıb fikirli-fikirli dilləndi:

- İnsanların hər bir hərəkətinin müəyyən səbəbi olur. Səbəbsiz heç nə baş vermir. Əgər müavin üçüncü mərtəbədə yatmaqdan imtina edib birinci mərtəbəni istəyirsə, deməli, burda bir iş var. Bu otaqların arasında mütləq bir fərq olmalıdır.

- Axı, mən yuxarıdakı yataq otaqlarını da gözdən keçirmişəm. Demək olar ki, bu otaqdan heç fərqi yoxdur, eyni mebel, eyni kondisioner, televizor. Bəlkə gedib elə müavinin özündən soruşaq ki, niyə yuxarıda yatmaq istəməyib?

Müstəntiq etiraz elədi.

- Qətiyyən. Sonra elə bilər ki, ondan şübhələnirik.

- Bəs onda nə bilək ki, müavin nəyə görə yuxarıda yatmaq istəməyib?

Müstəntiq köməkçisinin ürəyini üzməkdən ləzzət alırmış kimi bir az susdu və nəhayət dilləndi:

- Bu otağın yuxarıdakılardan fərqi odur ki, burdan pəncərəni açıb həyətə düşmək mümkündür.

Pəncərəni açıb köməkçisini çağırdı.

- Gəl özün bax.

Köməkçi çərçivəyə yaxınlaşıb aşağıya boylandı. Pəncərə yerdən metrə yarıma qədər hündürdə idi. Küçə divarı ilə evin divarının arası isə altı metrə qədər olardı. Həm evin, həm də küçə divarının dibində iki metrlik yaşıl ot zolağı salınmışdı. Ortada isə asfalt yol vardı.

Köməkçi başını pəncərədən içəri qaytarıb dilləndi:

- Onda belə bir versiya da yaranır, müavin xalçanın üstündən bıçağı götürüb gəlir bura, pəncərəni açır, atılır bayıra. Sonra ağacların arasıyla gizlincə gedir kitabxanaya, Vaqif müəllimi öldürür, yenə qayıdır pəncərədən girir içəri. Düz dedim?

Müstəntiq qapıya tərəf yönəldi:

- Düz olmağına düz dedin. Amma gedib pəncərənin altındakı otluğu yoxlamaq lazımdır.

Onlar bayıra çıxıb evin arxasına tərəf gedəndə müstəntiq yenə dilləndi:

- Məni düşündürən başqa məsələdir. Nəyə görə qətli məhz o bıçaqla törədiblər? Burda nəsə var.

- Vallah, sən belə xırda şeylərə çox fikir verirsən. Tutalım, axşam elə bir hadisə baş verir ki, müavin təcili surətdə öz müdirini öldürməyi qərara alır. Daha gedib aşbaza deməyəcəkdi ki, mənə bıçaq ver, kişini öldürmək istəyirəm. Əlinə keçən ilk bıçağı, yəni divardan asılanı götürür və niyyətini həyata keçirir.

Müstəntiq razılıqla başını tərpətdi.

- Yəqin ki, elə sən haqlısan.

Müstəntiqin onun fikrini qəbul etməsini görən köməkçi özündən razı halda gülümsündü.

Onlar danışa-danışa bayaqkı pəncərənin altına gəlib çıxdılar. Müstəntiq köməkçisindən saatı soruşdu. Köməkçi qoluna baxıb cavab verdi:

- Dördün yarısıdır.

- Deməli hələ vaxta var. Uşaqlardan birini göndər siqaret alsın.

Köməkçi - Yaxşı,bu saat göndərərəm. - deyib həyətdəki skamyanın üstündə bekar oturmuş polis serjantlarına tərəf getdi.

Müstəntiq əyilib pəncərənin altındakı otluğu nəzərdən keçirmək istəyəndə, mobil telefonu zəng çaldı. O, telefonu cibindən çıxarıb ekrana baxdı. «VEF-BANK»a göndərdiyi leytenant idi. Müstəntiq telefonu qulağına tutdu:

- Bəli.

Telefonda leytenantın səsi eşidildi:

- Cənab müstəntiq, mən bankın rəhbər işçiləri ilə görüşdüm, diqqətəlayiq bir şey deyən olmadı.Çox güman ki, qətl bankın fəaliyyətilə bağlı deyil. Amma bir maraqlı fakt öyrənə bildim. Deyilənə görə Vaqif müəllimi Lalə xanımla tanış eləyən onun müavini Səməd Orucov olub.

Müstəntiq maraqlandı

-Doğurdan? Hm… Sən oralarda bir az da eşələn, orda işləyən xanımları diqqətlə dindir, belə şeyləri onlar yaxşı bilər. Axşam gəlib öyrəndiklərini ətraflı danışarsan.

- Oldu, rəis. - Leytenant cavab verdi.

Müstəntiq telefonu qatlayıb cibinə qoydu. Elə bu vaxt onun köməkçisi gəlib çıxdı. Əlindəki «VEST» qutusunu müstəntiqə uzatdı:

- Buyur, rəis.

Müstəntiq- Sağ ol - deyib siqaret qutusunu ondan aldı və cibinə qoydu.

- Vaqif müəllimin müavini hələ burdadı?

- Əlbəttə, tapşırmışam ki, hələ heç kim bağın ərazisindən çıxmasın. Yəqin yuxarı otaqlardan birindədi.

- Onda uşaqlardan birini göndər, onu tapsın.

Köməkçi təəccübləndi:

- Şübhələndiyimizi demək istəyirsən?

- Yox, başqa məsələdi. Leytenant bankda öyrənib ki, mərhumu indiki həyat yoldaşı ilə Səməd bəy tanış edib. Bununla bağlı ondan bir-iki şey soruşmaq istəyirəm.

Köməkçi etirazını bildirdi:

- Axı, onda başa düşər ki, biz ondan şübhələnirik.

- Yox, mən elə danışacağam ki, o, heç nə başa düşməyəcək.

Köməkçi - Özün bilən məsləhətdi, - deyib aralandı. Müstəntiq arxadan onu səslədi:

- Mən evin qabağındakı skamyada oturub gözləyirəm.

Köməkçi başını tərpədib yolunu davam etdi. Müstəntiq də başını aşağı salıb fikirləşə-fikirləşə evin qabağına keçib skamyada oturdu. Təxminən on dəqiqədən sonra bank prezidentinin müavini Səməd bəy evdən çıxıb ətrafa göz gəzdirdi, skamyada oturan müstəntiqi görüb ona yaxınlaşdı.

- Məni axtarmısınız?

- Əyləşin, Səməd bəy. Sizdən bir-iki şey soruşmaq istəyirəm.

Səməd Orucov  qaş-qabağını sallatdı.

- Mən bildiklərimin hamısını bayaq sizinkilərə dedim. Ayrı nə sualınız ola bilər ki ?

- Bilirəm, protokolları oxumuşam. Amma indi məni başqa şey maraqlandırır. Səməd bəy, burdakı adamlardan Vaqif müəllimin ailəsinə ən yaxını sizsiniz.Uzun müddət onunla bir yerdə işləmisiniz…

- Hə, artıq səkkiz ildi.

- Çox gözəl. Deməli, siz mənim suallarıma cavab verməkdə çətinlik çəkməzsiniz. Səməd bəy, axı, Vaqif müəllimin yetkinlik yaşına çatmış uşaqları, Elmlər namizədi olan həyat yoldaşı vardı. Bəs necə oldu ki, Vaqif müəllim onları atıb, demək olar ki qızı yaşında olan Lalə xanımla evləndi?

Səməd Orucov əvvəlcə duruxdu. Hiss olunurdu ki, sual onun ürəyincə olmadı.

- Bunun hadisəyə nə dəxli var ki?

- Bilirsiniz, yəqin ki, bunun doğurdan da hadisəyə heç bir dəxli yoxdu. Amma cinayətin üstünü açmaqçün mən bu ailəylə bağlı hər şeyi bilməliyəm.

Səməd Orucov bir az susub nəhayət sözə başladı.

- Vaqif müəllimi o vaxt atası evləndirmişdi. Özünüz yəqin yaxşı bilirsiniz ki, yuxarı dairələrdə işləyən adamlar uşaqlarını necə evləndirir. Əsas məsələ qızın atasının kim olmasıdır. Vaqif müəllimin atası o vaxt şəhər partiya komitəsində işləyirmiş, elə partiya sistemində işləyən bir tanışının qızını da oğlu üçün almışdı. Vaqif müəllim də təbii ki, atasının sözündən çıxmamışdı. Amma o elə ziyalı adam idi ki, sevmədiyi adamla yaşadığını heç kəsə hiss elətdirməmişdi. Əgər bunları mənə özü danışmasaydı, heç mən də inanmazdım… Nə isə, iki il bundan qabaq o, Lalə xanımla tanış oldu…

Müstəntiq onun sözünü kəsdi:

- Onlar necə tanış olub ki?

Səməd Orucov ağır-ağır udqunub başını aşağı saldı.

- Mən tanış eləmişdim. Sonradan çox peşman oldum buna. Amma artıq gec idi. Mənim ağlıma da gəlməzdi ki, onların arasında bu cür münasibət yaranacaq.

Elə bu vaxt müstəntiqin köməkçisi onlara yaxınlaşdı:

- Mane olmaram ki?

Səməd Orucov çiyinlərini çəkdi. Onun yerinə müstəntiq cavab verdi:

- Yox, otur, -üzünü həmsöhbətinə tutdu.

- Davam edin, Səməd bəy.

- Lalə xanım mənim dayım qızıyla İncəsənət institutunun aktyorluq fakültəsində oxumuşdular. Ali məktəbdən sonra da eyni teatrda fəaliyyətə başladılar,yaxın rəfiqəydilər. Mən onu

həmin vaxtlarda tanıyıram. Dayım qızı həmişə məni tamaşalara dəvət edirdi. Təbii ki, mən çox vaxt tamaşadan sonra onları şam yeməyinə dəvət edərdim. Beləcə, Lalə xanımla dostlaşdım.

- Səməd Bağırov bunu deyəndə elə bil azacıq qızardı.

- Ağlınıza başqa şey gəlməsin, biz sadəcə dost idik… Nə isə, iki il bundan qabaq Lalə xanımın oynadığı bir mono tamaşa Fransada keçirilən teatr festivalına dəvət aldı. Bu səfər üçün sponsor tapmaq məsələsi ortaya çıxanda, o, təbii ki, birinci mənə müraciət elədi. Mən də Vaqif müəllimlə danışdım. O, əvvəlcə tamaşaya baxmaq istədiyini bildirdi. Tamaşadan sonra mən onları tanış elədim. Pyes Vaqif müəllimin çox xoşuna gəldiyi üçün Fransa səfərini maliyyələşdirməyi öz boynuna götürdü.Fransadan qayıdandan sonra Lalə xanım öz səfər təəssüratını bölüşmək üçün yenə də Vaqif müəllimlə görüşdü. Onu da deyim ki, həmin mono tamaşa festivalda birinci yer tutmuşdu. O, ümumiyyətlə, çox istedadlı aktrisa idi. Amma heyf ki…

- Nə heyif? - müstəntiq maraqlandı.

- Fransa səfərindən sonra Vaqif müəllimlə Lalə xanımın görüşləri mütəmadi xarakter aldı. Və qısa müddət ərzində Vaqif müəllim Lalə xanıma elə vuruldu ki, hətta ona evlənmək təklif elədi. Bilirsiniz, insanın müəyyən hissləri illərlə ürəyin dərin yerlərində gizlənir, özünü büruzə vermir. Elə bilirsən ki, o hisslər artıq ölüb gedib. Amma birdən-birə məlum olur ki, yox, bu hisslər ölməyib, əksinə, içəridə sıxıldığı müddətdə bir az da güclənib. Belə halda kiçik bir təkan zəncirvari reaksiya yaradıb böyük bir zəlzələyə gətirib çıxarır…Onlar tanış olanda Lalə xanımın 25, Vaqif müəllimin isə artıq 54 yaşı vardı.Tanışlıqdan 4 ay sonra Vaqif müəllim əvvəlki həyat yoldaşından ayrılıb, Lalə xanımla evləndi. Və təbii ki, Lalə xanım aktrisalıq fəaliyyətinə son qoymalı oldu… Çox uzun danışmadım ki?

Müstəntiq başını yellətdi.

- Yox, qətiyyən. Səməd bəy, sizdən bir şey də soruşum, amma xahiş edirəm məni düz başa düşün…Sizcə, Lalə xanım Vaqif müəllimi sevirdi?

Səməd Orucov qaş-qabağını sallatdı:

- Yoxsa siz ondan şübhələnirsiniz? Bu, ən azı ağılsızlıqdır…

- Yox, şübhələnmirik, sadəcə… Nə isə, siz mənim sualıma cavab vermədiniz.

Səməd Orucov bir az da susub ağır-ağır cavab verdi:

- Bilirsiniz, qadınları tam anlamaq mümkün deyil… Bəlkə sevirdi, bəlkə də yox. Amma Vaqif müəllim onunla özünü xoşbəxt hiss edirdi. Məncə, ən əsası bu idi.

Müstəntiq ayağa qalxdı.

- Yaxşı, Səməd bəy, gedə bilərsiniz. Hələlik evdə olun, bir azdan sizin hamınıza çıxıb getmək icazəsi veriləcək.

Səməd Orucov ayağa qalxıb ağır-ağır evə tərəf addımladı.yerişindən hiss olunurdu ki hadisə ona yaman pis təsir edib. Bəlkə də qəsdən özünü belə göstərməyə çalışırdı.

Müstəntiq isə köməkçisi ilə birgə yenə evin arxasına keçdilər.Səməd Orucovun qaldığı otağın pəncərəsinin yanına çatanda arxadan kimsə müstəntiqi səslədi. O, geri çöndü. Bayaq «Vef-Bank»a göndərdiyi leytenant idi. Müstəntiq azacıq gülümsədi.

- Hə, Şerlok Holms, bankda əlavə bir şey öyrənə bildin?

- Hə, bir-iki şey öyrəndim.Amma dəqiq faktlar deyil, şayiələrdir. Adam bilmir inansın, ya yox.

- Yaxşı, uzunçuluq eləmə, de görək nə öyrənmisən?

Leytenant çox vacib və gizli bir xəbər deyirmiş kimi ətrafa baxıb səsini alçaltdı və danışmağa başladı.

- Bankda işləyən qızlardan biri mənə dedi ki, bankda söz-söhbət gəzirmiş ki, guya Səməd müəllim Lalə xanımla əvvəllər olduğu kimi indi də görüşürmüş. Təbii ki, Vaqif müəllimdən gizlində.

- Nə mənada görüşürmüş?

- Elə siz düşündüyünüz mənada. Guya onlar bir-birini hələ çoxdan sevirmiş,  qız elə dedi.

Müstəntiq bir az susub nəhayət dilləndi:

- Yaxşı, leytenant, sən get öyrəndiklərini protokollaşdır. Lazım olsan çağıraram.

Leytenant - Oldu, - deyib getdi.

Müstəntiqin köməkçisi yenə də tələsik öz versiyasını irəli sürdü:

- Rəis, ağlabatan sözlərdi ha, bayaq da o, Lalə xanımla dostluğundan danışanda əməlli-başlı qızarmışdı. Deyirəm bəlkə elə əvvəldən bunlar plan qurublar, O, Lalə xanımı Vaqif müəllimlə tanış eləsin, qız da özünü bankirə soxuşdursun. Bu yolla kişinin malına şərik çıxıblar. Sonra da dilbir olub kişinin başını yeyiblər.

Müstəntiq qeyri- ixtiyari gülümsündü:

- Sən lap mənim nənəm kimi danışırsan, dilbir olub başını yedilər. Bir qızın sözündən sən artıq o boyda həngamə quraşdırdın. Həm də onların evlənməyindən gör neçə il keçib. Səbr elə görək faktlar bizi hara aparıb çıxarır.- Müstəntiq bunu deyib, aşağı əyildi və pəncərənin altındakı otluğu diqqətlə gözdən keçipməyə başladı.Otluğun  içində sıx halda çoxlu xırda güllər əkilmişdi. Güllərin çoxu hələ təzə-təzə açılırdı. Müstəntiq gülləri  gözdən keçirib təəccüblə dilləndi:

- Maraqlıdır, əgər Səməd  bəy gecə gizlincə pəncərədən düşübsə, bəs niyə burda ayaq izləri yoxdu?

Köməkçi də aşağı əyildi:

- Hə, düzdü. Otlar da, çiçəklər də əzilməyib. Hiss olunur ki, tapdanmayıblar.

Köməkçi dilxor oldu.

- Belə çıxır ki, o,  uça-uça çıxıb pəncərədən? -Birdən nəsə tapmış kimi sevindi.

- Rəis, fikir ver, bu otluğun eni iki metr ancaq olar. Yəqin o, pəncərənin qırağından birbaşa asfaltın üstünə tullanıb.

Müstəntiq əvvəlcə pəncərəyə, sonra asfalt örtüyə baxdı.

- Yaxşı, tutalım çıxanda pəncərədən atılıb birbaşa asfaltın üstünə, bəs qayıdanda?  Iki metr aralıdan metrə yarım hündürlüyü olan pəncərəyə tullanmaq olar? Puma-zaddı səninçün?

Köməkçi lap əsəbiləşdi:

- Eh, bu da işdi? Elə bir balaca işıq ucu tapırsan, o saat bir əmma çıxır. Tutalım o, heç burdan çıxmayıb, bəs onda üçüncü mərtəbədən niyə düşüb?

- Bilmirəm.

Müstəntiq evin divarının dibiylə uzanan otluğu  axıradək gözdən keçirtdi. Maraqlı bir şey tapmadı. Sonra nədənsə asfalt zolağı keçib küçə divarının dibindəki otluğa da baxmağa başladı.Səməd Orucovun gecələdiyi otağın pəncərəsindən 15-16 metr aralıda  nəsə gördü və tez köməkçisini səslədi. Köməkçi təzəcə yandırdığı siqareti atıb ona yaxınlaşdı.

- Bura bax, səncə bu nəyin izləridi?

Köməkçi müstəntiq göstərən yerə baxdı. Küçə divarından təxminən 1.5 metr aralıda, otluğun ortasında bir-birindən 30-40 sm məsafədə iki girdə deşik vardı.

- Çolaq  adamın əsasının izlərinə oxşayır,- köməkçi dilləndi.

Müstəntiq özündən razı halda gülümsədi:

- Yaxşı fikirləş.

Köməkçi əvvəl üç-dörd  barmaq dərinliyi olan girdə izlərə, sonra isə başını qaldırıb 2-2.5 metr hündürlükdə  olan daş hasara baxdı.

- Yəni deyirsən bu, nərdivan izləridi?

Müstəntiq ayağa qalxdı:

- Əhsən, ancaq nərdivan. Başqa heç bir şey ola bilməz.

- Onda belə çıxır ki, qatil kənardan gəlib?

- Yəqin ki. Fikir ver, evin bu hissəsində arxaya pəncərə yoxdur. Yəni qatil nərdivanla burdan düşəndə heç kim onu görə bilməzdi.

Köməkçi yenə bir siqaret çıxartdı:

- Deməli, evdəkilər günahkar deyil? Onda işimiz bir az da çətinləşdi ki.

Müstəntiq diqqətlə bağın içinə baxmağa başladı.

- Bilmirəm, indi əsas məsələ nərdivandı. Get qulluqçudan öyrən gör burda nərdivan var?

Köməkçi getdi və müstəntiq bir siqaret çəkib qurtaranadək geri döndü.

- Qulluqçu deyir nərdivan anbardadı.

- Bəs anbar hardadı?

Köməkçi əliylə, küçə divarıyla evin arasındakı yolun sonunu göstərdi.

- Anbar orda olmalıdır. Açarları qulluqçudan almışam, gedək baxaq.

Onlar evlə küçə divarının arasındakı ensiz, asfalt yolla axıradək getdilər. Həyətin küncündə qarşılarına kiçik bir tikili çıxdı. Köməkçi irəli çıxdı,

- Yəqin anbar buradı.

Əlindəki açarla qapını açıb içəri daxil oldu. Elektrik qoşucusunu tapıb işığı yandırdı. Işıq yanandan sonra müstəntiq də içəri daxil oldu. Anbar müxtəlif alətlərlə, bağçılıq ləvazimatları ilə dolu idi. Qapının sol tərəfində, yerdə hündürlüyü üç metrə qədər olan sarı dəmir nərdivan uzadılmışdı. Onlar nərdivana yaxın gəldilər. Köməkçi başını qaşıyıb dilləndi,

- Elə deyəsən bu nərdivanın izləridi orada?

- Ola bilər, indi yoxlayarıq. - Müstəntiq alətlər yığılmış rəflərə göz gəzdirdi, nəhayət, uzunluq ölçəni tapıb köməkçisinə uzatdı. - Bu nərdivanın da ayaqlarının oturacağı dairəvidi. Get ordakı izlərin diametrini, aralarındakı məsafəni ölç, gəl.

Köməkçi uzunluq ölçəni götürüb çıxdı və beş dəqiqədən sonra geri döndü. Əyilib yerə uzadılmış nərdivanın ayaqlarının altlığının diametrini və aralarındakı məsafəni ölçdü. Ayağa qalxıb müstəntiqin gözünün içinə baxdı:

- Eynidi, rəis.

Müstəntiq gözünü nərdivana zilləyib pıçıldadı:

- Onda təxmin eləmək olar ki, qatil içəri bu nərdivanla keçib.

Köməkçi onun sözünü kəsdi:

- Bəs o gedəndən sonra nərdivanı bura kim qoyub? Həm də yəqin ki, qatil içəri girəndə də kimsə nərdivanı gətirib onunçün divara söykəməli idi. Onda belə çıxır ki , evdəkilərdən kimsə ona kömək eləyib?

- Yox, burda nəsə düz gəlmir. Axı, evdəkilərdən kimsə gecə bayıra çıxıbsa, bəs qorxmayıb ki, onu pəncərədən kimsə görə bilər?

Köməkçi gördü ki, müstəntiq düz deyir. Bir az fikirləşib bu suala da cavab tapdı.

- Bəlkə yuxarı mərtəbədəkilərdən biri kəndir salladaraq aşağı düşüb?

Müstəntiqi yenə gülmək tutdu.

- Sən hamını Tarzan kimi görürsən deyəsən. Axı, yuxarıda üç nəfər gecələyib. Evin sahibəsi, Moskvadan gələn qonaq, bir də onun burdakı həmkarı. Ev sahibəsi qətl baş verən vaxt telefonla danışıbY adındadı qonşu yazıçının dedikləri? O ki  qaldı qonaqlara, onlar hardan bilirlər  ki, burda nərdivan var, onu harda saxlayırlar. Biz gərək qulluqçudan öyrənək ki, anbarın neçə açarı var və kimlərdə olur.

Köməkçi razılaşdı və asta səslə pıçıldadı:

- Onda gedək qulluqçunun yanına.

- Müstəntiqlə köməkçisi qulluqçunu yenə öz otağında tapdılar. O, içəri girənləri görüb cəld ayağa qalxdı. Müstəntiq dilləndi:

- Xanım, sizdən bir söz də soruşmaq istəyirəm. Anbarın açarı kimlərdə olur?

Qulluqçu cəld cavab verdi:

- Biri mənim açarlarımın içindədi, həmin sizə verdiyim, o biri  də həmişə bağbanda olur.

- Bəs anbardakı nərdivandan kim istifadə edir?

-Ancaq bağban. Köhnəsi sınmışdı, beş-altı gün əvvəl Vaqif müəllimdən pul alıb təzəsini aldı.

Müstəntiqin yadına düşdü ki, anbardakı nərdivanın dəmirlərinə sarınmış kağız da hələ cırılmamışdı.

- Bəs bundan qabaqkı nərdivan niyə sınıb?

Qulluqçu çiyinlərini çəkdi:

- Bilmirəm. Siz özündən soruşun da.

- Soruşarıq. Siz bir sualıma da cavab verin. Bağban da gecələr burda qalır?

- Yox. Səhər gəlib axşam gedir. Dünən də axşam getmişdi, səhər polislərdən beş-on dəqiqə qabaq gəldi.

- Xanım, bilmirsiniz bağban köhnə nərdivanı tullayıb ya yox?

- Mən iki gün əvvəl onu anbarın arxasında zibillərin yanına atılmış gördüm. İstəyirsinizsə mən bağbanı tapım, özündən soruşun. O, gərək ki, buralarda olsun.

Müstəntiq etiraz elədi.

- Yox, lazım deyil, çox sağ olun.

Müstəntiqlə köməkçisi otaqdan çıxdılar.

- Mən köhnə nərdivana baxmaq istəyirəm, -müstəntiq dilləndi.

- Niyə ki?

- Ağlıma bir şey gəlib. Gedək anbarın yanına. Arvad dedi ki, köhnə nərdivanı orda görüb.

Onlar yenə evin arxasına keçib anbarın yanına gəldilər. Anbarın sağ divarının dibinə bir-iki sınıq stul, setkası qırılmış krovat və nəhayət, sınıq dəmir nərdivan atılmışdı. Müstəntiq nərdivanı diqqətlə nəzərdən keçirib köməkçisinə tərəf çöndü:

- Səncə, bu nərdivanın təzəsindən fərqi nədir?

Köməkçi də diqqətlə nərdivanı gözdən keçirib çiyinlərini çəkdi.

- Eyni şeydi də. Fərq ondadı ki, birinin rəngi sarıdı o birininki isə göy.

Müstəntiq ayağa qalxıb belini düzəltdi və mənalı-mənalı köməkçisinə baxdı.

- Əsas fərq ondadı ki, təzə nərdivan bundan xeyli böyükdü.

Köməkçi nərdivanı bir də diqqətlə gözdən keçirtdi.- Hə, düzdü, heç mən ilk baxışdan fikir verməmişdim.- Bir az susub əlavə elədi,- deyirsən yəni bağban qəsdən köhnə nərdivanı sındırıb ki, yerinə böyüyünü alsın?

- Hə, yəqin bağban görüb ki, bu nərdivan qısadı, onunçün bunu sındırıb , əvəzində böyüyünü alıb. Görürsən ki, bu nərdivan divarın üstünə çatmır.

Köməkçi yenə bir az fikirləşib dilləndi:

- Ola bilər. Amma o, gecə bağda olmayıb axı?

Müstəntiq əlini yellətdi:

- Nə bilirsən ki? Bəlkə o, heç gecə evə getməyib? Bağda gizlənib, gecə qatili içəri keçirib, səhər yenə də bağdan fırlanıb evə gəlib. Axı, heç kim onun səhər məhz küçə qapısından içəri girdiyini görməyib.

Köməkçi yenə razılaşmadı:

Tutalım ki, hər şey sən deyən kimi olub, bağban gecə bağda qalıb. Onda bu qədər əziyyət nəyə lazım? Elə həyət qapısını açıb qatili rahatca içəri buraxardı da.

Müstəntiq mənalı-mənalı gülümsündü:

- Əgər gecə kimsə qapıdan içəri girsəydi, prezident qvardiyasının əsgərləri görərdi. Qətli planlaşdıranlar isə işi elə qurublar ki, biz əmin olaq ki, bağa kənardan heç kim girməyib, şübhə altına yalnız evdəkilər düşsün.

Bu dəfə köməkçi razılaşdı.

- Hə, düzdü. Onda götürək bağbanı?

Birdən elə bil müstəntiqin yadına nəsə düşdü, qaşqabağını tökdü.

- Bir şey yadımızdan çıxdı.

- Nə?

- Bıçaq. Əgər qatil kənardan gəlibsə, bəs evdəki bıçaq onun əlinə necə düşüb? Lap tutalım bağban gündüz gizlincə bıçağı divardan açıb- götürüb, gecə verib qatilə. Nəyə görə? Bıçaq qəhətdi məgər?

Köməkçi də dilxor oldu:

- Hə, düzdü… Rəis, fikrimə bir şey də gəldi. Əgər biz hesab ediriksə ki, bağban gecə bağda qalıb, onda elə özü də Vaqif müəllimi öldürə bilərdi.

- O da ola bilər. Hər halda indi başqa versiyamız yoxdu.

Onlar gəldikləri yolla geri qayıdıb evin qabağına çıxanda şəhərin baş prokurorunu gördülər. O, ekspert qrupunun rəhbəri ilə nəsə danışır, arabir qəzəblə əllərini yellədirdi. Prokuror evin arxasından çıxan müstəntiqi görüb işarəylə onu yanına çağırdı.

Müstəntiq cəld şəhər prokuroruna yaxınlaşdı. Prokuror ekspert qrupunun rəhbərini danlayıb qurtarandan sonra müstəntiqə tərəf çöndü:

- Sən də bunlar kimi üzüqarasan, yoxsa nəsə tapmısan?- Prokuror bunu deyib ekspert qrupunun rəhbərinə tərəf baxdı.

- Gedin işinizlə məşğul olun.- Yenə müstəntiqə çönüb qəzəblə deyinməyə başladı: -Səhərdən adam qalmayıb mənə zəng eləməsin. Respublikanın baş prokuroru, Maliyyə naziri, Milli Məclis deputatları. Hamısı da bu işlə maraqlanır. Qatilin tezliklə tapılmasını tələb edir. Elə bil qatil oturub bizi gözləyir ki, gəlib onu tutaq.

Müstəntiq başını tərpətdi.

- Hər halda rəhmətlik balaca adam deyildi.

Müstəntiqin sözündən sonra Prokuror lap özündən çıxdı:

- Balaca adam deyildisə, bağda üç-dörd nəfər oxran saxlayaydı. Artıq pul xərcləmək canlarından çıxmır. Bir şey olanda da bizim beynimizi xarab eləyirlər. -Prokuror bir az susub özünü sakitləşdirməyə çalışdı. -Hə, bir şey araşdıra bilmisən, ya yox?

Müstəntiq öz müşahidələrini və versiyalarını prokurora danışdı.

Prokuror köynəyinin yaxasını açıb dərindən nəfəs aldı.

- Deyirsən, yəni kimsə kənardan gəlib bu hadisəni törədib?

- Mən elə fikirləşirəm.

- Bilirsən, mən səhərdən öz kanallarımla mərhum haqqında  xeyli şey öyrənmişəm. Danışdığım adamlrın hamısı israr elədi ki, bu, sifarişli qətl ola bilməz. Özün bilirsən ki, belə şeylər gizli qalmır. Hamı  qəti əmindir ki,onun ölümünün bankın fəaliyyətinə  heç bir dəxli yoxdur. Burda nəsə başqa məsələ var. Həm də bu cinayət sifarişli olsaydı, onu hansı silahla öldürməyin heç bir fərqi olmazdı. Əgər hadisəni məhz divardan asılan bıçaqla törədiblərsə, deməli…

- Bəlkə qətli məhz o bıçaqla törədiblər ki, biz evdəkilərdən şübhələnək? Bir də ki, nərdivan məsələsi çox müəmmalıdır.

Prokuror yenə əsəbiləşdi:

- Əşi, nə yapışmısan nərdivanın quyruğundan? Bəlkə bağban gündüz nə üçünsə ondan istifadə edib? Çağır özündən soruş da.

- İstəmirəm bilsin ki, ondan şübhələnirik.

Prokuror üzünü çöndərib həyətdəki polislərdən birini yanına çağırdı.

Polis nəfəri qaça-qaça onun yanına gəldi.

- Serjant, get mənim sürücümə de ki, maşının arxa oturacağındakı qovluğu sənə versin. Tez gətir bura.

Serjant - Oldu, - deyib getdi. Prokuror isə bir qədə fikirləşib müstəntiqə son göstərişlərini verdi.

- Onda bağbanla mərhumun müavini Səməd Orucovun üstündə  gizli nəzarət təyin elə. Qoy uşaqlar üç-dörd gün onları ciddi surətdə güdsünlər. Bəlkə bir nəticə verdi.

Elə bu vaxt polis serjantı prokurorun qovluğunu gətirdi. Prokuror qovluğu alıb müstəntiqə uzatdı.

- Bunları da götür, axşam evdə baxarsan. Mənim öz kanallarım vasitəsiylə öyrəndiyim informasiyalardı. Sənə lazım olar. Bəlkə maraqlı bir şey tapa bildin. Yaxşı, mən gedirəm. Əlavə bir xəbər olsa, mənə zəng elə.

- Oldu. Sağ olun.

Prokuror bunu deyib həyət qapısına tərəf getdi. Müstəntiq isə fikirli- fikirli bir az dayanıb evin arxasına tərəf addımladı. Bayaqdan kənarda dayanıb müstəntiqlə prokurorun söhbətinə qulaq asan köməkçi də lal-dinməz onun dalıyca gəldi.

Müstəntiq bayaqkı nərdivan izlərinin yanına gəldi. Bir az izlərə baxıb köməkçisinə tərəf döndü:

- Bəlkə prokuror düz deyir. Bu nərdivan məsələsinin qətlə heç bir dəxli yoxdur?

Köməkçisi əlavə elədi - Yəni izlər bizi çaşdırıb? - Sonra arxaya, Səməd Orucovun gecələdiyi otağın pəncərəsinə baxıb dilləndi: - Rəis, bəlkə müavin də pəncərədən nərdivanla düşüb birbaşa asfaltın üstünə, ona görə də otluqda iz qalmayıb?

Müstəntiq də pəncərəyə baxdı:

- Ola bilər. Onda yenə bağban şübhə altına düşür. Hər iki versiya bağbanın bu işdə əli olmasını göstərir. Bununla belə, hələ əlimizdə dəqiq fakt yoxdur. Deyəsən, prokurorun məsləhətinə əməl etməli olacağıq. Müavini də, bağbanı da ciddi nəzarət altında saxlamaq lazımdı. Görək üç-dörd gün ərzində neyləyəcəklər. Bağban əmindi ki, heç kim ondan şübhələnməyib. Çünki, guya gecə bağda olmadığı üçün uşaqlar heç onu dindirməyib də.

- Görəsən bağbanın doğurdan da gecə evdə olub-olmamasını necə öyrənək ki, özü bundan xəbər tutmasın?

Müstəntiq etiraz elədi:

- Lazım deyil. Əgər hər şey biz düşündüyümüz kimidirsə, bağban işini ehtiyatlı tutub özüyçün alibi də quraşdıra bilər.

Köməkçi razılaşdı:

- Hə, düzdü. Elə isə biz yalnız onların üstünə gizli nəzarət qoyub bir az gözləməliyik.

Hadisənin səhəri günü Vaqif Fətəliyevi təntənəli surətdə dəfn elədilər. Onu son mənzilə yola salmaqçün ölkənin demək olar ki, bütün nüfuzlu şəxsləri yığışmışdı. Hamı da istintaqın nəticələri ilə maraqlanırdı. Dəfn mərasimində iştirak edən şəhər prokuroru isə
suallara cavab verməkdən çəkinir, nəticə çıxarmağın hələ tez olduğunu deyirdi. Prokuror bircə onu bilirdi ki, qətl mərhumun professional fəaliyyətiylə bağlı deyil.

Bankirin dəfnindən artıq iki gün keçirdi. Bağbanın və Səməd Orucovun üstünə qoyulan gizli nəzarət hələ ki, bir nəticə verməmişdi. Nə bağban, nə də mərhum bank prezidentinin müavini hansısa şübhə doğuracaq bir hərəkətə yol verməmişdilər. Işlərin bu tərzdə davam edəcəyi təqdirdə nə etmək barədə məsləhətləşmək üçün müstəntiq Eldar Əfəndiyev şəhər prokurorunun yanına gəldi. Prokuror son məlumatları dinləyib kreslosunda qurcuxdu:

- Hə, belə-belə işlər, mən elə əvvəldən bilirdim ki, bu işi açmaq asan olmayacaq. Sifarişli qətl olanda bundan asan olur. Yuxarıdakıların hamısı bilir ki, kim kimi aradan götüzdürüb və nəyə görə. Bizim də baş- beynimizi aparan olmur. Beş-altı aya hadisə də unudulur. Amma indiki kimi olanda vəziyyət pisləşir. Hamı maraqlanır ki, görəsən filankəsi kim öldürüb, nəyə görə öldürüb? Hamı da gözləyir ki, iş nə vaxt açılacaq. Hər gün də bizim beynimizi xarab eləyirlər.- Prokuror bir az pauza verdi. - Tutalım heç bunlar şübhəli bir hərəkət eləmədilər, onda neyləmək fikrin var?

- Mən də elə onunçün gəldim ki, sizinlə bu barədə məsləhətləşim. Fikrim budur ki, əgər bağbanla Səməd Orucovun üzərinə qoyulan gizli nəzarət heç bir nəticə verməsə, həftənin axırında onların ikisini də götürək. Burda onları bir az sıxsaq, mənə elə gəlir ki, dilləri açılar. Həm də ev sahibəsini bir dəfə bura çağırıb bir də ətraflı dindirmək istəyirəm.

Prokuror təəccüblə müstəntiqə baxdı:

- Deyirsən yəni onun da bu işə dəxli var?

- Dəqiq heç nə bilmirəm. Amma bir məsələ məni düşündürür. Mərhumun bütün əmlakı indiki arvadıyla oğlunun arasında bölünməlidi. Əmlak da yəqin bilirsiniz ki, az deyil.

Prokuror dodaqaltı qımışdı.

- Elə şeylər xaricdə olur, cavan qız qocı bir milyonerə ərə gedir ki, onun başını yeyib var-dövlətinə sahib çıxsın. -Sonra bir az ciddiləşdi. -Hər halda yaxşı-yaxşı yoxla, ola bilər ki, sən deyən kimi olsun. Ara açılandan sonra o tərəfdəkilərin bütün axmaq xasiyyətləri keçib bizimkilərə. Hamısı o kinoların zibilidi.

Müstəntiq təsdiq elədi:

- Hə,.. hər halda mənə elə gəlir ki, o, dediklərindən çox bilir.

Prokuror ayağa qalxdı:

- Yaxşı, get danışdıqlarımızı elə, sonra dəyərsən mənə. Indi işim var, gedirəm, sabah gələrsən sanksiya məsələsini həll edərik.

Müstəntiq də ayağa qalxdı və prokurorla birgə kabinetdən çıxdı. Dəhlizdə onunla sağollaşıb öz otağına tərəf getdi. Otağına yaxınlaşanda köməkçisinin rəngi ağarmış halda otaqdan çıxdığını

gördü. Başa düşdü ki, yenə nəsə fövqəladə bir hadisə baş verib. Ilk ağlına gələn bu oldu ki, yəqin bağbanı aradan götürüblər.

Köməkçi dəhlizin başında müstəntiqin gəldiyini görüb onun qabağına qaçdı. Dili topuq çala-çala dilləndi:

- Rəis, bağda yenə hadisə baş verib. Rayon polis şöbəsindən zəng vurmuşdular.

Müstəntiq öz köməkçisini heç vaxt belə həyəcanlı görməmişdi. Hətta ən ağır cinayət hadisələrini araşdıranda belə o, öz soyuqqanlılığını saxlaya bilirdi. Indi isə…

Müstəntiq cəld soruşdu:

- Nə olub ki?

- Gecə bağda Lalə xanımı öldürüblər. Rayon cinayət axtarışı şöbəsinin əməkdaşları artıq ordadı.

Müstəntiq əvvəl çaşdı. Sonra özünə gəlib tez pilləkənlərə tərəf cumdu. -Tez ol, gedək bağa. Yoxsa bütün izləri qatıb-qarışdıracaqlar.

Onlar aşağı düşüb maşina mindilər və Vaqif Fətəliyevin bağına sürdülər. Yol boyu nə müstəntiq, nə də köməkçisi bir kəlmə də danışmadı. Təxminən yarım saatdan sonra onlar artıq hadisə yerindəydilər. Bağda ilk qarşılarına çıxan rayon cinayət axtarışı şöbəsinin rəisi oldu. O, müstəntiqlə salamlaşıb məlumat verdi:

- Bizə bağın qulluqçusu zəng eləyib. Səhər bağa gələndə görüb ki, qapılar açıqdı. Evə girib otaqları gəzəndə isə qonaq otağında ev sahibəsinin cəsədini tapıb. Bunu görən kimi qulluqçunun ürəyi gedib. Dediyinə görə təqribən yarım saatdan sonra özünə gəlib, tez polisə zəng edib, biz də prokurorluğa xəbər elədik.

Müstəntiq soruşdu:

- Ekspertlər gəlib?

- Hə, artıq işə başlayıblar.

- Onda qalxaq yuxarı.

Onlar evə girib ikinci mərtəbədəki qonaq otağına qalxdılar. Cinayət axtarışı şöbəsinin rəisi qapıya çatanda müstəntiqi irəli buraxdı. Müstəntiq qapını açıb içəri keçdi. Otaqda dağınıqlıq hiss olunmurdu. Deyəsən qatil ilə qurbanın arasında heç bir mübahisə getməmişdi. Ev sahibəsinin cəsədinin üstünə ağ parça salınmışdı. Ekspertlərsə stəkanlardan barmaq izlərini götürməklə məşğul idilər. Müstəntiq otaqdakılarla salamlaşıb çarpayıya yaxınlaşdı və cəsədin üstünə salınmış ağı çəkdi. Əvvəlcə bir anlıq çaşdı, elə bil ki, qarşısında ağ mərmər heykəl uzanmışdı. Bir müddət gözlərini

meyiddən çəkə bilmədi. Sanki bu ölü gözəllik onu ovsunlamışdı. Iki üç gün əvvəl ev sahibəsiylə görüşəndə müstəntiq onun bu qədər gözəl olduğunu heç hiss etməmişdi. Amma indi…

Qadının dodaqlarında qurumuş qəribə təbəssüm müstəntiqin diqqətini cəlb etsə dəbu saat belə sentimental şeyləri düşünməyə vaxt yox idi. Ev sahibəsinin xalat kəməriylə çarpayının başlığına bağlanmış əllərinə baxanda müstəntiq gördü ki, onun venası kəsilib. Bütün qanı axıb getdiyinə görə də bədəni ağappaq olmuşdu. Çarpayının yanındakı dolabın üstünə isə əvvəlki qətldə istifadə olunan antikvar bıçağın ikinci tayı qoyulmuşdu.

Müstəntiq arxadan köməkçisinin həyəcanlı səsini eşitdi.

- Həmin bıçağın tayıdır ki…

Müstəntiq təsdiq elədi:

- Hə, həmin zəhrimara qalmış bıçaqdı. -O, bunu deyib yenə diqqətlə ev sahibəsinin cəsədini gözdən keçirdi. Alt altarı cırılmışdı. Açıq-aydın bilinirdi ki, ev sahibəsini əvvəl zorlayıb, sonra öldürüblər.

Müstəntiq ayağa qalxıb üzünü cinayət axtarışı şöbəsinin rəisinə tutdu:

- Nə öyrənə bilmisiniz?

Mayor rəsmi görkəm alıb cavab verdi:

- Hələlik yalnız qulluqçunu və səhər gələn sürücünü dindirmişik. Qulluqçu dedi ki, o günki hadisədən sonra işə çıxmamışdım. Yalnız dünən axşam Lalə xanım zəng vurub dedi ki, səhər bağa gəlim. Mən də gəldim. Sürücü isə axşam xanımı gətirib, bağa qoyub gedib, səhər də dalıyca gəlməliymiş. Elə də oldu. Sürücü bağa bizdən sonra gəldi.

Qəfildən müstəntiq soruşdu:

- Bəs bağban? O, bağdadı ya yox?

Mayor qəfildən müstəntiqin bağbanla maraqlanmasına təəccüblənsə də, cavab verdi:

- O da səhər gəlib. Onu hələ ətraflı dindirməmişik. Özü bircə onu dedi ki, axşam Lalə xanım zəng edib səhər bağa gəlməyini xahiş edib.

- O da sizdən sonra gəlib?

- Yox, biz gələndə o, artıq bağdaydı. Səhər əvvəl qulluqçu gəlib, sonra bağban. Saat on bir radələrində isə biz gəldik. Bizdən bir az sonra da sürücü gəldi.

Müstəntiq üzünü ekspert qrupunun rəhbərinə tutdu:

- Sizdə nə var?

Qrupun rəhbəri ekspertlərə bir-iki göstəriş verib müstəntiqə yaxınlaşdı:

- Qətl dünən axşam saat on bir-on iki radələrində törədilib. Xanımı əvvəl zorlayıb, sonra öldürüblər. Bıçaq keçən dəfəki antikvar bıçağın ikinci tayıdır. Divardakı xalçanın üstündən açıblar. Xanımın yatağında iki-üç baş tükü tapılıb. Kişi saçına oxşayır. Götürmüşük ki, laboratoriyada yoxlayaq. Indi də barmaq izləriylə məşğuluq.

- Yaxşı, işinizdə olun - müstəntiq bunu deyib, köməkçisi ilə birgə otaqdan çıxdı. Mayor da onun dalınca dəhlizə çıxıb dilləndi:

- Bayaq yenə prezident qvardiyasının gecə növbəsində olan əsgərləriylə görüşdüm. Gecə bağa girən olmayıb.

Müstəntiq onu dinləyib tapşırdı:

- Siz hələlik ekspertlərin işinə nəzarət edin, biz həyəti gözdən keçirək.

Mayor, - Oldu,- deyib yenə hadisə baş verən otağa qayıtdı. Müstəntiqlə köməkçisi isə həyətə düşdülər. Birinci köməkçi dilləndi:

- Evin arxasına baxaq?

- Elə ora gedirik. Mənə elə gəlir ki, bu dəfə də qatil əvvəlki yolla bağa girib, hətta bıçaq da eynidi.

Onlar əvvəlki nərdivan izlərinin yanına çatanda müstəntiqin haqlı olduğu məlum oldu. Birinci izlərin təqribən bir metrliyində yeni izlər peyda olmuşdu.

Köməkçi gözünü izlərdən çəkib müstəntiqə baxdı.

- Yəni bu dəfə də bağban gecə bağda qalaraq qatili gizlincə içəri buraxıb?

- Deyəsən elədir. Ürəyimə damıb ki, burda Səməd Orucovun əli var.

Köməkçi bir az düşünüb əlavə elədi: - Amma bu dəfə deyəsən düz gəlmir. Tutalım ki, əvvəlki qətl zamanı bağban bağda olub, amma gecə evə getməyib, bağda qalıb. Bəs bu dəfə o, bağa necə girib? Axı, iki gündür bağın qapısı bağlı olub.

Müstəntiq fikirləşib belə bir versiya irəli sürdü:- O, axşam da bağa gələ bilərdi. Elə Lalə xanımdan sonra. Ola bilər ki, o, axşam nə bəhanəyləsə Lalə xanımın yanına gəlib, sonra isə çıxıb getmək əvəzinə bağda gizlənib. Axı, biz yalnız onun öz sözlərindən müəyyən eləmişik ki, axşam ev sahibəsi ona zəng vurub. Bəlkə heç belə bir şey olmayıb?

Köməkçi təslim olmadı.

- Əgər Lalə xanım bağbana zəng etməyibsə, o, hardan bilib ki, bu axşam ev sahibəsi bağda qalacaq?

Müstəntiq hövsələdən çıxdı:

- Sən gərək bağbanın vəkili olaydın. Bir səbrin olsun da. Yavaş-yavaş hər şeyi aydınlaşdırarıq. Niyə tələsirsən ki?

Köməkçi bir az incik halda başını aşağı saldı. Onlar evin arxasından çıxanda, pilləkənlərin üstündə Səməd Orucovu gördülər. O, müstəntiqi görən kimi onlara yaxınlaşdı. Həyəcandan rəngi ağarmışdı. Əlləri də əsirdi.

- Axı, bu necə ola bilər, srağagün Vaqif müəllim, bu gün Lalə xanım. Adam az qalır lap dəli ola.

Müstəntiq diqqətlə Səməd Orucovun üzünə baxdı. Sanki onun həyəcanının həqiqi yaxud saxta olduğunu müəyyən eləməyə çalışırdı.

- Bəs siz hardan xəbər tutdunuz?

- Mən bir saat bundan qabaq bir işlə bağlı onların sürücüsünə zəng vurmuşdum, o mənə dedi. Az qaldı ki, başıma hava gələ, axı, onların ölümü kimə lazım idi?

Müstəntiq bu dəfə bir az sərt səslə dilləndi:

- Onu siz yaxşı bilməlisiniz.Axı, onların ən yaxın adamı siz idiniz.

Səməd Orucov müstəntiqin səsindəki kinayəni hiss etmədi. Fikirli-fikirli ona baxdı.

- Cənab müstəntiq, əgər mümkünsə, beş dəqiqə bu skamyada oturaq, mən sizə bəzi şeyləri danışmaq istəyirəm. Amma xahiş edirəm ki, indi dediklərim protokola düşməsin.

- Buna söz verə bilmərəm. O asılıdır sizin nə deyəcəyinizdən.

Onlar pilləkənlərin sol tərəfindəki skamyada əyləşdilər. Səməd Orucov ağır-ağır söhbətə başladı.

- Əgər Lalə xanımın bu dəhşətli qətli olmasaydı, mən indi deyəcəklərimi heç vaxt dilimə gətirməzdim. Amma indi mənə elə gəlir ki, bütün bunları mütləq sizə danışmalıyam. Bəlkə qatili tapmaqda sizə bir köməyi dəydi. Bilirsiniz… - o, bir az susub gözlərini qətl baş verən otağın pəncərəsinə zillədikdən sonra yenə dilləndi - …mən əvvəllər onu sevirdim… Mənə elə gəlirdi ki, o da məni sevir. Biz bir neçə il yaxın olmuşduq. Amma o, Vaqif müəllimlə tanış olandan sonra hər şey dəyişdi. Belə demək mümkünsə, o, Laləni mənim əlimdən aldı. Günah mənim özümdəydi. Müəyyən səbəblər üzündən mən Laləylə münasibətlərimi gizlin saxlayırdım. Dəqiq qərar qəbul edənə qədər istəmirdim ki, onun adına söz çıxardım. Əgər Vaqif müəllim bunları bilsəydi, o, heç vaxt Laləyə yaxın durmazdı. O, kişi adam idi və belə şeylər barədə öz prinsipləri vardı… Mənim yerimə ayrısı olsaydı, yəqin ki, başqa cür hərəkət edərdi. Amma mən kənara çəkilməyi qərara aldım. Həm də hiss elədim ki, Lalə də Vaqif müəllimə meyl edir. Fikirləşdim ki, qadındı da, yəqin Vaqif müəllimlə

ünsiyyət ona maraqlı gəlib. Bilirsiniz, bu barədə mənim öz fikrim var. Əgər kimsə kiməsə yalandan eşq elan edirsə, bu, böyük günahdı. Yox, əgər kimsə əvvəl sevdiyindən soyuyub başqasına meyl salırsa, burda pis heç nə yoxdu. Axı, heç kim öz hisslərinə hakim deyil. Yaranmış istəyi yox etmək mümkün deyil, onu yalnız cilovlamaq olar. Bunu da ki, hər adam bacarmır. Nə isə, deyəsən yordum sizi…

- Yox, qətiyyən. Davam edin.

- Onlar tanış olandan bir az sonra Lalə bildirdi ki, Vaqif müəllim ona evlənmək təklif edib. Mən heç nə demədim. O isə mənim susmağımı görüb hirsləndi və çıxıb getdi. Iki gündən sonra eşitdim ki, o, Vaqif müəllimin evlənmək təklifinə razılıq verib. Beləcə, mən kənara çəkildim. Onlar isə evləndilər. Əslinə qalanda, mən ürəyimdə buna sevinirdim. Bu sizə qəribə gələ bilər, amma mən Laləni sevsəm də, onunla ailə həyatını təsəvvürümə gətirə bilmirdim. O, ailə üçün yaranmamışdı. Laləylə yaxınlıq həm maraqlı, bununla bərabər həddindən artıq ağır idi. Onun çox qəribə, qeyri- adi xasiyyəti vardı. Elə bil ki, hər gün tamam ayrı adam olurdu. Gözlənilməz qəribə hərəkətlər, qeyri-adi istəklər onu çox cazibədar göstərsə də, bu, onunla normal ailə həyatını mümkünsüz edirdi. Bilmirəm fikrimi düzgün izah edə bilirəm, ya yox. Təsəvvür edin ki, bu gün valeh olduğu bir şeyə sabah nifrət edirdi. Heç vaxt qabaqcadan bilmək olmurdu ki, bir saatdan sonra onun əhval-ruhiyyəsi, keyfi necə olacaq. – O, bir az susub ağır-ağır əlavə etdi. - Hə, mən onu sevirdim, amma bununla belə ondan dəhşətli dərəcədə qorxurdum. Buna görə də o, Vaqif müəllimə ərə gedəndə ürəyimin dərinliyində yüngül bir rahatlıq yaranmışdı. Elə bil ki, mən hansısa ağır bir xəstəlikdən qurtulmuşdum. Lakin bu sakitlik çox sürmədi. Ərə gedəndən beş-altı ay sonra o, yenə mənim yanıma gəlib köhnə əlaqələrimizi bərpa etmək istədiyini bildirdi. Sözün düzü, bu, mənimçün çox gözlənilməz oldu. Düzdü, mən ondan hər cür qəribəliklər görməyə öyrəşmişdim, amma belə bir şeyi heç vaxt ağlıma gətirə bilməzdim. Mən fikirləşmədən onun bu niyyətinə sərt surətdə etiraz etdim. Arada Vaqif müəllim vardı və mən heç vaxt onu tapdalaya bilməzdim . Lakin o, öz təkidlərindən əl çəkmədi. Imkan düşən kimi məni qıcıqlandırmağa çalışırdı. Bir müddətdən sonra mən yavaş-yavaş ona nifrət etməyə başladım. Çünki hiss elədim ki, o, Vaqif müəllimə yalnız maddi vəziyyətinə görə ərə gedib. Nəhayət, bir gün xəbər tutdum ki, o, gizlincə, hələ teatrda işlədiyi vaxtlarda tanış olduğu bir pərəstişkarı ilə görüşür. Onun bu hərəkəti məni lap özümdən çıxartdı.Zəng edib bu hərəkətinə görə onu danladım. Lalə isə qəhqəhə çəkib dedi ki, sən qısqanclıqdan belə edirsən, özünün istədiyin, amma etməyə qorxduğun işi başqasının görməyi səni qıcıqlandırır. Sonra isə bildirdi ki, əgər istəsən, mən onu səninlə də tanış edə bilərəm. Mən lap hirslənib dəstəyi atdım. Bundan sonra onunla uzun müddət

əlaqə saxlamadım. Lakin o, hər dəfə imkan düşdükcə mənə müxtəlif atmacalar atır, artıq hərəkətlər edirdi. Həm də hiss edirdim ki, bundan ləzzət alır. Mənsə bacardıqca ondan uzaq olmağa çalışırdım. Amma bu, həmişə mümkün olmurdu. Vaqif müəllim bütün bunlardan xəbərsiz olduğu üçün məni tez-tez evlərinə çağırır və çox vaxt mən elə onlarda gecələyirdim. Beləcə, mən tez-tez özümdən asılı olmayaraq Lalə ilə üzləşməli olurdum. Uzun müddət beləcə davam etdi. Onun bu hərəkətləri məni o qədər əsəbləşdirmişdi ki, hətta Vaqif müəllimin bankındakı işdən çıxmaq fikrinə də düşmüşdüm. Amma tutarlı bir səbəb tapa bilmirdim. Axı, Vaqif müəllim işdən çıxmağımın səbəbini soruşacaqdı. Nə isə, çox axmaq bir vəziyyətə düşmüşdüm. Özüm də bilmirdim ki, neyliyim. Faciəvi Hadisələrdən təxminən bir ay əvvəl isə Lalənin davranışında qəribə dəyişiklik hiss elədim. Elə bil ki, birdən-birə mən onun tam yadından çıxmışdım. Bu, mənə qəribə gəldi. Artıq o, mənə zəng eləmir, görəndə isə dilucu salamlaşıb uzaqlaşırdı. Sözün düzü, bu , mənə müəyyən qədər pis təsir elədi… Bilirsiz, o, həmişə insanlarla oynamağı sevirdi. Həyat onunçün elə bil ki, teatr səhnəsi idi. Və mən duyurdum ki, Vaqif müəllimə ərə gedib teatrdakı fəaliyyətinə son qoyandan sonra mənimlə bu cür davranıb məni qıcıqlandırmaq onunçün sadəcə maraqlı bir oyun idi. Və boynuma alıram ki, ürəyimin dərinliyində bu, mənə ləzzət verirdi. Və bu oyun birdən-birə kəsiləndə məndə çox qəribə hisslər yarandı. Həm sevinirdim, həm qısqanırdım. Hər halda mənim ona qarşı olan hisslərim tamam ölməmişdi və mənə elə gəlirdi ki, o, özü üçün başqa əyləncə tapıb. Əlbəttə ki, mən onun teatrdakı pərəstişkarlarını nəzərdə tutmuram. Çünki sonra başa düşdüm ki, Lalə həmin adamla məhz məni qıcıqlandırmaqçün görüşürmüş. Beləcə, bir müddət nigarançılıq içində qaldım. Nəhayət , bir gün dayım qızı bizə gəlmişdi. Necə oldusa söhbət Lalədən düşdü. Dayım qızı onunla bu ərəfədə olan bir telefon söhbətindən danışdı. Dayım qızı söhbət əsnasında ondan soruşubmuş ki , bəs heç teatrçün, oynadığın rollarçün darıxırsan? Lalə də cavab verib ki, mən indi elə bir rol oynayıram ki, xaricdə buna görə mənə Oskar mükafatı verərdilər. Dayım qızı da soruşub ki, özünü ərini sevən qadın kimi göstərməyini deyirsən? Lalə isə deyib, yox, mənim indi oynadığım rol ondan qat-qat maraqlıdır. Hər şey beş-altı gün bundan qabaq başlayıb. Bağa gələrsən, göstərərəm. Dayım qızı da söz verib ki, teatr tətilə çıxan kimi mütləq sizin bağa gələrəm, Hər şeyi danışarsan. Bu söhbət məni lap maraqlandırdı. Lalənin dediyi oyunun beş-on gün bundan qabaq başlaması heç cür mənim fikrimdən çıxmırdı. Axı, məhz beş-on gün qabaq onun mənə birdən-birə tam biganələşdiyini hiss eləmişdim. Nigarançılığım lap artdı. Həm də birdən-birə özümdən də asılı olmayaraq onu qısqanmağa başladım. Mən onu heç Vaqif müəllimə bu cür qısqanmamışdım. Ağır da olsa, Lalənin başqasıyla yox, məhz mənimlə oynamasını istəyirdim. Mən bu əhval-ruhiyyədəykən daha iki-üç həftə keçdi və qəfildən Vaqif

müəllim qətlə yetirildi. Bu hadisə bizim hamımızı şok vəziyyətinə saldı. Qətlin səbəbi məni çox düşündürdü. Bilirsiz, mən qəti əmin idim ki, bu hadisənin bankla heç bir əlaqəsi yoxdur. Əgər bankın fəaliyyətində Vaqif müəllimin qətliylə nəticələnəcək bir şey olsaydı, mən mütləq bundan xəbər tutardım. Nədənsə, mənə elə gəlirdi ki, bu hadisə Laləylə bağlıdır. Vaqif müəllimi dəfn edən günün axşamı mən Laləyə zəng elədim ki, ona təskinlik verim. O, dəstəkdə mənim səsimi eşidən kimi hönkürməyə başladı. Ağlaya-ağlaya dedi ki, mən bilmirdim bu oyunun axırı belə pis qurtaracaq. Bütün günahlar təkcə məndədir. Mən, təbii ki, heç nə başa düşmədim. Onu sakitləşdirib hər şeyi əməlli-başlı danışmasını xahiş etdim. Lalə bircə onu dedi ki, hər şey o qədər gözlənilmədən baş verib ki, mənə özümə gəlmək üçün vaxt lazımdır. Bir-iki gündən sonra görüşərik və mən hər şeyi sənə danışaram. Mən onun xasiyyətinə bələd olduğum üçün başa düşdüm ki, təkid etməyin xeyri olmayacaq, O, indi mənə heç nə deməyəcək. Onunçün də onu bir az da sakitləşdirib sağollaşdım. Nigarançılığım, narahatçılığım birə yüz artmışdı. Özümə yer tapa bilmirdim. Qərara gəldim ki, bu gün onunla zəngləşib danışım. Səhər zəng vurdum, mobil telefonu cavab vermədi. Sonra isə sürücülərinə zəng etdim və o, hər şeyi mənə danışdı. Lalənin öldürüldüyünü eşidən kimi elə bil dilim tutuldu. Maşina oturub bura sürdüm. Yolda o qədər həyəcanlıydım ki, iki dəfə az qaldı maşını yoldan qırağa aşırdım. Allah saxladı məni, qəza baş vermədi. - Səməd Orucov sözünü tamamlayıb doluxsundu və əlavə etdi: - Məni Allah saxladı. Amma Laləni saxlamadı.

Müstəntiq gördü ki, onun əməlli-başlı gözləri dolub. Fikirləşdi ki, əgər bu adam yalan danışırsa, deməli, o, çox dahi bir aktyordur.

- Özünüzü ələ alın, Səməd bəy, biz mütləq Lalə xanımın qatilini tapacağıq. Mütləq.

Səməd Orucov cibindən çıxartdığı dəsmalla gözlərini sildi.

Müstəntiq isə üzünü köməkçisinə çevirdi:

- Kağız qələm çıxart ,- sonra Səməd Orucova çöndü.- Səməd bəy, o şəxsin adı necəydi?

- Kimin?

- Lalə xanımın görüşdüyü adamın.

- Həmid Qasımov. Gərək ki, onların teatrında rəssamdı. Amma mənə elə gəlir ki, onun bu məsələlərə dəxli yoxdu.

Müstəntiq etiraz elədi.

- Bilmək olmaz, hər halda yoxlamaq lazımdır. Bəlkə elə şeylər olub ki, siz bunlardan xəbərsiz olmusunuz.

Səməd Orucov da başını tərpətdi:

- Bəlkə də siz haqlısınız, nə bilmək olar, insanlardan hər şey gözləmək olar.

Müstəntiq ayağa qalxdı.

- Çox sağ olun, Səməd bəy, mənə elə  gəlir ki, siz bizə çox qiymətli məlumatlar verdiniz.

Səməd Orucov da ayağa durdu.

- Dəyməz. Onlar mənim dünyada ən yaxın adamlarım idi. Mən Vaqif müəllimin yanına işə düzələndə institutu təzə qurtarmış kasıb bir oğlan idim. Həyatda nəyə nail olmuşamsa, hamısı Vaqif müəllimin köməyi ilə olub… Nə isə, başınızı ağrıtmayım. Deyəsən sizin işinizə mane oluram. Mən gedim. Xahiş edirəm, bir şey tapsanız, mənə də xəbər eləyin. Bu, mənimçün çox vacibdir.

- Mütləq. Bir şey araşdırsaq, sizinlə əlaqə saxlarıq.

Səməd Orucov sağollaşıb aralandı.

Köməkçi mənalı-mənalı müstəntiqə baxdı:

- Mən ona inanmıram. Deyəsən o, bütün bunları bizi azdırmaq üçün quraşdırıb.

- Ola bilər… Mənə elə gəlir ki, teatrın işçiləri ilə danışsaq, pis olmaz. Səməd Orucovun dayısı qızı iləsə xüsusi söhbət etmək lazımdır. Lalə xanımın ən yaxın rəfiqəsi olub. Onun haqqında çox şey bilər.

- Yaxşı, bəs indi neyləyək? Hələlik bağbanı götürək?

Müstəntiq birdən qonşu evə baxdı.

- Deyirəm bəlkə bir qonşu yazıçıyla görüşək? Hər halda gecə bir səs eşitməmiş olmaz. Axı, evlər bir-birinə çox yaxındı?

Köməkçi də yazıçı qalan evə baxdı.

- Hə, ola bilər. Həm də əgər gecə kimsə divara dırmaşıbsa, bəlkə görüb.

Onlar Vaqif Fətəliyevin bağından çıxıb qonşu bağın darvazasına yaxınlaşdılar. Müstəntiq iki-üç dəfə qapının zəngini basdı. Içəridən səs gəlmədi. Köməkçi qapının tutacağını burdu. Qapı aralandı.

- Açıqdır. Gedək yaxından çağıraq.

Onlar həyətə girib evə yaxınlaşanda, birdən müstəntiqin gözü tut ağacına söykədilmiş sarı rəngli dəmir nərdivana sataşdı. O, köməkçisini saxladı.

- Ona bax, bankirin anbarındakı nərdivandandı.

Köməkçi nərdivana baxıb çiyinlərini çəkdi.

- Nə olsun ki? Bütün inşaat malları dükanları bu cür nərdivanlarla doludur. Keçən ay mən də birini alıb atmışdım bağa. Hərdən lazım olur.

Müstəntiq cavab verməyib evə tərəf addımladı. Onlar evin qabağına çatıb bir neçə dəfə çağırdılar. Bu dəfə də səsə hay verən olmadı. Köməkçi pilləkənləri çıxıb evin qapısını döydü, səs çıxmadı.O, bayaqkı kimi yenə ehmalla qapının dəstəyini burdu. Qapı azacıq aralandı. Müstəntiqə sarı çöndü:

- Evin qapısı da açıqdı. Bəlkə yatıb? Axı, o, deyirdi ki, mən gecələr işləyirəm. Qoy girim içəridən çağırım. Onda yüz faiz eşidər.

Müstəntiq tərəddüd etdi:

- Yox, yaxşı deyil. Gəl gedək, sonra gələrik.

Köməkçi üz-gözünü turşutdu.

- Oturub bunun yuxudan durmağını gözləməyəcəyik ki? Həm də biz ciddi işdən ötrü gəlmişik, boş-boş laqqırtı vurmağa yox. Mən girirəm içəri.

Müstəntiq etiraz etməyə macal tapmamış köməkçi qapını aralayıb evə keçdi. Elə içəri girən kimi də kobud bir səslə çığırdı. Müstəntiq cəld özünü köməkçinin dalınca içəri atdı. Yazıçı Rüfət Hüseynzadənin cəsədi çilçırağa bağlanmış kəndirdən asılmışdı.

Müstəntiqlə köməkçisi bir neçə saniyə duruxmuş halda dayanıb yazıçının göyərmiş sifətinə baxdılar. Elə bil ki, hər ikisi gördüklərinin yuxu olmadığını anlamağa çalışırdı. Nəhayət, özünə gələn müstəntiq bayıra çıxdı və dalınca gələn köməkçisinə dedi:

- Get uşaqları çağır, gəlib hadisəni qeydə alsınlar. Ekspertləri də çağır.

Köməkçi boğuq səslə, -bu saat -deyib küçəyə qaçdı. Müstəntiqsə cibindən siqaret çıxarıb yandırdı və nə fikirləşdisə yenidən evə girmək əvəzinə tut ağacına söykədilmiş nərdivana yaxınlaşdı. Diqqətlə onu gözdən keçirməyə başladı. Elə bu vaxt cinayət axtarışı şöbəsinin əməkdaşları həyətə daxil oldular. Müstəntiq də onlara qoşulub evə qalxdı. Içəri girən kimi mayor Miriyev qəzəblə deyinməyə başladı.

- Dörd ildi bu rayonda işləyirəm, birinci dəfədir belə hadisə görürəm. Əvvəl bankirlə arvadı, sonra da bu. Elə bil bura Amerika-zaddı. - Bir az səsini azaldıb əlavə elədi. - Elə bu günlərdə məzuniyyət götürmək istəyirdim. İndiyə qalmışdı…

Müstəntiq onun sözünü kəsdi.

- Deyinmək vaxtı deyil mayor, ondansa, kömək elə meyidi düşürdək.

Mayor susub onlara yaxınlaşdı, köməkləşib meyidi yerə endirdilər.

Müstəntiq ekspert qrupunun rəhbərindən soruşdu:

- Sizcə bu qətldi, yoxsa intihar?

Yerə uzandırılmış meyidi diqqətlə gözdən keçirən ekspert cavab verdi: - Zənnimcə intihardı. Amma o biri variant da mümkündü. Dəqiq cavabı yalnız sabah, bütün analizlərin nəticələri məlum olandan sonra verə bilərəm.

Müstəntiq mayor Miriyevə göstərişlərini verib, həyətdə sakitcə dayanıb siqaret çəkən köməkçisinin yanına düşdü.

- Yaxşı ki, sən içəri girdin. Yoxsa meyid qalıb iylənəcəkdi. Allah bilir nə vaxt tapacaqdılar.

Köməkçi danışmadı. Siqaret tutan barmaqlarının yüngülcə titrəməsindən müstəntiq hiss elədi ki, son hadisələr ona yaman ağır təsir edib. Rəngi də ağappaq olmuşdu. Müstəntiq isə yenə bayaqkı nərdivanın yanına gəlib köməkçisini səslədi. Köməkçisi ona yaxınlaşdı. Müstəntiq nərdivanı ona göstərib dedi:

- Sənin yadındadı da, biz o biri həyətdəki nərdivana baxanda gördük ki, onun ayaqları tər-təmizdi?

- Hə, yadımdadı, nə olsun ki?

- Nərdivan izləri olan yerdə torpaq qaratorpaqdı. Içində çoxlu gil də var. Yəqin Vaqif bəy bu torpağı güllərə görə məxsusi rayonların birindən gətizdirib. Həm də torpaq nəm idi. Srağagün mənim ayaqqabılarım təsadüfən o torpağa batmışdı. Evdə güclə təmizlədim. Yapışqan kimiydi. Mən elə o gün fikirləşdim ki, nəyə görə anbardakı nərdivanın ayaqları təmizdi. Axı, əgər nərdivan 15-20 santımetrə qədər nəm torpağın içinə giribsə, mütləq ayaqlarındakı dəmir çıxıntılarda palçıq izləri qalmalıydı. Əvvəl düşündüm ki, bağban yəqin nərdivanı yerinə qoymamışdan qabaq ayaqlarını yuyub. Amma sonra yadıma düşdü ki, nərdivanın dəmirinə sarınmış qoruyucu kağız hələ də üstündəydi. Əgər nərdivanı yusaydılar, o kağız islanıb cırılardı.

Köməkçisi qəribə nəzərlərlə müstəntiqə baxdı.

- Demək istəyirsən ki, bağa o nərdivanla girməyiblər?

Müstəntiq tut ağacına söykənmiş nərdivanın ayaqlarını göstərdi

- İndi bura bax.

- Köməkçi aşağı əyilib baxdı. Nərdivanın hər iki ayağının aşağı hissəsinə  qurumuş palçıq topası yapışıb qalmışdı.

Köməkçi quru palçıq topasından bir az qoparıb ayağa qalxdı və ovcunda əzib diqqətlə yoxladı.

- Bəlkə elə bu bağda quma batıb?

Müstəntiq etiraz elədi.

- Yox, bu bağda qaratorpaq yoxdu. Mən fikir vermişəm. Buranın torpağı narın Abşeron qumudur. Buisə eynən mənim ayaqqabılarıma yapışıb qurumuş həmin palçıqdandı. Hər halda bunu yoxlamaq çətin iş deyil. Ekspertizaya versək bizə dəqiq cavab deyərlər. Mən qəti əminəm ki, yanılmıram. Deyirəm, bəlkə qatil məhz bu bağdan keçib o tərəfə. Yəqin yazıçı da bunu gördüyünə görə onu öldürüblər.

Bu versiya köməkçinin ağlına batmadı.

- Birincisi, əgər belədisə, nəyə görə o, ilk qətldən sonra bizə heç nə deməyib. Ikincisi, əgər küçədən keçmək mümkündüsə, nəyə görə əvvəl bu bağa girib, sonra burdan o tərəfə keçiblər.

Müstəntiq köməkçisinin haqlı olduğunu gördü və bir az susub ağlına gələn növbəti versiyanı dedi:

- Bəlkə, belə olub, qətli planlaşdıranlar qabaqcadan xəbər tutublar ki, bu bağın yiyəsi bir aylıq xaricə gedəcək və bağ mühafizəsiz qalacaq. Qərara gəliblər ki, nərdivanı birtəhər gətirib bu bağa qoysunlar və ərlə-arvadı iki dəfə eyni yolla bağa girib öldürsünlər. Və sonradan məlum olub ki, bağda biznesmenin dostu, yəni yazıçı Rüfət Hüseynzadə qalır. Amma qətli planlaşdıranlar mane olacağı təqdirdə onu da aradan götürmək qərarına gəlirlər. Axırda elə də olur.

Köməkçi müstəntiqin versiyasına diqqətlə qulaq asıb əlavə etdi.

- Onda, yenə də belə çıxır ki, Vaqif müəllimin yaxınlarından kimsə qətlin təşkilatçılarıyla əlbir olub. Yoxsa qatil hardan bilərdi ki, Lalə xanım bağa nə vaxt gələcək? Həm də biz hələ bıçaqların sirrini aça bilməmişik. Ər-arvadın ikisinin də eyni bıçaqla öldürülməsi təsadüf ola bilməz.

Müstəntiq başını aşağı salıb ayaqqabılarının ucuyla qumu eşələməyə başladı.

- Düzdü, bu iş deyəsən bizə çox başağrı verəcək. Hər halda mənə elə gəlir ki, bu ardıcıl qətllərin səbəbini məhz birinci hadisədə axtarmaq lazımdır. Gedək Vaqif müəllim öldürülən kitabxanaya. İstəyirəm bütün analizlərimizi bir də ilkin nöqtədən başlayaq. Bəlkə hansısa vacib bir detalı nəzərdən qaçırtmışıq?

Köməkçi bir də nərdivana baxıb dilləndi:

- Gedək də. Bəlkə doğrudan da nəsə gözümüzdən qaçıb?

Onlar qonşu bağa keçib kitabxanaya girdilər. Müstəntiq kitabxananı bir daha diqqətlə gözdən keçirib kresloların birində oturub və bir siqaret yandırıb fikrə getdi. Köməkçi müstəntiqə mane olmamaqçün sakitcə kitab rəflərinə tərəf keçib kitablara baxmağa başladı. Bir az kitablara baxandan sonra əlini atıb Rüfət Hüseynzadənin Vaqif Fətəliyevə bağışladığı kitabı götürdü. Avtoqrafa baxıb bir

az vərəqlədi və yerinə qoydu. Rəflərdə ölkənin bir çox yazarlarının Vaqif Fətəliyevə bağışladığı kitablar var idi və köməkçi də vaxtı öldürmək üçün bu kitabları bir-bir götürüb, bir az vərəqləyərək yerinə qoymağa başladı. Birdən ağlına nəsə gəlmiş kimi fikrə getdi, nəhayət, üzünü müstəntiqə çevirdi:

- Rəis.

Müstəntiq baş verənləri fikrində ciddi surətdə analiz etdiyinə görə onun səsini eşitmədi. Köməkçi bu dəfə bir az da bərkdən çağırdı:

- Rəis.

Müstəntiq fikirli-fikirli başını qaldırdı.

- Mənimləsən?

Köməkçi azacıq gülümsündü:

- Burda səndən başqa rəis var? Bir bura zəhmət çək.

Müstəntiq ayağa qalxıb kitab rəfinin qabağına gəldi.

- Yenə nə tapmısan orda?

- Yox, elə bir şey yoxdu, sadəcə bir detal mənə maraqlı gəldi. Bax, burda bizim yazıçıların, şairlərin Vaqif müəllimə bağışladığı çoxlu kitab var, -köməkçi kitabları göstərdi, -mənim yazar tanışlarım çoxdu. Mən onlara yaxşı bələdəm. Çox yaltaq tayfadılar. Onların gözündə bütün imkanlı adamlar potensial sponsordur. Burda da Vaqif müəllimə bağışlanan kitabların hamısında avtoqraf kimi az qala bir səhifəlik tərifnamə yazılıb. Məsəlçün, -köməkçi kitablardan birini götürüb birinci səhifəni açdı. - «Ölkənin ən xeyirxah insanı, bütün ziyalıların məhrəm dostu və mənəvi arxası, görkəmli iqtisadçı və möhtəşəm şəxsiyyət olan Vaqif bəyə həyatda həmişə uğur qazanmaq, uca zirvələr fəth etmək, hamıdan yuxarıda olmaq arzusuyla müəllifdən kiçik bir xatirə».

Müstəntiq kitabı köməkçisindən alıb avtoqrafa baxdı.

- Hə, nə olsun ki, yazıb da.

Köməkçi o biri kitabları da göstərdi:

- Rəis, hədiyyə olunan bütün kitablarda təxminən bu cür avtoqraflar yazılıb. Zalım uşaqları elə bil yaltaqlıqda yarışa çıxıblar.Yəqin pul lazım olanda həmişə rəhmətliyin üstünə cumurmuşlar.

Müstəntiq hövsələdən çıxdı.- Nə olsun e, sözüvün canını de, ürəyim sıxıldı.

Köməkçi mərhum yazıçı Rüfət Hüseynzadənin Vaqif Fətəliyevə bağışladığı kitabı götürüb açdı və müstəntiqə uzatdı:

- İndi bunun avtoqrafına bax.

Müstəntiq kitabın titul vərəqinə baxdı. Qarışıq xətlə yazılmışdı: «Vaqif Fətəliyevə hədiyyə».

Müstəntiq yenə çiyinlərini çəkdi.

- Burda qəribə nə var ki, yəqin bu o birilər kimi yaltaq olmayıb da.

Köməkçi isə əl çəkmədi.

- Məsələ yaltaqlıqda deyil. O, deyirdi ki, Vaqif müəllimin yanına hansısa ədəbi proyektini maliyyələşdirmək xahişilə gəlib. Bir sözlə, pul istəyib. Pul üçün üstünə getdiyin adama kitab bağışlayırsansa, onun üstünə heç olmasa bir-iki xoş söz yazmaq məncə yerinə düşərdi. Ikincisi də mənim bildiyimə görə Rüfət Hüseynzadənin pullu dostları çoxdu. Biri elə qaldığı bağın yiyəsi. O, heç də Vaqif müəllimdən imkansız deyil,  bəlkə hələ daha çox imkanlıdır. Bəs belə dostları olan adam nəyə görə tanımadığı bir şəxsə ağız açır? Məncə burda nəsə var.

Müstəntiq o biri kitabların hamısını birbəbir gözdən keçirib yenə Rüfət Hüseynzadənin kitabını götürdü. Diqqətlə avtoqrafa baxdı.

- İki avqust. Vaqif müəllimin qətlindən iki gün qabaq…-üzünü köməkçisinə çevirdi, -sənin yadında deyil biz ilk dəfə bura baxanda bu kitab rəfdəydi, ya yox?

Köməkçi başını buladı.

- Yox. Burda dörd-beş min kitab var. Bir dəfə baxmaqla hamısı məgər yadda qalır?

Müstəntiq gözlərini yumub Vaqif Fətəliyevin qətlə yetirildiyi gün  yazıçının gəlişini xatırlamağa  çalışdı.

- O, içəri girdi, əynində boz pencək vardı. Hətta mən təəccübləndim ki, bu istidə o, pencək niyə geyinib? Bir az söhbət edəndən sonra o, rəfə yaxınlaşıb öz kitabını götürdü və bizə göstərdi. Sonra da aparıb yerinə qoydu. Ayağa qalxıb getmək istəyəndə, mən açarı ona göstərdim. O da boynuna aldı ki, açar onundur. Nəhayət, xudahafizləşib getdi.

Köməkçi astadan dilləndi:

- Rəis, bəlkə Vaqif müəllimlə Rüfət Hüseynzadə lap yaxın olublar? Çünki adətən lap yaxın adamlara kitab bağışlayanda üstünü belə başdansovdu yazırlar. -Bir az susub pıçıldadı. -Əgər yaxın olublarsa, bəs niyə   o, bunu bizdən gizlədirdi

Bir qədər düşünən müstəntiq nəhayət ki qəti hərəkətlə yerindən qalxdı:

- Əhsən, sən demək olar ki, cinayətin üstünü açdın.

Köməkçi çaşdı.

- Nəyi açdım? Yəni bunların yaxın olması barədə fikrim…

Müstəntiq onun sözünü kəsdi.

- Yox,yox, avtoqraflara fikir verməyinə görə əhsən deyirəm.

Köməkçi gözlərini döydü:

- Heç nə başa düşmədim.

- Rüfət Hüseynzadə Vaqif müəllimə öz kitabını bağışlasaydı, içinə mütləq beş-altı cümlə xoş sözlər yazmalıydı. Yaltaqlıq üçün yox, sadəcə Vaqif müəllimdə özünə qarşı xoş hisslər oyatmaq üçün. Amma o, yazmayıb. Deməli, sən demişkən, onun Vaqif müəllimin puluna ehtiyacı olmayıb. Belə çıxır ki, Vaqif müəllimin qətlindən iki gün qabaq yazıçı heç bura gəlməyib.

- Bəs kitabı nə vaxt verib?

- Qətldən sonra.

Köməkçi yenə çaşqınlıq içində gözlərini döydü:

- Sən deyəsən dolayırsan məni?

- İndi hər şeyi sənə başa salaram. Yazıçı gecə nərdivanı qoyub çıxır öz divarına, ordan nərdivanı iki divarın arasından uzadıb keçir bu bağın divarının üstünə. Mənim yadımdadı, hər iki divarın hündürlüyü eynidir. Ara da iki metrdən çox deyil. Nə isə, bu bağın divarının üstünə keçən yazıçı nərdivanı çəkib yenə aşağı qoyur və Vaqif müəllimin bağına düşür. O gün gördüyümüz izlər məhz həmin nərdivanın izləridir. Yazıçı aşağı düşəndən sonra ağacların içi ilə bura gəlir, Vaqif Fətəliyevi qətlə yetirir və gəldiyi yolla da öz qaldığı bağa qayıdır. Ertəsi gün görür ki, açarları itib. Qorxur ki, birdən burda salmış olar. Axı, açarın üstündə onun adı yazılmışdı. Ondan şübhələnəcəyimizdən qorxub, öz kitablarından birinin üstünü tələsik yazıb, köhnə tarix qoyur və gəlir bura. Özü də gəlib məhz kitabxananın yanında gözləyir bizi. Söhbət əsnasında bizə yalandan deyir ki, guya bir-iki gün əvvəl bura gəlib Vaqif müəllimlə görüşübmüş. Sonra da gedib guya rəfdən öz kitabını götürüb bizə göstərir. Əslində isə kitabı rəfdən yox, percəyinin qoltuğundan çıxarır. Arxası bizə durduğu üçün təbii ki, biz heç nə görmürük. Beləliklə, öz açar dəstinin burdan tapılacağı təqdirdə bütün şübhələri özündən uzaqlaşdırmış olur. Iki gün sonra isə – yəni dünən gecə o, yenə əvvəlki üsulla bu bağa girib Lalə xanımı da öldürür, sonra isə özünü asır.

Müstəntiq sözünü qurtarandan sonra köməkçisi ağır-ağır dilləndi:

- Yaxşı, tutalım sən deyəndir, onda iki sual meydana çıxır. Əvvəla bıçaqlar. Nəyə görə o, ərlə-arvadın ikisini də eyni bıçaqla öldürüb və bu bıçaqlar onun əlinə necə keçib? Axı, Vaqif müəllim qətlə yetirilən vaxt ev adamla dolu olub. O, risk edib evə girə bilməzdi. İkinci sual isə səbəbdi. O, bütün bunları niyə törədib? Mən onu azdan-çoxdan tanıyırdım, əsərlərini də oxumuşdum. Çox yaxşı yazıçı

idi. Hamı da onun xətrini çox istəyirdi. Bu cür hörmətli, nüfuzlu, həm də əxlaqi cəhətdən çox təmiz adam olan bir yazıçı nəyə görə belə ağır cinayət törətsin?

Müstəntiq cibindən əl yaylığını çıxartdı, mərhum yazıçının kitabını səliqə ilə büküb götürdü.

- Tələsmə, hər şeyi əvvəl-axır öyrənəcəyik. Indi əsas məsələ bu kitabı ekspertizaya verməkdi. Əgər bunun üstündə Vaqif müəllimin barmaq izləri tapılmasa, deməli, mən haqlıyam. Vaqif müəllim bu kitaba heç toxunmayıb da.

Onlar kitabxanadan çıxıb o biri bağa keçdilər.

Səhəri gün ekspertizanın nəticələri məlum oldu. Yazıçının kitabının üstündə doğrudan da Vaqif Fətəliyevin barmaq izləri tapılmadı. Bundan əlavə Rüfət Hüseynzadənin məhz intihar etdiyi də müəyyən olundu.Lalə xanımın yatağından tapılan baş tüklərinin də ona məxsus olduğu aşkarlandı.

Bir gün sonra müstəntiq bütün sənədləri götürüb şəhər prokurorunun yanına gəldi. Prokuror onu dinləyib kağızlara baxdı. Bütün sənədləri, protokolları diqqətlə gözdən keçirib başını qaldırdı.

- Hərçənd ki, cinayətin motivi və o zəhrimar bıçaqların sirri açılmamış qalır, amma mənə elə gəlir ki, əldə olan faktlar işi bağlamağa kifayət edər. Həvəsin varsa, bir-iki gün də bu işlə məşğul ol, bəlkə qətllərin motivini tapa bildin. Tapa bilməsən də eybi yoxdur, işi bağla, göndər arxivə.

Müstəntiq, - Oldu - deyib şəhər prokurorunun kabinetindən çıxdı. Hadisə demək olar ki, açılsa da məşhur yazıçının bu cür ağır cinayət törətməsinin səbəbi onu rahat buraxmırdı. Qətldən sonra yazıçının intihar etməsindən aydın olurdu ki, burda çox zərif mətləblər var və hiss edirdi ki, öz suallarına cavab tapmayınca bu işi o biri işlər kimi yaddaşından silib ata bilməyəcək. Onun üçün də müstəntiq iki gün ərzində həm Lalə xanımın əvvəl işlədiyi teatrın işçiləri ilə, həm də yazıçının yaxınları ilə görüşüb söhbət etdi, amma maraqlı bir şey öyrənə bilmədi. Nəhayət, qərara gəldi ki, yazıçının əlyazmalarında eşələnsin, bəlkə sualların bəzisinə cavab tapa bildi. Protokollardan məlum oldu ki, bağda əlyazma tapılmayıb. Çünki Rüfət Hüseynzadə noutbukda işləyirmiş. Onun üçün də müstəntiq şöbədən yazıçının noutbukunu götürüb öz kabinetinə gəldi. Yerini rahatlayıb kompüterin yaddaşını axtarmağa başladı. Xeyli faylları açsa da, hadisə ilə əlaqəsi ola biləcək bir detala rast gəlmədi. Kompüterin yaddaşında yalnız yazıçının əsərlərindən parçalar, tənqidi məqalələr, oxuduğu əsərlər haqqında qeydlər və internet yazışmalarının mətnləri idi. Müstəntiq nəsə tapmaq ümidini demək olar ki, üzmüşkən, qəfildən faylların biri açılmadı. O, faylı açmağa bir neçə dəfə cəhd etsə də, hər dəfə ekrana gələn «parolu daxil edin» kəlməsi onun qabağını kəsirdi. Müstəntiq əvvəl buna əhəmiyyət verməyib kompüteri söndürmək istədi. Amma maraq onu saxladı. Axı, bu son işıq yeridir.

Əgər bu faylı açmasa nigarançılıq onu tərk etməyəcək. Bəlkə də bu faylda heç maraqlı bir şey yoxdu və yazıçı bu müdhiş cinayətlərin sirrini özü ilə o dünyaya aparıb. Lakin hər halda yoxlamaq lazımdır.

Müstəntiq telefonu götürüb kompüter texnologiyaları üzrə mütəxəssis olan bir dostuna zəng vurdu və vəziyyəti ona danışdı. Dostu bir az fikirləşib tənbəl-tənbəl dilləndi:

- Bir şey fikirləşərik. Sən noutbuku gətir, qalsın məndə. Amma buna xeyli vaxt tələb olunur. Müxtəlif kombinasiyaları yoxlamaq lazımdır.

- Nə qədər vaxta aça bilərsən faylı?

Dostu tərəddüdlə dedi:

- Nə bilim. Bəlkə bir həftəyə, bəlkə bir aya. Bəlkə də heç ümumiyyətlə açılmadı.

- Yaxşı, mən rəhbərliklə danışaram. Əgər icazə versələr, noutbuku bir-iki həftəlik sənə verərəm. Özün baxarsan.

- Bax gör də.

Müstəntiq sağollaşıb telefonun dəstəyini yerinə qoydu. Gözləri kompüterin ekranında yazılmış «parolu daxil edin» sözlərinə dikilsə də fikri baş vermiş hadisələrin yanındaydı. Son üç-dörd gündə baş vermiş qətlləri bir-bir gözünün qabağına gətirərək analiz etməyə çalışır, özü özlüyündə bu cinayətlərə cürbəcür motivlər fikirləşir amma bu motivlərin heç birini faktlarla əsaslandıra bilmirdi. Axı, Vaqif bəylə Lalə xanımın ölümü yazıçının nəyinə lazımdır?

Müstəntiqin barmaqları klaviaturanın üstündə olduğundan Lalə xanımın qətlini gözünün qabağına gətirəndə barmaqları qeyri-ixtiyari «Lalə» sözünü yazdı. Elə bu vaxt gözlənilməz hadisə baş verdi. Noutbukun ekranında yazıldı: « parol qəbul olunur» və fayl yavaş-yavaş açılmağa başladı.

Müstəntiq əvvəl gözlərinə inanmadı. Fikirləşdi ki, bəlkə «Lalə» sözünün heç bankirin arvadına dəxli yoxdur. Elə-belə, gül adıdır. Amma onu çox az hallarda aldadan intuisiyası ilə hiss etdi ki, bu cür təsadüf ola bilməz. Bu, məhz həmin Lalədir və fayl tam açılan kimi bu ağır qətllər seriyasının səbəbi onun üçün aydınlaşacaq. Nəhayət, fayl açıldı və müstəntiq orada yazılanları oxuyandan sonra zənnində yanılmadığını gördü…

Şəhər prokuroru şam yeməyi yeyəndən sonra oğlunun kompüterinin arxasına keçdi və gündüz müstəntiq Eldar Əfəndiyevin ona verdiyi disketi prosessora saldı. Müstəntiq disketi ona verəndə yalnız onu demişdi ki, disketdəki mətni mərhum Rüfət Hüseynzadənin noutbukundan köçürüb və bizi maraqlandıran bütün sualların cavabları burdadı.

Prokuror diskin açılmasını gözləyib, nəhayət, mətni oxumağa başladı. Əvvəli ona bir qədər darıxdırıcı görünsə də, axıra yaxın onu soyuq tər basdı. O, bütün prokurorluq fəaliyyəti zamanı hələ belə qəribə və qorxunc hadisəyə rast gəlməmişdi….

## İkinci Hissə.

## Gündəlik

**7 avqust.**

«Mən bu başlığı ən sonda yazmışam. Bir ay əvvəl Onunla bağlı gündəlik tutmağa başlayanda, mən hadisələrin bu cür cərəyan edəcəyini təbii ki, bilə bilməzdim. Sadəcə, Onu gördüyüm gündən məndə elə qəribə hisslər yarandı ki, bu ani, ötəri hisslərin yaddan çıxmaması üçün hər xırda şeyi də yazıb qeyd eləmək qərarına gəldim.

Bu, mənim son əsərimdir. Yazının son nöqtəsini qoyandan on-on beş dəqiqə sonra yəqin ki, mən artıq həyatda olmayacağam. Çox güman ki, bu yazını heç oxuyan olmayacaq. Çünki öz adıma ləkə gəlməyini istəmirəm. Qoy heç olmasa övladlarım mənim adımı daşımaqdan xəcalət çəkməsinlər. Hamı mənim intihar etməyimin səbəbini axtaracaq, amma heç kim yəqin ki, mənim qatil olduğumu bilməyəcək. Əslində mən bu yazıları yazmamalıydım. Amma yazıçı olduğum üçün gündəlikdəki yazıları silib atmağa ürəyim gəlmədi. Onunçün də gündəliyi kompüterin yaddaşına göndərib, açılmaması üçün parol qoyacağam. Parol yəqin ki, onun adı olacaq. Elə bil ki, ən gizli sirrimi yazdığım kağızı şüşəyə qoyaraq ağzını bağlayıb dənizə atıram.Yalnız milyondan bir şans var ki, bu şüşəni kimsə tapacaq. Yəqin ki, belə yaxşıdır. Əsas budur ki, mən bütün bunları içimdən çıxarıb yüngülləşdim. Belə ağır bir yükü özümlə o dünyaya aparmağa gücüm çatmaz. Mən bu dünyanın günahını elə bu dünyada qoyub gedəcəyəm. Inanmıram ki, Allah məni bağışlasın. Allah bağışlasa da, özüm bağışlamayacağam. Mən cəzalanmalıyam…Artıq vaxtdı, bir az da yubansam, qorxub fikrimi dəyişə bilərəm… Gedim ölməyə…»

Gündəlik

28 iyun.

«Mən Onu birinci dəfə dünən axşam gördüm. Eyvana çıxartdığı plastmass çimərlik kreslosunda uzanıb dizinin üstündəki rəngli jurnalı vərəqləyərək çiyələk yeyirdi. Əynində də elə çiyələk rəngində

yüngül yay sarafanı vardı. Hər dəfə gözünü jurnaldan çəkmədən əlini meyvəqabıya aparanda barmaqları çiyələklərin içində bir az yubanır, sanki ən irisini seçirdi. Həm də elə bil bütün bunlar qeyri-ixtiyari baş verirdi. Yadıma uşaq vaxtı semiçka çırtlamağımız düşdü. Tumun yaxşı- pis hamısını çırtlayacağını bilsən də, barmaqlar qeyri-ixtiyari hər dəfə ən irisini seçib götürməyə çalışır. Görəsən niyə insan ilk olaraq hər şeyin yaxşısına malik olmağa tələsir?.. Axmaq sualdı. Axı, nəyə görə yaxşını qoyub pisi götürməliyik, başımıza hava gəlməyib ki… Bunu fikirləşib qeyri-ixtiyari güldüm… Bu an onu da gülmək tutdu. Deyəsən jurnalın səhifələrində nəsə məzəli bir yazıya, yaxud şəklə rast gəlmişdi. O, güləndə əli təsadüfən meyvə qabına toxundu və çiyələklər az qaldı ki, yerə dağılsın. Amma O, cəld tərpənib meyvəqabını tutdu və çiyələklərdən yalnız bir neçəsi yerə düşdü. Yerə dağılmış çiyələklərə bir anlıq nəzər salıb yenə də jurnalı vərəqləməyini davam etdi. Mən bir az Onun çiyələk yeməsinə tamaşa edib öz işimə başladım. Amma fikrimi yazılarımın üstündə tam cəmləşdirə bilmirdim. Hər dəfə təsadüfən başımı qaldıranda Onu görür və istər-istəməz bir anlıq da olsa diqqətimi özünə çəkirdi. Hiss elədim ki, bu gedişlə heç nə yaza bilməyəcəyəm. Onunçün də noutbuku bağlayıb gözlərimi ona zillədim. Ona baxa-baxa eyvanda uzanıb çiyələk yeyən adi bir qızın məni nə üçün belə cəlb etməsinin səbəbini düşünməyə başladım. Nəhayət, anladım ki, mənim diqqətimi çəkən onun oturuşundakı rahatlıq, sərbəstlik və hərəkətlərindəki asudəlikdi. Elə bil ki, dünyada Ondan, dizinin üstündəki jurnaldan və yanındakı çiyələk dolu meyvəqabıdan başqa heç nə mövcud deyildi. Ətrafda qalan nə varsa, qırmızı bir dumanın içində əriyib yox olmuşdu. Qəribəsi o idi ki, Ona tamaşa elədikcə sanki həmin rahatlıq, asudəlik, azadlıq mənə də keçir, beynimdəki bütün ağırlığı yuyub aparırdı.

Birdən O, qolundakı saata baxıb ayağa qalxdı. Əlindəki jurnalı stolun üstündəki meyvəqabının yanına qoyub otağa keçdi. Içindəki asudəlik, sərbəstlik yerişində daha çox nəzərə çarpırdı.

Mən yarım saata qədər gözlərimi eyvandan çəkmədim. Amma O, daha çıxmadı. Bir azdan ağaclardakı sərçələr eyvana qonub meyvəqabındakı çiyələkləri dimdikləməyə başladılar. Nəhayət, boş eyvana baxmaqdan bezib özümə şam yeməyi hazırlamaq üçün mətbəxə düşdüm.

29 iyun.

Bu gün səhərdən bəri O, cəmi bircə dəfə eyvana çıxdı. Əlindəki kiçik sarı süfrəni aşağı çırpıb otağa qayıtdı. Əyninə yenə dünənki qırmızı sarafanı geyinmişdi.

Bütün günü yazılarımla məşğul olsam da, hiss edirdim ki, Onun eyvana çıxmağını gözləyirəm. Mən noutbukla işlədiyimə görə evin istənilən otağında yazılarımı yaza bilərəm. Amma elə bil

hansısa qüvvə məni məhz bu otağa, Onun eyvanı görsənən pəncərənin qarşısındakı stolun arxasına çəkirdi.

Onların evi ilə bizim pəncərə arasında 20 metrə qədər məsafə var. Arada hər iki tərəfdən ağaclar əkilib və iki evin arasını tutub. Amma budaqlar təsadüf nəticəsində elə bitib ki, məhz mənim işlədiyim otağın pəncərəsindən onların eyvanlarından biri görünür. Və O, bu axşam eyvana çıxanda, qəfildən mənə elə gəldi ki, yaşıllığa bürünmüş cənnət bağındayam, yaşıllığın düz ortasında isə qırmızı paltarlı bir mələk dayanıb.

O, radiotelefonla danışaraq eyvana çıxıb məhəccərə söykəndi. Bir az beləcə danışandan sonra radiotelefonu qulağından ayırıb stolun üstünə qoydu və xalatının cibindən çıxartdığı rezinlə çiyninə tökülən saçlarını yığdı. Elə bu vaxt qəfildən gözü mənə sataşdı. Mənim ürəyim düşdü, tez başımı aşağı salıb özümü guya nəsə yazırmış kimi göstərməyə çalışdım… Görəsən mənim haqqımda nə düşünürdü? Heç yaxşı düşmədi, yəqin fikirləşib ki, güdürəm onu. Gərək pərdəni çəkərdim. Nə isə, olan şeydi. Birdən elə bilər ki, soyğunçuyam, götürüb polisə zəng edər. Axı, O, yəqin bilməmiş olmaz ki, Akifgil burda yoxdular… Düzü, bu fikrə özümü də gülmək tutdu. Mən cinayətkar. Doğrudan gülməlidir.

Beləcə, təxminən beş dəqiqə ərzində başımı qaldırıb eyvana baxmağa cürətim çatmadı. Mənə elə gəlirdi ki O, dayanıb nəzərlərimin eyvana dikilməsini gözləyir. Qəzəbli sifəti gözümün önündə canlanırdı. Nəhayət, bütün cəsarətimi toplayıb guya stolun üstündən nəsə götürürmüş kimi üzümü pəncərəyə çevirdim… Eyvanda heç kim yox idi.

30 iyun.

Hava qaralandan bir az sonra onların eyvanına açılan qapının üstündəki neon lampası yandı. Yəqin O, bayıra çıxacaq, işığı da onunçün yandırıb. Yazdığım cümləni tez tamamlayıb noutbuku kənara itələdim. Zənnim məni aldatmamışdı. Pərdə aralandı və O, qapını açıb eyvana çıxdı. Hiss elədim ki, sevinirəm. Tez otağın işığını söndürdüm ki, məni görməsin. O isə eyvanın məhəccərindən tutub on-on beş dəqiqə ərzində aya, ulduzlara tamaşa elədi. Uşaqlığım yadıma düşdü yenə. Balaca olanda aya bu cür zənnlə baxmağa bizi qoymurdular. Böyüklər həmişə deyirdilər ki, Aya çox baxsan Ay səni aparar. Indi də Onun Aya baxmağını seyr etdikcə, ürəyimdən yüngül bir qorxu keçdi. Elə bildim ki, O, indi qəfildən yox olacaq. Şəxsən Ayın yerinə mən olsaydım, bütün bəşəriyyəti bir yana atıb öz yanıma yalnız Onu apardım.

Qəfildən O, ayağını məhəccərin dəmir naxışlarının arasına keçirib yuxarı qalxdı. Mən qeyri-ixtiyari yerimdən sıçradım. Elə bildim ki, özünü eyvandan aşağı atmaq istəyir. Amma elə olmadı. Onun növbəti hərəkəti məni bir az da çaşdırdı. O, on beş yaşlı uşaq cəldliyi ilə məhəccərin üstünə dırmaşdı və yıxılmamaqçün ayaqlarını bayır tərəfdən naxışlı dəmirlərin arasına keçirib oturdu.

Məni gülmək tutdu. Onun bu pozası mənə yenə keçmişi xatırlatdı. Məhəlləmizdəki iri mağazanın qarşısında belə bir hündür məhəccər vardı. Və biz balaca olanda onun üstündə beləcə oturardıq. Maraqlısı o idi ki, həmin məhəccərin üstündə yalnız bizim məhəllə uşaqları otura bilirdi. Başqa uşaqlar orda oturanda, ya məhəccərin ensiz taxta tutacağı onların dalını kəsir ya da müvazinəti saxlaya bilməyib yıxılırdılar.

Onun oturuşundan hiss elədim ki, bu, deyəsən Onun çoxdankı vərdişidir. Çox arxayın və rahat oturmuşdu. Qəribə qızdı. Heç cür təsəvvür edə bilməzdim ki, zərif cinsin nümayəndələrindən hansısa üçüncü mərtəbənin eyvanında, məhəccərin üstündə otura bilər. Nəinki qadın, heç normal kişi də buna ürək eləməz, yıxılmaqdan qorxar. Hər halda Onun özünü eyvandan atması mənə daha təbii görünərdi, nəinki avara uşaqlar kimi məhəccərin qırağında oturub ayaqlarını aşağı sallatması.

O, bir qədər sakit oturdu, sonra isə yavaş-yavaş yellənməyə başladı. Mənim həyəcanım bir az da artdı. O, hər dəfə bədənini qabağa verəndə mənə elə gəlirdi ki, yıxılacaq. Amma yıxılmırdı. Məhəccərin tutacağından yapışmış əllərinin köməyi ilə bədənini yenə geri qaytarırdı. O, məhəccərin üstündə oturub beləcə yelləndikcə mənim əsəblərim də tarıma çəkilirdi. Getdikcə sürətini artırırdı. Həyəcanımı sıxmaqçün siqaret yandırdım. Gözümü Ondan çəkmədən lap pəncərəyə yaxınlaşıb taxta çərçivəyə söykəndim. Hiss elədim ki, qorxudan ayaqlarım soyuyub. Qeyri-ixtiyari öz-özümə pıçıldadım: «Bu qız canından bezib deyəsən». Doğrudan da Onun bu cür yellənməyi Əzrayılla gizlənpaç oynamağa oxşayırdı. Məhəccərdən tutan əlləri azacıq sürüşsəydi, üçüncü mərtəbədən aşağı uçacaqdı. Amma O, deyəsən bütün bunlardan xəbərsiz idi. Başını yuxarı qaldırıb aya, ulduzlara baxa-baxa yellənir, çiyninə tökülmüş saçları dəniz yosunları kimi yırğalanırdı. Birdən Onun bu cür yellənməyiylə dünən çiyələk yeyə-yeyə jurnal oxuması arasında bir oxşarlıq duydum. Anladım ki, elə indi də Onun üçün yelləndiyi məhəccərdən, səmadakı aydan və ulduzlardan başqa dünyada heç nə mövcud deyil. Dünən də Ona tamaşa etdikcə mən məhz bu hissləri keçirtmişdim… Bunları düşündükcə hiss elədim ki, yavaş-yavaş mən özüm də yox oluram. Bir azdan mən tamamilə itdim və gerçək aləmdə yalnız O qaldı. Kainatın tən ortasında məhəccərin üstündə oturub yellənən qız və sonsuz bir boşluq.

Əgər kimsə müvəqqəti də olsa ətrafdakı hər şeyi beynindən silərək yalnız özü ilə üzbəüz qala bilirsə, bəlkə də o, dünyanın ən xoşbəxt admıdır. Hə, elədir ki, var. Bu an O, mənim gözümdə dünyanın ən xoşbəxt və ən yalqız məxluqu idi. Bəlkə də bütün kainatın yeganə sakini idi.

Birdən içəridən səs gəldi. Deyəsən kimsə onu çağırdı. O, ayaqlarını eyvanın içinə keçirib məhəccərdən döşəməyə atıldı. Düşəndə paltarının ətəyi məhəccərin naxışlı çıxıntılarına ilişib göbəyinə qədər cırıldı. Cırcıramaların mahnısına bənzər bir səs çıxdı. O, paltarının ətəyini qaldırıb parçanın cırılan yerinə diqqətlə baxmağa başladı. Dizdən yuxarı ayaqları göründü. Hiss elədim ki, ürəyim daha bərk çırpınmağa başladı. Zərif ayaqları neon lampasının işığında ay rəngində görünürdü. Hamar dərisi və zərif, təndürüst ayaqları nəzərlərimi elə çəkmişdi ki, bu saat dünya da dağılsaydı xəbərim olmazdı, eləcə Onun ayaqlarına baxa-baxa canımı verərdim.

O, başını qaldıranda qəfildən gözü mənim pəncərəmə sataşdı. Elə bil çaşdı. Paltarının ətəyini əlindən buraxmadan gözlərini mənim pəpcərəmə zillədi və diqqətlə baxmağa başladı. Qəribədi, görəsən niyə bura baxır? Axı, mən işığı söndürmüşəm, O, məni görə bilməz. Bu qaranlıqda mən heç öz əlimi görmürəm. Əlim? Lənət şeytana, axı, mən siqareti söndürməmişəm. Yəqin siqaretin qızaran közünü görüb. Özümü itirdim və çaşqınlıq içində daha bir axmaq hərəkət elədim. Közərən siqareti pəncərədən bayıra atdım. Elə bil ki, O da mənim çaşqınlığımı hiss elədi. Və deyəsən bu, Ona ləzzət elədi. Üzündəki təəccübü təbəssüm əvəz elədi. Gülümsünüb paltarının ətəyini buraxdı və başını yellədərək içəri keçdi. Qapını örtəndə bir də başını qaldırıb mənə tərəf baxdı…

2 iyul.

Bu gün axşama qədər dayanmadan işlədim. Arabir başımı qaldırıb eyvana baxsam da, civildəşib oynaşan sərçələrdən başqa bir şey görmədim. Deyəsən O, evdə yox idi. Bəlkə də evdəydi, amma bu otaqda yüz faiz yox idi. Çünki belə istidə qapı-pəncərəsi bağlı otaqda oturmaq üçün gərək mütləq kondisioneri yandırasan. Kondisionerləri isə susmuşdu. O işə düşəndə mən adətən mühərrikin zəif uğultusunu eşidirəm. Beləcə, bütün günü yazı prosesinə qapılıb demək olar ki, Onun haqqında düşünmədim. Saat səkkizə yaxın hiss elədim ki, barmaqlarım ağrayır. Mətbəxə düşüb soyuducudan səhər aldığım vetçinadan çıxartdım, dilimləyib özüm üçün iki buterbrod düzəltdim. Bir şüşə kola da götürüb yuxarı qalxdım. Otağa girib pəncərəyə baxanda gördüm ki, eyvana çıxan qapı taybatay açıqdı, içəridə isə işıq yanır. Bildim ki, evə gəlib. Mən tez işığı keçirib kreslomu otağın dərinliyinə çəkdim. Əvvəlki yerimdə, yəni pəncərənin qarşısında otursaydım O, məni görə bilərdi. Bunu isə istəmirdim. Yox, mən qətiyyən utanıb eləmirdim. Lap pəncərənin qabağında dayanıb rahatca ona

tamaşa də edərdim və buna görə heç kim mənə təbii ki, bir söz deyə bilməzdi. Lakin mən istəyirdim ki, O, özünü təklikdə hiss eləsin. Tənha qalanda O, elə bil daha maraqlı olurdu. Özünü tək, hamının nəzərindən uzaq hesab edəndə, adətən insanın içindəki bütün gizli emosiyalar qeyri-ixtiyari üzə çıxır.

Birdən ağlıma gəldi ki, əgər O, qapı-pəncərələri açanda mənim otağımın işığının yandığını görübsə, indi eyvana çıxsa, qaranlıq pəncərəmi görüb şübhələnə bilər. Amma mənim başqa çıxış yolum yox idi, işığı təzədən yandıra bilməzdim. Onunçün də kresloda yerimi rahatlayıb cəld buterbrodlarımı yedim. Adətən yeməkdən sonra mən siqaret çəkməyə vərdiş eləmişdim. Lakin bu dəfə adətimi müvəqqəti də olsa kənara qoymağa məcbur oldum. Qorxurdum ki, O, dünənki kimi siqaretimin közünü görər. On-on beş dəqiqə ərzində gözlərimi eyvana çıxan qapıya zilləyib Xəzrinin pərdələri necə yellətməsinə tamaşa etdim.

Nəhayət, O, qapının arxasında göründü. Ağ rəngli yüngül yay kostyumu geymişdi. Üzündə əsəbilik və gərginlik hiss olunurdu. Aramızdakı məsafə az olmasa da rənginin qızardığını sezdim, sanki elə bu saat kiminləsə bərk mübahisə etmişdi. Qəribə də olsa Onun qızarmaş yanaqlarının istisi qəfildən mənim üzümü də yandırmağa başladı.

Eyvana çıxan kimi Xəzri Onun şalvarını əyninə yapışdırdı, ayaqlarının cizgiləri göründü. Dünənki səhnə gözümün qabağına gəldi. Bircə anlıq elə bildim ki, yenə Onun çılpaq ayaqlarını görürəm.

O isə əllərini geniş açıb qapının çərçivəsindən tutdu, başını yüngülcə arxaya atıb beləcə xeyli durdu. Xəzri üz-gözünü sığallayıb saçları ilə oynamağa başladı. O, gözlərini yumaraq sifətinə sürtülüb içəri keçən küləklə üz-üzə durduqca elə bil ümid edirdi ki, içindəki gərginlik, əsəbilik dağılacaq. Amma deyəsən Xəzri Onun ümidlərini doğrultmadı. Üzündəki gərginlik əsəbilik qızartısı olduğu kimi qalmışdı. Gözlərini açıb geriyə, otağın içinə boylandı. Içəri keçib bir azdan əlində mineral su şüşəsi və stəkan götürüb yenə eyvana çıxdı. Iri stəkanı ağzınacan su ilə doldurub başına çəkdi və yenə bir müddət hərəkətsiz durdu. Deyəsən bu da onu soyutmadı. Suyun qalan hissəsini də stəkana boşaldıb şüşəni əsəbiliklə həyətə tulladı. Amma nədənsə, bu dəfə stəkandakı suyu içmədi. Beş-altı saniyə sakitcə dayanaraq nə fikirləşdisə, əynindəki ağ pencəyin düymələrini açmağa başladı, sinəsini sıxmış mavi rəngli dekoltesi görünən kimi mənim bədənimdən yüngül bir üşütmə keçdi. Ilk dəfə soyunan qadın görən yeniyetmə öğlanlar kimi həyəcanlandım və qeyri-ixtiyari kreslodan qalxıb pəncərəyə yaxınlaşdım. O isə pencəyinin düymələrinin hamısını açıb stəkandan bir qurtum su içdi, Sonra boş qalmış əliylə pencəyinin yaxasını tam aralayıb stəkandakı suyu kəskin bir hərəkətlə çılpaq sinəsinə çırpdı. Su damcıları boynundan aşağı axaraq dekoltesini islatdı və göbəyinə tərəf süzüldü.

Fikrimdən keçdi ki bu saat Onun sinəsi boyu üzü aşağı axan su özünü cənnət çayları qədər xöşbəxt hiss edir.

O, boş stəkanı da şüşənin dalınca həyətə tullayıb çılpaq sinəsini qabağa verdi və yenə bayaqkı kimi əllərini geniş açaraq qapının çərçivəsindən tutdu və gözlərini yumdu.

Mən gözlərimi Onun sinəsindən çəkə bilmirdim. Həqiqətən gözəl idi. Bayağı da səslənsə, bu an ağlıma başqa söz gəlmədi. Düzgün quruluşlu bədəni, orta ölçülü sinəsi vardı. Yırğalanan saçları onu daha ecazkar göstərirdi. Sinəsini açıb beləcə durduqca, elə bil ki, Xəzrini öz ruhuna çəkmək istəyirdi. Xəzri isə qısqanclıqla Onun çılpaq sinəsinə sürtülərək sanki suyun izini ordan qopartmaq istəyir və deyəsən buna nail olurdu. Çünki üç-dörd dəqiqədən sonra suyun işıqda parıldayan izindən əsər-əlamət qalmamışdı. Sürətlə qalxıb-enən sinəsi artıq qupquru idi. Və bu an mən hiss elədim ki, Onu Xəzriyə qısqanıram.

Nəhayət, gözlərini açdı. Qalxıb-enən sinəsinin bayaqkına nisbətən daha asta yırğalanmasından hiss elədim ki, deyəsən bir az sakitləşib, üzündəki gərginlik, əsəbilik də yavaş-yavaş əriyib gedir və dünənki asudəliyi, rahatlığı bərpa olurdu. Bir azdan içəri keçib pencəyini çıxartdı və şifonerə tərəf gedərək oradan çıxartdığı asılqana keçirtdi. Asılqanı yenidən şifonerin içindən asandan sonra əlini şalvarının düyməsinə atdı və aramla açmağa başladı. Həyəcanım lap gücləndi. Artıq ürəyim sinəmi dağıdacaq dərəcədə möhkəm çırpınırdı. Elə bil ki, indi hansısa gizli və qiymətli bir xəzinənin açılacağını gözləyirdim.

O isə qəfildən nəsə xatırlamış kimi əlini şalvarının düyməsindən çəkdi və yenə eyvanın açıq qapısına yaxınlaşdı. Gözlərini mənim pəncərəmə zilləyib diqqətlə baxmağa başladı. Hiss elədim ki, otaqda kiminsə olub olmamağını sezmək istəyir. Nəfəs çəkməyə belə qorxaraq pəncərənin qarşısından geri çəkildim, büzüşüb kreslonun içinə sıxıldım. O isə iki-üç saniyə də qaranlıq pəncərəmə baxdıqdan sonra və içəri keçib qapının pərdəsini çəkdi. Mən o axşam daha heç nə görmədim.

3 iyul

Bu gün dostlarıma zəng vurub qonşu bağın kimə məxsus olduğunu öyrəndim. Məlum oldu ki, orda məşhur bir bankın prezidenti yaşayır. O da bankirin xanımıdır. Bu məlumat məni bir az çaşdırdı. Axı, O, bankirin qızı yaşındadı. Görəsən niyə ona ərə gedib?... Nə isə, özü bilər. Başqalarının şəxsə məsələlərinə burun soxmaq yaxşı iş deyil, hələ bəlkə ən böyük günahdı da.

Gün ərzində çalışdım ki, yuxarı otağa qalxmayım. Hər halda başqasının arvadına gizlincə göz qoymaq namuslu, qeyrətli kişiyə yaraşan hərəkət deyildi.

Axşamacan birinci mərtəbədə işlədim. Saat doqquza yaxın jurnalist dostlarımdan biri zəng vuraraq son məqalələrimdən istədi. Deditm ki vaxtı olanda gəlib bağdan götursün.onunla sağollaşandan sonra hanmı yazıları verəcəyimi götür qoy etdim və düşündüm ki, onları dəfə də gözdən keçirib son düzəlişləri etmək lazımdır. Yadıma düşdü ki, məqalələrimi yazdığım disket yuxarı otaqdadı. Dilxor oldum. Amma başqa çarə yox idi. Könülsüz olsa da yuxarı qalxmağa məcbur oldum. Pilləkənləri qalxa-qalxa özümə söz verdim ki, Onun eyvanına tərəf baxmayacağam. Elə disketi tapıb tez aşağı düşəcəyəm. Lakin iradəm çatmadı. Otağa daxil olan kimi qeyri ixtiyari pəncərədən bayıra baxdım. O, eyvandaydı. Məhəccərə söykənib gözlərini düz mənim pəncərəmə zilləmişdi. Mən bir anlıq özümü itirdim. Ürəyim əsdi. Üzümü çevirməyə çalışsam da bacarmadım. O, elə bil iyirmi metrdən məni ovsunlamışdı. Ayaqlarım özüm də hiss etmədən məni pəncərənin lap qarşısına gətirdi. O isə yerində donub düz mənim gözlərimin içinə baxırdı. Nədənsə, mənə elə gəldi ki, bayaqdan eyvanda durub mənim bu otağa gəlməyimi gözləyir. Lakin bu fikri tez başımdan çıxartdım. Axı, O, nəyə görə məni gözləməlidi. Mən Onun nəyiyəm ki? Absurd fikirdi. Yəqin elə indi eyvana çıxıb, mən də təsadüfən otağa girmişəm və baxışlarımız toqquşub.burda qeyri adi nə var ki? Artıq nəticələr çıxartmağa ehtiyac yoxdur.

O, bir az mənə baxdıqdan sonra açıq mavi xalatının cibindən saqqız çıxarıb ağzına atdı. Elə bu vaxt otağın qapısı azca aralandı və üzü görünməyən bir kişi qalın səslə onu çağırdı. O, geriyə boylanıb şirin bir səslə «Indi gəlirəm» deyib yenə üzünü mənə çevirdi. Əlini ağzına aparıb dişlərilə sıxdığı saqqızdan tutdu və dartmağa başladı. Saqqız rezin kimi uzandı. O isə qəfildən bir qarışa qədər uzanmış saqqızı burnuna dolayıb qəhqəhə çəkdi. Elə saqqızı burnundan çıxartmadan da içəri keçdi. Mən pəncərədən çəkilməyə macal tapmamış Onun başı yenə də pərdənin arxasından bayıra boylandı, saqqızı ağzından çıxarıb qapının şüşəsinə yapışdırdı və gülümsünüb yenə də içəri çəkildi….

Uzun müddət yerimdən tərpənə bilmədim. Hərəkətsiz dayanıb pərdələrin yellənməsinə baxdım. Nəhayət, özümə gəlib asta-asta birinci mərtəbəyə düşdüm. Mətbəxdə yadıma düşdü ki, disketləri axtarmaq yadımdan çıxıb. Amma daha yuxarı çıxmadım, deyəsən artıq bu naməlum, yad məxluqdan qorxmağa başlayırdım.

4 iyul

Nahardan sonra elə aşağı otaqların birində oturub işləməyə çalışsam da heç nə alınmırdı. Beynimdəki fikri kompüter ekranına köçürənə qədər cümlə yadımdan çıxır hər şeyi yenə əvvəldən başlamağ lazım gəlirdiuzunmuddətli üğürsuz cəhdlərdən sonra başa düşdüm ki, mütləq yuxarıya qalxıb beş dəqiqəlik də olsa Onun eyvanına baxmalıyam, yoxsa heç nə yaza bilməyəcəyəm. Elə bil hansısa naməlum qüvvə şeytani bir cazibə ilə məni yuxarı otağa çəkirdi. Nəhayət, iradəsizliyimə görə özümə lənətlər yağdıraraq noutbuku qoltuğuma vurub yuxarı çıxdım. Eyvan boş idi. Pəncərəmin qarşısındakı stolda oturub rahatca işləməyə başladım. Arabir başımı qaldırıb onların pəncərəsinə baxsam da heç bir dəyişiklik gözümə dəymirdi. Şam yeməyindən sonra da həminki yerimdə oturub yazılarımla məşğul olmağa başladım. Səhər açılana qədər işlədim. Onların işığı isə yanmadı. Yəqin bu gün də burda qalmayıblar…deyəsən allahın mənə rəhmi gəlməyə başlamışdı…

5 iyul

Bu gün də axşama qədər eyvanda heç kim görünmədi. Yalnız saat altı radələrində orta yaşlı bir qadın eyvana çıxaraq döşəməni və məhəccəri silib təmizlədi. Yəqin ki, qulluqçuları idi.

Otağın işığı yananda artıq gecə yarıya yaxınlaşırdı. Əvvəlcə işığı söndürüb aşağı düşməyi fikirləşdim, amma gördüm ki Onu gözucu da görməsəm ayaqlarım yerindən tərpənməyəcək. Noutbuku bağlayıb cəld işığı keçirtdim və kresloya çöküb səbirsizliklə Onu gözləməyə başladım. O gecə də eyvana çıxan olmadı.

7 iyul

Nahardan sonra mətbəxdə oturub fikrə getdim. Tanış olduğumuzdan bu yana mən həyat yoldaşıma xəyanət etməmişdim. Həmkarlarımın çoxundan fərqli olaraq mən ümumiyyətlə, əks cinsə qarşı bir az soyuğam və sevdiyim yeganə qadınla da ailə həyatı qurmuşam… Bəs indi niyə beləyəm? Axı, açıq-aydın hiss edirəm ki, yalnız Onun üçün darıxıram. Həyat yoldaşım isə heç yadıma düşmür. Məgər bu xəyanət deyil? Içimdəkiləri hamıdan gizlətsəm də Allahdan ki, gizlədə bilməyəcəyəm. Yox, burda çox qalmaq olmaz, gərək çıxım gedim… Bəlkə mən hər şeyi şişirdirəm? Bəlkə bu, elə-belə, adicə bir maraqdı? Sadə, ötəri bir maraq. Yəqin ki, elədir. Hər halda mən elə bir günah iş görməmişəm…

Beləcə, mən özümü sakitləşdirib yenə yuxarı qalxdım. O, eyvandaydı. Açılıb-yığılan plastmass çimərlik kreslosunda uzanıb kitab oxuyurdu. Əyninə yalnız sinəsini örtən açıq yaşıl rəngli qısa mayka və dar şortik geymişdi. Başında isə ağ beyzbolka vardı. Bu günkü geyimi, xüsusən də şortiki

onu velosipedçi qızlara oxşadırdı. Maykası və şortiki bədəninə kip yapışdığı üçün zərif bədəninin bütün cizgiləri açıq-aydın sezilirdi.

O, ayaqlarını bir-birinin üstünə aşırıb bütün diqqətini kitabın üstündə cəmləmişdi. Bir az oxuyandan sonra səhifənin ucunu qatlayıb kitabı örtdü. Kitabın üz qabığını görəndə qəfil təəccübdən mənim boğazım qurudu. Qara cildin üstündə ağ yelkən şəkli çəkilmişdi. Hə, bu mənim «Son səyahət» romanım idi. Mən öz kitabımı yüz metrdən də seçərəm.

Deməli, O, məni tanıyıb. Bəlkə bu da bir təsadüfdür? Bəlkə mənim kitabım Onun əlinə təsadüfən düşüb? Yox, bu boyda təsadüf ola bilməz. Yəqin ki…

Birdən O, başını yuxarı qaldırdı və məni gördü. Azca gülümsünüb başını aşağı saldı və yenə kitabı açıb gözlərini vərəqlərə zillədi…

O, mənim romanımı oxuyur. Görəsən xoşuna gəlirmi? «Son səyahət» mənim bəyəndiyim əsərlərimdən biridir. Dəniz səyahəti zamanı gənc bir qadının başına gələn hadisələrdən bəhs olunur. Çox romantik bir əsərdir, ələlxüsus qadın oxucularımın daha çox xoşuna gəlirdi. Maraqlıdı, görəsən O, indi romanın hansı yerindədi?

… Deməli, O da mənimlə maraqlanır. Yoxsa məhz indi mənim kitabımı oxumağa başlamazdı…Hiss elədim ki, sevinirəm…Niyə?... Axı, mənim kitablarımı yüzlərlə xanımlar oxuyub və normal yazıçı üçün bu, adi bir şeydir. Bəs onda nə üçün məhz onun oxuması məni sevindirir? Qəribədi.

… Qəfildən O, yenə kitabı büküb kənara qoydu və ayağa qalxdı. Gəlib məhəccərə söykənərək mənə baxmağa başladı. Bir az baxandan sonra əlini atıb kreslonun üstündən kitabı götürdü və…sözün düzü onun növbəti hərəkəti məni təəccübləndirməkdən çox əsəbiləşdirdi. Bir az da dəqiq desəm əməlli başlı qəzəbləndirdi…

O, sifətinə ciddi çox bir işə başlamaq niyyətində olan adamlar kimi sərt ifadə verdi və kitabımı açıb vərəqlərindən birini səliqəylə cırdı. Tələsmədən iki-üç yerə qatlayıb kağız quş düzəltdi və bir qədər ora burasını gözdən keçirəndən sonra onu eyvandan aşağı uçurtdu. Üzündə beş-altı yaşlı uşaqlara xas olan səmimi bir gülüş parıldadı. Bu hərəkəti deyəsən ona o qədər ləzzər eləmişdi ki, yaxın on dəqiqə ərzində mənim qəzəbli baxışlarım altında kitabımın vərəqlərinin yarıdan çoxu kağız quşlara çevrilib üçüncü mərtəbədən həyətə uçdular. Bütün bu müddət ərzində o, bircə dəfə də başını qaldırıb mənə tərəf baxmadı. Nəhayət, yazıq, bədbəxt kitabımı bir xeyli arıqladandan sonra O, pəncərəmə boylandı və mənim qəzəbdən əyilmiş sifətimi görüb ürəkdən qəhqəhə çəkdi. Yarımcan olmuş kitabımı nəvazişlə qoltuğuna vurub otağa keçdi.

8 iyul

Dünənki hadisədən sonra hələ də özümə gələ bilmirəm. Bütün gecəni kitabımın quşlara dönən vərəqləri gözlərimin qabağında uçuşub. Səhərə yaxın güclə yuxuya gedə bildim. Yuxuda gördüm ki, O, mənim kitablarımın üstünə benzin töküb yandırır. Bir neçə dəfə yuxudan hövlnak ayılıb gördüm ki tər içindəyəm. Həmin gün çox pis yatdım.

Yalnız günorta, saat birə yaxın yuxudan oyana bildim. Özümü çox pis hiss edirdim. Elə bil ki kimsə məni çox kəskin surətdə təhqir edib alçaltmışdı. Ömrümdə ilk dəfəydi ki ğcbu cür vəziyyətlə rastlaşırdım. Nahardan sonra dəniz kənarına düşüb bir az gəzişdim. Əhval-ruhiyyəm düzələndən sonra evə qayıtdım. Duydum ki, dünənki qəzəbim yavaş-yavaş yox olur. Sakitləşirəm. Yenə onu görmək istədim, ən azı qəzəbli sifətimi ona göstərərək dünənki hərəkətinin mənə necə pis təsir elədiyini hiss etdirməkçün. Yuxarı qalxdım, eyvan boş idi. Yalnız axşam saat ona yaxın otağın işığı yandı. Bir azdan O, eyvana çıxıb mənim pəncərəmə nəzər salıb içəri qayıtdı. Qapını və pəncərəni açıb pərdələri çəkdi. Sonra otağın pəncərədən görünməyən hissəsində yox oldu. Deyəsən maqnitofon yandırdı. Çünki həzin bir mahnı səsi eşidildi və səs xeyli gücləndi. Fikirləşdim ki, yəqin eyvanda oturub musiqiyə qulaq asmaq istəyir.

Bütün bu fərziyyələrlə fikrim məşğul olduğu üçün səslənən mahnıya diqqət yetirməmişdim. Və birdən elə bil mahnı mənə tanış gəldi, diqqətimi cəmlədim. Hə, həmin mahnıdı, mənim şerimə bəstələnmiş mahnı…

Bir-iki il əvvəl bu lirik mahnı yaman dəbdə idi. Maraq məni bürüdü. Görəsən, kaset onda həmin vaxtdan qalıb, yoxsa indi tapıb?...

O, asta-asta eyvanın qapısına yaxınlaşdı, çərçivəyə söykənib nakam bir sifətlə mənim pəncərəmə baxmağa başladı. Otağın işığını söndürsəm də, pəncərənin lap qarşısında dayandığım üçün yəqin ki, mənim siluetimi görürdü. Biz mahnı qurtarana qədər hərəkətsiz dayanıb bir-birimizə baxdıq. Onun baxışlarında elə bil acizliyə, yalqızlığa oxşar bir ifadə vardı. Bəlkə də mənə elə gəldi. Axı, biz gerçəkliyi həmişə özümüz istədiyimiz şəkildə görürük…

Elə bu vaxt Onun yanağında nəsə parıldadı. Əvvəlcə heç nə başa düşmədim. Diqqətimi toplayandan sonra Onun üzündəki parıltıların göz yaşı olduğunu sezdim. Hə, ağlayırdı. Məni təəccüb bürüdü. Yəni mahnı Ona bu qədər təsir edib? Adətən insan mahnıya qulaq asanda içindəki hisslərlə uyğunluq taparkən bu cür təsirlənir. Mənim ifa olunan şerim isə tənhalıq haqqındaydı. Yəni O, özünü bu qədər tənha hiss edir ki, mahnıya qulaq asdıqca gözləri yaşarır?

Mahnı qurtardı. O, yenə otağın içinə çəkildi, üç-dörd saniyədən sonra həmin mahnı təkrarən eşidildi. Maraqlıdır, görəsən eyni mahnıya neçə dəfə qulaq asmaq istəyir?

O, yenə gəlib qapıya söykənərək mənə baxmağa başladı. Yanaqlarındakı parıltılar daha da çoxaldı…

Mən qəfildən hiss elədim ki, ürəyim sancır. Aşağı düşərək apteçkadan «Validol» tapıb dilimin altına qoydum. Yenidən yuxarı qalxanda eşitdim ki, mahnı artıq üçüncü dəfə səslənməyə başladı. Otağa girib pəncərəyə yaxınlaşanda qəfildən maqnitofon susdu. Gördüm ki, onun arxasında idman paltarı geymiş bir kişi peyda olub Ona bərkdən nəsə dedi. Sözünü başa düşməsəm də səsin tonundan bildim ki, Onu danlayır. Deyəsən maqnitafona bu qədər səs verməyi onun xoşuna gəlməmişdi. Kişi bir az deyinib qapıdan aralandı. O isə bir daha qəmgin nəzərlərlə mənə baxıb pərdəni örtərək otağın içinə çəkildi. Bir-iki dəqiqədən sonra otağın işıqları söndü.

9 iyul

Bu gün səhərdən axşamadək Onu gözlədim. Eyvanda heç kim görünmədi. Bir neçə dəfə yazı prossesilə başımı qatmaq istədimsə də bundan bir şey çıxmadı. Yarımçıq qalmış yazılarım mənə o qədər maraqsız, darıxdırıcı görünürdü ki, hətta bütün bunların nə vaxtsa özüm tərəfindən yazıldığına şübhə etməyə başladım. Kresloda oturub boş eyvana baxmaq və Onu düşünmək bu saat mənimçün ən böyük ləzzətdir. Otağın pərdələrinə baxdıqca fikirləşirdim ki, elə bil bunlar hansısa sehrli bir nağıl kitabının üz qabığıdır. Kitab açılan kimi maraqlı və füsunkar bir aləmə düşəcəyəm. Bu, mənim nağılım idi. Bəlkə də təkcə mənim yox, IKIMIZIN. … Hər halda O, özü mənə əsas verib ki, belə düşünüm.

11 iyul

Bu gün mən yenə dostlarıma zəng vurub qonşu evin xanımı haqqında məlumatlar öyrəndim. Adı Lalə imiş, ərə gedənə qədər teatrda aktrisa işləyib. Yəqin sonradan bankir Onu sənətdən ayırıb. Axmaq. Məgər bilmir ki, incəsənət adamını öz sənətindən ayırmaq onu öldürmək kimi bir şeydir? ...Amma O, heç də öz həyatından narazı olmamalıdır. Qadınların çoxunun arzu elədiyi hər şey onun əlinin altındadı…

14 iyul

Iki gündür ki, gözlərimi Onun eyvanından çəkmirəm. Amma O, gözə görünmür. Bilirəm ki, evdədir. Axşamlar otağın işıqları yanır. Hətta bir-iki dəfə pərdənin arxasında Onun siluetini də sezdim.

Görəsən niyə bayıra çıxmır? Yoxsa, məni yadından çıxarıb? Belə tez? Ola bilməz. Bəlkə, əri qoymur?

Iki gündür ki, axmaq-axmaq fikirlər məndən əl çəkmir. Elə bilirəm ki, mənə görə əri ona əziyyət verir. Ürəyim sıxılır, amma pəncərənin qarşısından çəkilə bilmirəm.

15 iyul

Bu axşam O, nəhayət ki, eyvana çıxdı. Barmaqlarının arasında siqaret tüstüləyirdi. Təəccübləndim. Hərçənd ki, indi artıq 21-ci əsrdir və gözümüz belə şeylərə çoxdan öyrəşib, amma bununla belə, Onun siqaret çəkməyi məndə tamam başqa bir təəssürat oyatdı. Bəlkə də xoş, təmiz havası olan nağılımızın siqaret tüstüsü ilə zəhərlənməsi mənə pis təsir edirdi. Hər halda O, mənim gözümdə cənnətdən çıxmış bir mələk idi və mələyin əlində siqarət görmək məni təəccübləndirməyə bilməzdi.

O, siqareti çəkib kötüyü aşağı atdı və bircə dəfə də mənim pəncərəmə nəzər salmadan içəri qayıtdı. Heç nə başa düşmədim…

16 iyul

Bu gün də dünənki səhnə təkrar olundu. O, axşamtərəfi eyvana çıxıb bir az dayansa da, yenə də mənə tərəf baxmadan içəri keçdi…

Az qalırdı ki, dəli olam. O cür gözəl başlanğıcı olan nağılın belə soyuq sonluğu olacağını gözləmirdim.

17 iyul

Dünən gəldiyim nəticənin yanlış olduğuna əmin oldum. Günorta O, eyvana çıxıb gözlərini mənim pəncərəmə zillədi. Üzündə günahkar bir ifadə var idi. Elə bil əvvəlki soyuqluğuna görə məndən üzr istəyirdi.

… Səhərdən yağmağa başlayan narın yay yağışı yavaş-yavaş güclənməyə başladı. Və nəhayət güclü leysana çevrildi. O isə deyəsən heç yerindən tərpənmək belə istəmirdi. Düzdür, eyvanın üstü bağlı idi, amma O, lap qıraqda dayandığı üçün asta-asta islanırdı. Buna fikir vermədən yerində donub məsum körpə baxışlarla mənə baxırdı. Beş-altı dəqiqəyə yağış Onun paltarını elə islatdı ki, yaş parça

bədəninə yapışıb, demək olar ki, görünməz oldu. Gözlərimi bədənindən çəkə bilmirdim. Elə bil ki, klassik rəssamların çılpaq qadın rəsmlərinə tamaşa edirdim. … Su pərisinə oxşayırdı. Birdən-birə mənim də içimdə yağışda islanmaq istəyi yarandı. Ona qibtə elədim. Burda eyvan olsaydı, çıxıb yağışın altında dayanardım. Həyətə isə düşmək barədə düşünmək isə əbəs idi. Çünki bilirdim ki, gözümü Ondan heç cür ayıra bilməyəcəyəm…

Duruşundan hiss olunurdu ki, içəri keçməyi heç ağlına belə gətirmir. Elə bil ki, yağışın altında dayanıb mənə baxa-baxa beləcə islanmaq minillərdən bəri ürəyində gəzdirdiyi əlçatmaz bir arzu idi. Yağışın ağ ,nazik paltarını isladıb onu çılpaqlaşdırmasının da fərqində deyildi. Bəlkə də bundan xəbərsiz idi. Bəlkə də indi Onun gözündə leysandan və mənim pəncərəmdən başqa dünyada mövcud olan hər şey əriyib yox olmuşdu… O, mən və leysan. Bundan da gözəl bir nağıl ola bilərdimi?

O, yarım saata qədər yağışın altında dayanıb mənə baxdı. Nəhayət, mən Onun islanıb xəstələnəcəyindən qorxaraq çox böyük əziyyət bahasına gözlərimi bu çılpaqlaşmış su pərisinin bədənindən ayırıb pərdəni çəkdim. On-on beş dəqiqə ərzində otaqda var-gəl edəndən sonra yenə pəncərəyə yaxınlaşdım və pərdəni azca aralayıb eyvana baxdım…. O, hələ də yağışın altında dayanıb, bağışlanmasını gözləyən günahkar qullar kimi mənim pəncərəmə baxırdı.

18 iyul

Bütün gecəni yatmamışam. Elə bil ki, dünənki yağış mənim yuxularımı da isladıb və yuxular sahibi onları hardasa sərib ki, qurusun. Onun yağışlı görkəmi elə bil gözlərimə yapışdırılmışdı. Yenə də yalnız səhərə yaxın yata bildim. Ayılanda saata baxdım, beş-altı saata qədər yuxulamışdım. Yerimdən qalxan kimi təbii ki, pəncərənin qabağına cumdum. Heç kim yox idi. Mətbəxə düşüb səhər yeməyimi yedim. Bir az həyətdə gəzişib yuxarı qalxmaq istəyirdim ki, bir neçə gün bundan qabaq zəng vurub yeni məqalələrimi istəyən jurnalist həmkarım gəldi. Bir az söhbətləşəndən sonra disketləri götürmək üçün yuxarı qalxdım. Dostum da mənə qoşuldu. Otağa girən kimi eyvana boylandım. O, kresloda oturmuşdu. Əllərini çənəsinin altına qoyaraq gözlərini hansısa məchul nöqtəyə dikib sakitcə ağlayırdı. Dostumun səsi məni fikrimdən ayırdığı üçün Onu əməlli görə bilmədim. Məqalələrim olan disketi tapıb birlikdə aşağı düşdük. Bir az da ordan-burdan danışandan sonra mən hiss elədim ki, deyəsən dostumun tezliklə çıxıb getmək fikri yoxdur. Mənimsə boş-boş söhbətlərlə vaxt öldürməyə zərrəcə həvəsim yox idi. Bütün fikrim yuxarıda -Onun yanında idi. Ağlamağının səbəbini düşünürdüm. Tezliklə yuxarı qalxıb yenə Onunla təkbətək qalmaq istəyirdim.

Xoşbəxtliklən jurnalist həmkarım tək gəlməmişdi, dostlarından biri maşında oturub onu gözləyirdi. Mən üzlü qonağımı dənizkənarı kababxanalardan birinə yola salıb bir azdan özümün də onlara qoşulacağımı vəd etdim. Qapını örtən kimi tez yuxarı cumdum. Eyvana boylanıb gördüm ki, O, artıq içəri keçib. Amma qapı və pəncərələr taybatay açılıb pərdələr çəkildiyi üçün otağın içi demək olar ki, bütünlüklə görünürdü. Yataq otağıydı. Sol tərəfdə iki adamlıq taxt, yanında dolabça, sağda isə iri şifoner qoyulmuşdu.

O, otaqda tək deyildi. Keçən dəfəki kişi də yanındaydı. Deyəsən əridi. Aralarında möhkəm mübahisə gedirdi. Sözləri dəqiq başa düşməsəm də səslərindəki qəzəbdən bilinirdi ki, hər ikisi yaman acıqlıdır. O, çarpayının qırağında oturmuşdu, əri isə otaqda gəzə-gəzə nəsə danışır, əsəbiliklə əllərini yellədirdi. Bir az mübahisə etdikdən sonra O, ayağa qalxıb sərt görkəm alaraq bayaqkından da qəzəbli bir səslə ərinin üstünə çımxırdı. Əri çönüb təəccüblə Ona baxdı və asta addımlarla çarpayıya yaxınlaşdı. Düz qarşısında dayanıb gözünün içinə baxdı. Və qəfildən Ona möhkəm bir şillə vurdu.

Mənə elə gəldi ki, şilləni Ona yox, mənə vurdular. Bağırmaqdan özümü güclə saxladım… Əclaf, heç Ona da əl qaldırmaq olar? Əlimdə imkan olsaydı elə indicə bu alçağı doğram-doğram eləyərdim.

Çox çətinliklə həyəcanımı yatırmağa müvəfəq oldum. O isə şillənin zərbəsindən arxası üstə çarpayıya yıxılıb əlləri ilə üzünü tutaraq hönkürdü. Hiss elədim ki, mənim də gözlərim yaşarıb. Əri isə bir-iki dəqiqə onun ağlamağına baxıb yenə qəzəblə nəsə dedi və qapını çırpıb otaqdan çıxdı.

O, xeyli ağlayandan sonra ayağa qalxıb əvvəlcə gözlərini sildi, çantasından siqaret çıxarıb yandırdı və eyvana çıxdı. Siqaret tüstüsünün arasından mənim eyvanıma zillənən köməksiz baxışları gördüm… Siqaretini çəkib otağa qayıtdı. Gecə lampasını yandırıb çılçırağı söndürdü və çarpayının qırağında oturub fikrə getdi. Birdən gözü otağın arxa divarından asılmış iri fotoportretə sataşdı. Deyəsən, ərinin şəkli idi. O, ayağa qalxıb portreti divardan çıxartdı, bir müddət fotodakı şəkilə baxandan sonra onu var gücü ilə yerə çırpdı. Şüşə qırılmasının səsi gəldi.

Şəkili sındırmaqla qəzəbini soyutduqdan sonra çarpayıya yaxınlaşıb xalatının düymələrini açmağa başladı. Nədənsə, mənə elə gəldi ki, əlləri əsir. Nəhayət, düymələrin hamısını açdı və mavi rəngli yüngül yay xalatı çiyinlərindən sürüşüb yerə düşdü. Əynində yalnız qara bikini və büstqalteri qaldı. Həyəcandan yenə də bütün bədənimi yüngül titrəyiş sarıdı. O isə saçlarını açıb yatağa uzandı və üstünü örtmədən gözlərini yumdu. Tez-tez o yan-bu yana çevrilməyindən hiss etdim ki, heç cür yuxuya gedə bilmir. Təxminən yarım saatdan sonra ayağa qalxıb yenə də bir siqaret yandıraraq eyvana çıxdı. Amma bu dəfə heç bircə yol da mən tərəfə baxmadı. Narahat olmağa başladım. Dəniz

tərəfdən külək əsirdi. Çıl-çılpaq eyvanda dayanıb özünü soyuğa verməsə yaxşıdır. Heç olmasa xalatını geyəydi.

Amma ürəyimin dərinliyində Onun çılpaqlığına sevinirdim. O, siqareti çəkib içəri keçdi və yenə də pərdələri bağlamağı unudaraq yatağa uzandı. Bu dəfəki hərəkətsiz uzanmağından bildim ki, tezliklə yuxuya getdi.

Səhər açılana qədər onun çılpaq bədəninə tamaşa elədim. Günəş səmanı qızartmağa başlayanda hiss elədim ki, artıq gözlərim bağlanır. Elə kresloda, oturduğum yerdə özümü yuxuya verməyə çalışdım. Uzun müddət yata bilmədim. Onun üzünə dəyən şillə ürəyimi ağrıdırdı. Şəxsən mən necə olur olsun, qadına əl qaldıra bilməzdim.

19 iyul

Günorta saat üçün yarısı çətinliklə yuxudan ayıla bildim. Eyvanda heç kim yoxdur. Otağın pərdələri də örtülmüşdü. Nahardan sonra bir saata qədər həyətdə, ağacların arasında gəzişdim. Sonra yuxarı qalxıb çarpayıya uzandım və tavana baxaraq Onu düşünməyə başladım. Ərinin heyvani kobudluğu beynimdən çıxmırdı. Belə heyvərə ilə bir yerdə yaşamaqmı olar? ...Hiss elədim ki, Ona yazığım gəlir. Xəyalımda qara bir hörümçəyin cəngində çapalayan zərif kəpənək canlandı. Doğrudanmı bu zərif kəpənək ömrünün sonuna qədər iyrənc bir hörümçəyin caynaqları arasında çapalamalı olacaq?...

19 iyul

Axşam saat ona yaxın O, eyvana çıxdı. Əlində qəhvəyi mayeylə dolu qədəh vardı. Deyəsən konyak idi. Qədəhdən qurtum-qurtum içərək pəncərəmə zilləndi vəüzündəki kədərli ifadəç yavaş-yavaş laqeyd bir təbəssümlə əvəz olundu. Qədəhi boşaldandan sonra stolun üstünə qoyub içəri keçdi və əlində yastı, balaca konyak şüşəsi yenə bayıra çıxdı. Qədəhi təkrar doldurub əlinə götürdü. Yarısını içib, qalanını da ayaqlarının arasında dolaşan pişiyin başına tökməyə başladı. Pişik əvvəl həvəslə dilini uzadıb yuxarıdan süzülən mayenin dadına baxsa da alkaqol deyəsən xoşuna gəlmədi. Kənara sıçrayıb narazılıqla sahibəsinə baxdı və içəri girdi.

Qəfildən Onun sifətindəki ifadə dəyişdi. Bayaqkı sərxoş təbəssüm qəzəblə əvəz olundu. Boş qədəhi eyvanın döşəməsinə çırparaq sərt hərəkətlə konyak şüşəsini başına çəkdi. Birnəfəsə şüşənin içindəki konyakı boşaltdı… Mənim boğazım qurudu. O, şüşəni elə rahatlıqla boşaltdı ki, elə bil içdiyi 45 % konyak yox, adicə sudur. Alkoqoliklərin çaxır içməyini xatırladım.

Elə bu vaxt əri eyvana çıxdı. Onun əlindəki konyak şüşəsini görcək gözləri bərəldi, özündən çıxdı. Nəsə qışqıraraq əsəbiliklə Onun əlindən konyak şüşəsini vurub yerə saldı. Şüşə beton döşəməyə zərblə dəysə də, sınmadı, diyirlənib həyətə düşdü.

Əri Onun əlindən tutub içəri çəkməyə çalışsa da O, inadla müqavimət göstərərək məhəccərdən yapışdı və dəli kimi çığırmağa başladı. Bir sözlə, italyan kinolarındakı kimi ər-arvad davası başladı. Əri Onun zərif bədənini qucaqlayıb otağa salmağa çalışır, O isə isterika içində ağlayaraq kişini yumruqlayır, onun əlindən çıxmağa cəhd edirdi. … Hörümçəyin çəngində çapalayan kəpənək yenə gözümün qarşısına gəldi. Deyəsən bu hörümçəyi yerinə otuzdurmaq lazım olacaq…

Nəhayət, əri bunun isterikasından bezib, belini buraxdı. Bir əli ilə qolundan tutub, o biri əli ilə Onu möhkəmcə şillələdi. O, gözlərini sıxıb, çiyinlərini yığdı. Əri Ona beş-altı şillə vurub dayandı. O, isə qorxa-qorxa gözlərini açaraq qəribə nəzərlərlə ərinə baxdı. Hiss olunurdu ki, sakitləşib. Əri yenə nəsə deyib əlini Onun qolundan çəkdi və başını yellədib otağa keçdi. O isə sakitcə gözlərini silib xalatının yaxasını düzəltdi və başını qaldırıb mənə baxdı. Taleyi ilə barışmış kimi görünürdü. Bir az mənə baxıb yenə başını aşağı saldı və ağır addımlarla otağa keçdi…

20 iyul

Səhərdən elə bil özümdə deyiləm. Hiss elədim ki, deyəsən yavaş-yavaş dəli oluram. Artıq nə yeməyə, nə də içməyə həvəsim qalmamışdı. Eləcə bütün günü pəncərənin qarşısında dayanmaq istəyirdim. Qəribəsi o idi ki, pəncərə qarşısında olduğum muddətdə qətiyyən bir şey düşünmürdüm, psixi xəstələr kimi gözlərimi saatlarla bir nöqtəyə (yəni eyvana) zilləyib hərəkətsiz dayanırdım. Bir dəfə çərçivəyə söykənib o tərəfə baxdığım vaxt külək pəncərəni yerindən tərpətdi və mən qəfildən pəncərə şüşəsi üzərində öz əksimi gördüm.

Bütün ruhumu dəhşət bürüdü. Robota oxşayırdım. Yuxusuzluqdan gözlərim çuxura düşmüş, üzümü tük basmışdı…

…. Aşağı düşəndə də Onun təsadüfən eyvana çıxıb məni görməyəcəyindən qorxaraq yalnız ən vacib işlərimi görüb tez yuxarı qaçırdım…

… Başa düşürdüm ki, bir az da beləcə davam etsə məni burdan çıxarıb bir baş psixiatrik xəstəxanaya aparacaqlar. Amma bunu başa düşsəm də özümlə heç cür bacara bilmirdim. Elə bil hansısa şeytani qüvvə iradəmi dondurub mənim üzərimdə bütün hakimiyyəti hisslərimə vermişdi. Hisslər isə Ondan ayrılmaq barədə heç düşünməyə imkan vermirdi. Əmin idim ki, Onu bircə gün görməsəm, ölərəm…

Bəlkə də mən Onu elə ilk dəfə gördüyüm gündən ölmüşdüm?.

22 iyul

Axşam özümü çətinliklə aşağı düşməyə məcbur edib üzümü qırxdım. Tələsdiyimdən dərimi bir neçə yerdən kəssəm də, buna əhəmiyyət verməyib sözün həqiqi mənasında qanım axa-axa cəld yuxarı qalxıb yenə pəncərəyə söykəndim…

… Gecə saat on ikiyə yaxın otağın işıqları yandı. Pərdələr açıq olduğu üçün mən yenə içərini görürdüm. Əvvəlcə əri göründü. Paltarını dəyişib gecə lampasını yandıraraq çılçırağı söndürdü. Hərəkətlərindən hiss olunurdu ki, sərxoşdur. Bu vaxt O da içəri girdi və ərinə yaxınlaşıb nəsə dedi. Əri kobudluqla əlini yellədib çarpayıya uzanaraq arxasını Ona çevirdi. O, bir müddət uzanmış ərinin enli kürəyinə baxandan sonra məyus halda şifonerə yaxınlaşaraq əynindəkiləri soyunub qırmızı rəngli penuar geydi. Əynindən çıxartdığı paltarı şifonerdən götürdüyü asılqana keçirərək çarpayıya yaxınlaşdı və yenə ərinə nəsə dedi. Kişi başını qaldırıb acıqlı səslə bağırdı, təzədən arxasını ona çevirib mələfəni başına çəkdi. O isə əlindəki asılqanı qəzəblə kresloya çırpıb otaqdan çıxdı. Əri bir anlıq Onun dalınca boylanıb təkrar başını yastığa atdı…

… Bir azdan O, otağa qayıtdı. Yerişi nədənsə mənə qəribə gəldi, elə bil ki, barmaqlarının üstündə yeriyirdi. Əllərini arxasında gizlətmişdi. Astaca gəlib çarpayının qırağında oturdu və qəfildən əlində bıçaq parladı…Bağırmaq istədim amma alınmadı, boğazımı qəhər tutmuşdu. Elə bildim ki elə indi bıçağı ərinin sinəsinə saplayacaq. Deyəsən elə O
da məhz bu fikirdəydi. Lakin hiss elədim ki, tərəddüd keçirir, cəsarəti çatmır. Əvvəlcə bıçağı iki əli ilə tutub yuxarı qaldıraraq var gücü ilə ərinin sinəsinə endirməyə çalışdı. Amma bıçağın ucunun sinəyə çatmağına yarım qarış qalmış O, əlini saxladı. Bu hərəkəti bir neçə dəfə təkrar etsə də elə bil ki, niyyətini sona qədər həyata keçirməyə cəsarəti çatmayacağına əmin olub əl saxladı. Bir az hərəkətsiz oturub ərinin qalxıb-enən sinəsinə baxdı. Sonra bıçağı onun sinəsində gəzdirib yavaş-yavaş yuxarı gətirməyə başladı və boğazına dirədi…

… Birdən mən açıq-aydın hiss elədim ki, gözlərinin qarşısında qətl hadisəsi törədilən insanlar nəyə görə uzun müddət özlərinə gələ bilmir. Artıq demək olar ki, özümü unutmuşdum. Bu an ürəyim də dayansaydı, xəbərim olmazdı. Gözlərim onun əlindəki bıçağa zillənmişdi. Əgər yatmış kişi təsadüfən hər hansı bir hərəkət etsəydi bıçaq boğazını kəsəcəkdi…

…Gördüm ki, məni soyuq tər basır, alnımdan süzülən damcılar qaşlarımın arasından keçib gözlərimə dolsa da əlimi qaldırıb tərimi silməyə heyim yox idi. Dəhşət içində bu müdhiş səhnənin finalını gözləyirdim.

…Nəhayət, O, bıçağı ərinin boğazından ayırıb qətiyyətlə çarpayıdan qalxdı, ayaq üstə dayanıb bir müddət ərinin şişman sifətinə baxdı və qəfildən elə bil bütün nifrətini ağzında cəmləşdirib var qüvvəsiylə onun üzünə tüfürdü. Əri heç qımıldanmadı da. Görünür sərxoş olduğu

üçün çox bərk yatmışdı. O isə sərt addımlarla gəlib eyvanın qapısını açdı və əlindəki bıçağı var qüvvəsiylə çölə vızıldatdı. Elə bu vaxt qəribə hadisə baş verdi. Onun atdığı bıçağın tiyəsi aramızdakı ağaclardan birinin budağına dəyib istiqamətini dəyişdi və bizim həyətə düşdü. Düzdü, həmin an mən buna diqqət yetirmədim. Yerimdə donub faciənin qarşısını aldığı üçün Allaha şükr eləməyə başladım. Hər halda zərurət varsa da belə bir işi qadın kimi zərif bir məxluq həyata keçirə bilməz…

Hiss elədim ki, yavaş-yavaş özümə gəlirəm, ürəyimin döyüntüsü qaydasına düşür, əllərimin donu açılır…

… Onun ağlamağına baxdıqca ərinə nifrətim lap artırdı. Gör yazıq qızcığazı nə həddə çatdırıb ki, hətta onu öldürmək istəyir.

Bu gün O, öz zərif qanadlarını bu murdar hörümçəyin cəngindən xilas edə bilərdi. Amma qadın olduğu üçün buna cəsarəti kifayət etmədi. Gücü yalnız ağlamağa çatdı… Yəni ömrünün sonunadək Onu xilas edən tapılmayacaq?

…O, xeyli hönkürüb ürəyini boşaldandan sonra başını geriyə atıb kreslonun kürəyinə söykəndi və həmişəki kimi gözlərini mənim pəncərəmə zillədi. Mən Onun sifətində heç vaxt belə bir məyus ifadə görməmişdim. Bütün dünyadan küsüb həyat eşqini tamamilə itirən, qüvvəsi tükənmiş insanlara oxşayırdı. Mənim pəncərəmə elə baxırdı ki, elə bil bura Onun son ümid yeri idi…Son ümid…Bəlkə doğrudan da mən Onun son ümidiyəm…Yəqin ki, kənarda hamı Ona qibtə edir. Hər halda bankir arvadı olmaq kimi bir xoşbəxtlik hər qadına nəsib olmur. Amma heç kim bilmir ki, O, bu qızıl qəfəsdə, bu murdar hörümçəyin cəngində nə əzab-əziyyət çəkir. Bircə mən bilirəm bunu, bircə mən… Bəlkə də məhz buna görə Onu yalnız mən xilas edə bilərəm. Birdən yadıma düşdü ki, Onun tulladığı bıçaq təsadüfən bizim həyətə düşüb. Bəlkə də bu heç təsadüf yox, ilahi bir işarəydi?!.

24 iyul.

Bu fikrin başıma nə vaxt düşdüyünü dəqiq deyə bilmərəm. Çox güman ki, dünən, bəlkə bir az da qabaq, fərqi yoxdu. Əsas məsələ odur ki, bu niyyət ağlıma gələndə mən heç də gözlədiyim kimi qorxu hissi keçirmədim…

Iki gündür yalnız bu fikrin ətrafında dolaşıram. Görəsən mən fikrimdəkini həyata keçirsəm O, bunu necə qarşılayar? Yəqin ki, sevinər, azadlığa qovuşduğu üçün. Və Onu azadlığa mən çıxartmış olacağam…

Hörümçək və kəpənək. Bəlkə də bu, mənim ilahi missiyamdır -yazıq kəpənəyi murdar hörümçəyin cəngindən qurtarmaq.. Əgər adi müşahidəçi rolumu tezliklə tərk edib hadisələrə müdaxilə etməsəm, bunu ömrümün sonuna qədər özümə bağışlamayacağam. Heç bu da kişilikdəndi ki, gözünün qabağında iyrənc bir hörümçək gücsüz,köməksiz bir kəpənəyi caynaqları arasında sıxıb qanını içə, sən də bir kənardan buna tamaşa edəsən?! Yox, başqa çıxış yolu yoxdur, öz fikrimi necə həyata keçirmək barədə düşünməliyəm. Axı, hər halda mən Onun son ümid yeriyəm…

Amma hiss etdim ki, deyəsən buna mənim heç vaxt cəsarətim çatmayacaq.

25 iyul.

Axşam otağın işıqları yandı.Yenə də pəncərələr açıq, pərdələr isə çəkilmişdi. O, içəri girib paltarını da dəyişmədən üzü üstə çarpayıya uzandı. Deyəsən yenə ağlayırdı. Bəlkə də mənə elə gəldi?

Bir azdan qəti hərəkətlə yerindən qalxıb otaqdan çıxdı. Getməyi ilə qayıtmağının arası cəmi on beş dəqiqə çəkdi. Qapını açıb eyvana çıxdı amma işığı yandırmadı. Qaranlıqda eyvanda Onun nə etdiyini dəqiq görə bilmirdim. Bircə onu sezdim ki, kreslonun üstünə çıxıb əllərini yuxarı qaldıraraq səbəbini anlamadığım hərəkətlər edir. Nəhayət, işini qurtarıb kreslodan düşdü, otağın içinə boylanıb eyvanın işığını yandırdı…Birdən məni elə bil ildırım vurdu. Eyvanın dəmir tavanından kəndir sallanmışdı…

O özünü asmaq istəyir. Intihar. Ola bilməz. Yəni O, yeganə çıxış yolunu yalnız bunda görür? Yox, bu çıxış yolu deyil, acizlikdi, acizlik. Axı, O, qadındı, zərif bir qadın, Ondan acizlikdən başqa nə gözləmək olar axı?

Qəfildən elə bil yuxudan ayıldım. O, özünü öldürmək istəyir, mənsə oturub axmaq fikirlərlə başımı qatıram. Bu axmaqlığın qarşısını almaq lazımdı. Mütləq. Amma necə? Bəlkə evlərinə zəng edim? Yox. Ərini xəbərdar etmək. Yox, yox…

Elə bu vaxt O, eyvana çıxıb zənnlə tavandan asılmış kəndirə baxmağa başladı. Təsəvvür edə bilməzdim ki, könüllü surətdə öz həyatına son qoymaq istəyən adamın bu cür sifəti ola bilər. O,

kəndirə qorxu hissiylə yox, nəsə qəribə bir maraqla baxırdı. Elə bil kəndirin halqasının içində hansısa ayrı bir aləmin görüntülərini müşahidə edirdi. Dəhşət içində duydum ki, O, indi neyləsə də mən yerimdən tərpənə bilməyəcəyəm, yalnız seyrçi olmaqla kifayətlənəcəyəm. Niyə? Bunu heç özüm də bilmirəm. Özümü nədənsə televiziya ekranı qarşısında hiss elədim.

O, kəndirə bir xeyli baxandan sonra ayağını kreslonun üstünə qoyub qətiyyətlə yuxarı qalxdı, əlini kəndirin halqasına uzadanda içəridən çırpılan qapının səsi gəldi. Yəqin ki, əri idi. O, tez kreslodan yerə atılıb eyvanın işığını söndürdü və sakitcə içəri keçdi. Hə, yanılmamışdım, gələn əri idi. Içəri keçib televizorun qarşısındakı kresloya çökdü və pultu götürdü. O isə ərinin üzünə belə baxmadan soyunub yerinə girdi.

Əri bir az televizora baxandan sonra qalxıb işığı söndürdü.

Ay işığında güclə sezilən kəndir daha qorxunc görünürdü. Deməli əri bu gecə təsadüf nəticəsində onu xilas etdi. Amma O, intihar fikrindən əl çəkməyəcəkdi, mən buna əmin idim…

Hə, bu da bir əlamət. Əgər O, məhz indi intihar etsəydi mən çaşqınlıqdan bunun qarşısını ala bilməzdim. Deməli, Onu xilas etməkçün mənə tale tərəfindən bir qədər vaxt verilib…

26 iyul.

Səhər yuxudan duranda gördüm ki, kəndir yerində yoxdu, deməli fikrini dəyişib. Çox gözəl… Amma bilmək olmaz, bəlkə yenə də elə bir əhvala düşdü ki, intihar etmək istədi? Ola bilər. Günorta O, eyvana çıxanda üzünün ifadəsindən daxili əhval ruhiyyəsini tutmağa çalışdım. Bir şey başa düşmədim. Hər halda bir dəfə öz həyatına son qoymaq istəyən adamın bu fikri birdəfəlik başından çıxarması inandırıcı görünmür. O, yenidən bu fikrin üstünə qayıda bilər. Tələsmək lazımdır.

Axşama qədər götür-qoy edəndən sonra qəti qərara gəldim… Akifin keçən il yekə bir dənizçi durbini aldığını bilirdim. Evi ələk-vələk edəndən sonra mən onu tapdım. Çardağa qalxıb müşahidə üçün özümə yer düzəltdim. Burda artıq ağaclar mane olmurdu və onların bağının ərazisi ovuc içi kimi aydın görünürdü. Qərara gəlmişdim ki, bir-iki gün ərzində gələcək fəaliyyət meydanına göz qoyum.

29 iyul.

Çardaqda oturduğum iki gün ərzində bir çox maraqlı şeyləri müşahidə etdim. Onun əri bağın dərinliyində, ağacların içində özü üçün balaca bir kabinet tikdirib və deyəsən hər axşam iki-üç saat orda oturur. Bu mənim işimi xeyli asanlaşdırır, hər halda evə girməyə ehtiyac qalmır.Çünki bundan

qabaq çox fikirləşsəm də, niyyətimi həyata keçirmək üçün bir yol tapa bilmirdim. Bağın dərinliyindəki kabinetdə tək oturmaqla O, elə bil özü mənim üçün şərait yaradırdı… O yox, yəqin ki, ilahi özü mənim üçün bu şəraiti yaradır ki, öz missiyamı yerinə yetirim.

30 iyul.

Həyətimizə düşmüş bıçağı elə həmin gün tapıb götürmüşdüm. Bu gün onu diqqətlə gözdən keçirtdim. Antikvar bıçağa oxşayırdı. Çox gözəl işlənmişdi.Tiyəsi başdan-başa qızılı naxışlarla örtülmüşdü. Hə, gözəl niyyəti həyata keçirmək üçün seçilən alət də gözəl olmalıdı. Bir qədər gözdən keçirəndən sonra bıçağın tiyəsini öpdüm. Axı, burda onun əllərinin izləri vardı.

1 avqust.

Daha iki gün onların bağını gözdən keçirtdim. Məlum oldu ki, bankir bağda mühafizəçi saxlamır. Aradakı divarları gözdən keçirəndən sonra o biri həyətə gizlincə keçməyin yolunu da tapdım. Artıq işə başlamaq olar… Neçə gündür ki, məni pəncərənin qarşısında görmür. Yəqin fikirləşib ki, mən də onu atıb getmişəm. Hər gün bir neçə dəfə onun eyvana çıxıb mənim pəncərəmə tərəf baxdığını və məyus halda otağa qayıtdığını görmüşdüm. Eybi yox, səbr elə, az qalıb. Lap az.

3 avqust.

Bu gecə saat ondan sonra onların həyətindən səs-səmir kəsildi. Yalnız şüşəli kabinetin işığı gəlirdi. Əri ordaydı. Işə başlamaq olardı. Içimdəki tərəddüdü boğub divara yaxınlaşdım. Əvvəlcə nərdivanı qoyub öz divarımızın üstünə çıxdım və nərdivanı yuxarı çəkib Onların divarının üstünə uzatdım.

Bir-birindən iki metr aralı yerləşən iki divar arasında körpü əmələ gəldi. Mən ehtiyatla o biri divarın üstünə keçdim, hər iki divar təxminən eyni hündürlükdə olduğu üçün bu çətin olmadı. Sonra nərdivanı özümə tərəf çəkib həyətə endirdim və sakitcə aşağı düşdüm. Həmin yeri keçid üçün mən əbəs yerə seçməmişdim. Ora evin arxasıydı, pəncərələrdən də xeyli aralı idi. Yaxşı ki, həyətdə it saxlamırlar. Yoxsa heç nə alınmazdı.

Ağacların arasına girib ehtiyatla hörümçəyin şüşə istehkamına tərəf addımladım. Fikrimdə tutmuşdum ki, iş kabinetinin qapısının yanında onu pusum. Çıxıb evə gələndə işimi görüm. Amma buna ehtiyac qalmadı. Şüşə qapının arasından boylanıb gördüm ki, o, kresloda yayxanıb kitab oxuduğu yerdə yuxuya getmiş, kitab isə dizlərinin üstünə düşmüşdü. Ən əsası isə bu idi ki, kabinetin qapısı da aralı qalmışdı.

Qapıya əlimi uzadanda qeyri-ixtiyari əl saxladım. Bəlkə mən düz eləmirəm, axı, bu cinayətdir… Yox, onu xilas etmək lazımdır, mütləq. Tərəddüd qorxaqlıq əlamətidir. Bəsdi, heç olmasa bir dəfə kişi kimi hərəkət etmək lazımdır…

Hiss elədim ki, qapının ağzında bir az da dayansam, fikrimi dəyişə bilərəm. Bütün cəsarətimi toplayıb içəri girdim. Qətiyyətlə arxadan kresloya yaxınlaşdım, üzünə baxdım və qızılı naxışlı bıçağı onun sinəsinin sol tərəfinə sapladım. Hörümçək yüngülcə silkələnib başını sinəsinə sallatdı. Heç ayılmadı da, eləcə yuxuda canını tapşırdı. Amma hiss elədim ki hirsim tam soyumayıb, yenə nəsə eləməliyəm, yenə. Birdən Onun srağagünkü hərəkəti yadıma düşdü. Mən də onun kimi ağzımı doldurub hörümçəyin üzünə nifrətlə tüfürdüm və üzümü çevirib qəti hərəkətlə kitabxanadan çıxdım. Elə, gəldiyim yolla da geri -öz bağımıza qayıtdım. Nərdivanı həyətdəki ağacların birinə söykəyib yenə yuxarı otağa qalxdım. Otağa girən kimi adətimcə Onun pəncərələrinə boylandım. O, çarpayının qırağında oturub telefonla danışırdı. Elə bil mənim gəlişimi gözləyirdi. Telefonun dəstəyini yerinə qoyub eyvana çıxdı və həmişəki kimi pəncərəmə tərəf baxmağa başladı. Bu vaxt mən özümün də gözləmədiyim bir hərəkət elədim.

Otağın işığını yandırıb pəncərəyə yaxınlaşdım, utanıb- qızarmadan açıqcasına gözlərimi ona zillədim. Bu, deyəsən onu təəccübləndirdi. Birinci dəfə idi ki, mən marağımı gizlətməyə ehtiyac duymamışdım.

Özümü güclə saxlayırdım. Var gücümlə bağırıb demək istəyirdim ki, sən artıq azadsan, mənim kəpənəyim. Hörümçəyin hökmranlığına son qoyulub, uç gəl yanıma.

Mən bu sözlərdən heç birini ona deyə bilmədim. Səbəbini bilmirəm. Amma o an mənə elə gəldi ki, bizim gözlərimizin arasında elə bir körpü var ki, heç sözə ehtiyac qalmır.

Mənim özümü gizlətmədən açıq-aşkar baxmağım deyəsən Onun xoşuna gəlmədi. Qəfildən qaşqabağını sallayıb qapıya çöndü, içəri keçib pərdələri örtdü. Bir azdan işıqları da söndürdü.

Mən oturub yarım saata qədər qaranlıq pəncərələrə baxdım, sonra elə paltarlı-paltarlı yatağa uzandım. Düzünə qalsa özümü orta əsr cəngavərlərinin yerində hiss edirdim. Elə bil ki, elə indicə hansısa əsl nəcabətli bir xanımı məşum quldurun əlindən almışdım. Və biz tezliklə bir-birinə qovuşmalıydıq. Içimdə möhtəşəm bir yüngüllük hiss edirdim.

4 avqust

Səhər ciblərimi axtaranda gördüm ki, maşının və evin açarlarını keçirtdiyim breloku itirmişəm. Otaqları, həyəti ələk-vələk eləsəm də açarları tapa bilmədim. Qəfildən yadıma düşdü ki, dünən o biri

həyətə düşəndə açarlar cibimdəydi. Deyəsən, orda salmışdım… Məni dəhşət bürüdü. Açarları keçirtdiyim brelokun üstünə mənim adım yazılmışdı. Əgər polislər onu tapsa…

Mən elə bunları fikirləşərkən darvaza döyüldü. Ürəyim düşdü. Elə bildim ki, artıq mənim dalımca gəliblər. Qapını açanda üzümə baxan gənc leytenantı görəndə, lap dilim tutuldu. Amma o, danışmağa başlayanda başa düşdüm ki, hələ açarı tapmayıblar. Leytenant gecə şübhəli bir şey eşidib, gördüyümü xəbər aldı. Təbii ki, mən heç nə görüb, eşitmədiyimi bildirdim. Sonra o, bir az özüm haqda məlumat

toplayıb narahat etdiyinə görə üzr istədi və çıxıb getdi. Mən bir az sakitləşdim. Fikirləşdim ki, bəlkə açarları heç tapmadılar. Amma arxayın olmaq olmazdı. Mütləq bir şey fikirləşmək lazım idi. Xeyli düşünəndən sonra çıxış yolu tapdım. Son kitabımı götürüb içində hörümçəyin adına köhnə tarixdə avtoqraf yazdım. Kitabı qoltuğumda gizlədib qonşu bağa keçdim. Polis işçilərindən müstəntiqi xəbər aldım. Qətl törədilən yerdə, yəni hörümçəyin şüşə kabinetində olduğunu dedilər. Bəxtim gətirmişdi. Mən tez polis işçilərindən biri ilə ora getdim. Hörümçəyin cəsədini artıq aparmışdılar. Mən içəri keçib müstəntiqlə görüşdüm.Təbii ki, o, məni tanıdı və çox hörmətlə qarşıladı. Müstəntiqə yalandan dedim ki, guya iki gün əvvəl axşam vaxtı bura gəlib ev sahibi ilə görüşərək ona son kitabımı hədiyyə etmişəm. Sonra kitab rəfinə yaxınlaşıb qoltuğumdakı kitabı çıxartdım, guya rəfdən götürmüş kimi gəlib müstəntiqə təqdim etdim. Rəfin qarşısında dayananda arxamı ona çevirdiyimdən kitabı qoltuğumdan, yaxud rəfdən çıxartdığımı görmədi və mənim uydurmama inandı. Kitabın içində köhnə tarixlə yazılmış avtoqrafı görəndən sonra isə ümumiyyətlə mənim sözümə şübhəsi qalmadı. Daha sonra mən ev sahibəsinə yönələ biləcək şübhələrin qarşısını almaq üçün dedim ki, onun bütün axşamı telefonla danışdığını görmüşəm. Sağollaşanda müstəntiq cibindən mənim açarlarımı çıxartdı. Və mən başa düşdüm ki, kitab məsələsini uydurmağım məni xilas edib. Onlar açarları tapıbmış. Açara baxıb mənə məxsus olduğunu boynuma aldım və bildirdim ki, yəqin o gün gələndə salmışam. Söhbəti yekunlaşdırıb geri qayıtdım. Allaha şükür ki, hər şey yaxşı qurtardı. Yoxsa bu açar məsələsi məni dolaşdıracaqdı.

Indi yalnız gözləmək qalır. Hay-küyün yatıb aranın sakitləşməyini gözləmək.

6 avqust

Iki gün ərzində yenə əvvəlki kimi pəncərənin qarşısında növbə çəkdim. O, eyvana çıxmadı, yəqin başı dəfn mərasiminə qarışıb. Deyəsən, bu neçə gündə heç bağda da qalmayıb, çünki hasarın o

tayında ölü bir sükut hökm sürürdü. Əslində Onun şəhərdəki evinin telefonunu tapmaq da mənim üçün problem deyildi. Amma mən Onunla məhz burda görüşmək istəyirdim və səbrlə gözləməyə məcbur idim. Dünən səhər qəfildən içimdə yazmağa böyük bir həvəs yarandığını hiss etdim. Köhnə yazılarımı açıb xeyli işlədim. Içimdə nəsə qəribə yüngüllük vardı. Elə bil ki, boynumdan ağır bir yük götürülmüşdü.

Bütün axşamı Onunla ilk görüşümü gözümün önündə canlandırmağa çalışırdım. Görəsən mənim dilimdən eşitdiyi ilk söz nə olacaq? Heç özüm də bilmirəm ki, Ona nə deyəcəm. Yəqin ki, əvvəlcə heç dilim söz tutmayacaq.

7 avqust

Nəhayət, O, bağa qayıtdı. Bu gün axşam Onunla görüşməli olduğumdan böyük həyəcan içindəyəm. Təbii ki, O, özü bütün bunlardan xəbərsizdir. Belə olmağı yaxşıdır. Qoy mənim gəlişim Onunçün sürpriz olsun…

Çardaqdan baxanda Onun bağın dərinliyindəki kitabxanada olduğunu gördüm. Bir saata qədər bağa göz qoydum. Ondan başqa heç kimin olmadığına əmin olandan sonra aşağı düşdüm. Fikrimdə tutmuşam ki, yenə əvvəlki üsulla o biri bağa keçim ki,heç kəs məni görməsin. Yoxsa, görənlər Onun haqqında pis fikirləşər.

O, artıq yoxdur… Deyəsən, heç mən də yoxam… Bəlkə mən heç əvvəldən olmamışam? Bəlkə mənim bu miskin həyatım kiminsə qorxulu bir yuxusu imiş? Əgər mən yoxamsa, onda bu sətirləri necə yazıram, kiminçün yazıram?...

Gecə yarıya yaxın nərdivanı hasara söykəyib yenə də əvvəlki üsulla o biri bağa keçdim və ərinin kabinetinə getdim. Həyəcandan ayaqlarım elə əsirdi ki, elə bil öz ölümümlə görüşə gedirdim.

Şüşə evin pərdələri açıq olduğundan mən hələ uzaqdan Onun kresloda oturduğunu gördüm. Gözlərini hansısa məchul bir nöqtəyə dikib sakitcə siqaret çəkirdi.

Kabinetə yaxınlaşıb qapının şüşəsini döydüm və içəri girdim. O, əvvəl oturduğu kreslodan atılıb qorxu içində çığırdı. Lakin qəfil gələn qonağın mən olduğunu görüb elə bil bir az sakitləşdi.Təəccüblə mənə baxıb soruşdu:

-- Siz içəri necə keçmisiniz, axı, həyətin qapısı bağlıdır?

Necə də gözəl səsi vardı. Ürəyimdən keçdi ki, kaş yenə nəsə soruşaydı.

Heç nə cavab verə bilmədim. Elə bil dilim tutulmuşdu. Eləcə yerimdə durub heyranlıqla Ona baxırdım.

O isə birdən elə bil hər şeyi başa düşmüş kimi başını tərpətdi, bir az gözümün içinə baxdıqdan sonra mənə yaxınlaşıb pıçıldadı:

-- Mən sizi çoxdan gözləyirdim. Bilirdim ki, mütləq gələcəksiniz.-Sonra qapını açaraq bayıra çıxdı və məni ardınca səslədi.- Gedək evə, mənim kölgəyə bənzər dostum.

Üzünü çevirib ağacların arası ilə evə tərəf addımladı. Mən də dinməzcə Onun dalınca düşdüm. Evə yaxınlaşanda fikrimdən keçdi ki, əgər həmin yataq otağına getsək heç bir vəchlə hörümçəyin bədəni toxunmuş çarpayıya uzanmayacağam. Qoy ilk vüsalın şirin anları onun murdar iyi ilə zəhərlənməsin.

Mən zənnimdə yanılmamışdım. Biz həmin yataq otağına gəldik. O, içəri girib işığı yandıran kimi elə bil qeyri-ixtiyari mənim pəncərəmə baxdı. Mən də boylandım. Işıq yanırdı, söndürməyi unutmuşdum. O, iki-üç saniyə mənim pəncərəmə baxıb dərindən ah çəkdi və çarpayının yanına qoyulmuş dolaba tərəf getdi. Mən isə elə qapının qabağında dayanıb otağı gözdən keçirməyə başladım. Qəribə hisslər keçirirdim. Elə bil uzun müddət ekranda baxdığım kinonun içinə düşmüşdüm. Burdakı hər şey mənə tanış idi. Çarpayı, şifoner, telefon dolabı, kreslolar… Hətta əvvəlki əlçatmazlıq da itməmişdi. Heç cür təsəvvür edə bilmirdim ki, bu kresloda oturub bu pəncərədən bayıra baxa bilərəm…

O, dolabın içində bir az eşələnəndən sonra narazı sifətlə belini dikəltdi. Deyəsən, axtardığını tapa bilməmişdi.

«Görəsən nə axtarır» - düşündüm.

Elə bil ki, mənim sualımı eşitdi, dodaqaltı pıçıldadı:-Yəqin qurtarıb. Eybi yox, aşağıdan gətirərəm.

Otaqdan çıxıb beş-altı dəqiqədən sonra geri qayıtdı. Əlində iki yastı konyak şüşəsi və iki qədəh vardı. Əlindəkiləri kresloların arasındakı jurnal stolunun üstünə qoyub mənə baxdı.

-- Əyləş dostum, məncə hər şeydən qabaq bir az içmək lazımdır. -deyib kresloya oturdu.

Nədənsə, bu dəfə onun yerişində əvvəlki rahatlığı, asudəliyi hiss etmədim. Elə bil içində gərginlik vardı, səsi də azacıq titrəyirdi.

Gözümü Ondan çəkmədən yaxınlaşıb konyak şüşəsinin ağzını açdım və hər iki qədəhi doldurdum. Kresloya çöküb yenə ona baxmağa başladım.

Boğazımı qəhər tutsa da içmək istəmirdim. Hiss edirdim ki, konyak içimdəki həyəcanı bir az da artıracaq.

O isə qədəhini götürüb dodaqlarına yaxınlaşdırdı və asta-asta içməyə başladı. Qədəh boşalandan bir neçə dəqiqə sonra baxışlarındakı dəyişiklikdən hiss elədim ki, deyəsən bir az yüngülləşib.

Boş qədəhi jurnal stolunun üstünə qoyub ayağa qalxdı və arxama keçdi. Əvvəlki sərbəst yerişi də artıq bərpa olunmuşdu. Yəqin ki, konyakın təsiri idi.

Şifonerin qapısının yüngülvari cırıltısı və basma düymələrin çıqqıltısı eşidildi. Başa düşdüm ki, paltarını soyunub şifonerə asır.

Təəccübləndim. «Soyunur? Belə tez?» Nədənsə ilk görüşümüzü tamam başqa cür təsəvvür edirdim. Bir də ki, fərqi yoxdur. O, necə istəsə, elə də olmalıdır.

Iki dəqiqədən sonra yenə mənim qarşıma keçib kresloda əyləşdi. Amma zənnim məni aldatmışdı, O, çılpaq deyildi, sadəcə şalvar-köynəyini soyunub, mənə tanış olan qırmızı rəngli qısa yay xalatını geymişdi. Ipək parçanın altında yüngülcə yırğalanan sinəsinə fikir verəndə düşündüm ki, deyəsən əynində xalatdan başqa heç nə yoxdur. Ona baxa-baxa xəyalımda cürbəcür erotik fantaziyalar canlandı, hiss elədim ki, bütün bədənim boşalır.

Konyak şüşəsini götürüb etiketinə baxdı və boşalmış qədəhini təzədən doldurdu. Amma hələ içmədi.

Bir az sakitcə oturub mənə baxdı. Fikirləşdim ki, görəsən mənim görkəmimdə onunçün maraqlı nə var ki, bayaqdan məni belə diqqətlə süzür. Lakin «diqqətlə süzür» demək düzgün olmazdı. O, göz qapaqlarını azca qaldırıb mənə elə baxırdı ki, baxışlarında dəhşətli bir maraqla soyuq biganəliyin ülvi vəhdətini sezmək çətin deyildi. Hə, qəribə səslənsə də mən həmin an Onun baxışlarında məhz bunu gördüm -maraq və biganəlik. Elə bil ki, mən Onunçün eyni zamanda həm var idim, həm yox idim.

Nəhayət, Onun qüruba bənzər səsi məni fikirdən ayırdı. Tez-tez pauzalar verə-verə tələsmədən danışmağa başladı.

--Mən o saat başa düşdüm ki, bu sizin işinizdir. Onun sinəsindəki bıçağı görən kimi başa düşdüm. O vaxt eyvandan atdığım bıçağı həyətimizdə tapmayanda ağlıma gəlmişdi ki, yəqin var qüvvəmlə tullamışam, bıçaq da divarın o biri tərəfinə düşüb. Lakin o vaxt mən bu təsadüfə əhəmiyyət verməmişdim...

Bir anlıq nəfəs dərib qədəhi götürdü, konyakın yarısını birnəfəsə içib davam elədi.

-- Əvvəl dəhşət içindəydim. Az qalmışdı ki, qorxudan dəli olam. Heç cür özümə gələ bilmirdim. Nəhayət, bunun -konyak şüşəsini göstərdi -köməyiylə özümü birtəhər sakitləşdirə bildim.... Hərdən mənə elə gəlir ki, onu mən öldürmüşəm. Bəlkə elə həqiqətən də belədir, sizin heç bir günahınız yoxdur. Bilmirəm…

O üzünü yana çevirib mənim işıqlı pəncərəmə baxdı və elə həmin andaca sifətində şirin xatirələrdən doğan titrək bir təbəssüm peyda oldu.

-- Sizinlə oynamaq mənimçün çox maraqlı idi, axı siz özünüz də maraqlı adamsınız. Sizin kitablarınız daxili aləminiz barədə mənə hər şeyi danışmışdı... Mən hətta teatr səhnəsində də öz oyunumdan bu qədər həzz ala bilməmişdim. Bu dillə ifadə olunmayan fantastik bir duyğu idi. Hər şey mənim təsəvvür etdiyimdən qat-qat gözəl alınırdı... Elə bil ki, müəllifi də, rejissoru da, ifaçısı da özüm olduğum xüsusi bir mono tamaşa oynayırdım. Sizsə mənim yeganə tamaşaçım idiniz. Həm də çox ehtiraslı tamaşaçı idiniz. Bəlkə də sizin yerinizə başqası olsaydı, heç mən belə həvəslə oynamazdım... Lakin bilsəydim ki, bu gözəl oyunun sonu belə olacaq... -Onun boğazını qəhər tutdu. Həyəcanlanıb doluxsundu. Qədəhdə qalan konyakı da içib yenidən doldurdu. Gözlərimin içinə baxaraq yenə danışmağa başladı. Nədənsə, mənə elə gəldi ki, O, artıq məni görmür.

-- Hər bir insanın həyatı özünün səhnəyə qoyduğu bir pyesdir. Özümüz qururuq, özümüz də oynayırıq. Uğurun da, uğursuzluğun da məsuliyyəti yalnız öz üstümüzə düşür... Amma təəssüf ki, heç kimin aktyorluq fəaliyyəti yalnız öz pyesi ilə məhdudlaşmır. Hər kəs öz səhnə əsərinin rejissoru olmaqla bərabər, eyni zamanda minlərlə başqa əsərdə müxtəlif rollar ifa edir. Baş rollardan tutmuş kiçik epizodlara qədər. Bütün bəşəriyyətin həyatı şərq xalçalarındakı naxışlar kimi bir birinə hörülmüş tamaşalardan ibarətdir. Və heç kim öz kiçicik pyesini bu möhtəşəm hörgünün içindən çıxara bilmir... Bəli, mənim kölgəyə bənzər dostum, bütün bəşərin həyatı sürreal, absurd teatrların xaotik festivalından başqa bir şey deyil. Hə, əzəmətli bir teatral xaos. Hər kəs səhnəyə çıxır, öz rollarını oynayır və sonda əbədi yox olur. Amma birdən birə yox. Öz tamaşasını bitirdikdən sonra insan hələ bir müddət başqa pyeslərdəki rollarını aparmaqda davam edir. Yalnız illər keçəndən sonra əbədi yoxluğa çəkilir... Bəzənsə elə olur ki, kimsə öz tamaşasını bitirib səhnə arxasına çəkilir, lakin başqa pyeslərdə oynadığı rollar azalmaq əvəzinə ilbəil artır. Yalnız dahilərə nəsib olan əbədi həyat məncə elə budur... Mən həmişə Şekspirə qibtə eləmişəm. Neçə yüz ildir ki, öz faciəsini bitirib səhnə arxasına çəkilsə də indiyədək hamımızın həyatında əvəzedilməz rolunu oynamaqda davam edir... Insanın enerjisi məhduddur. Iki variantdan birini seçmək lazım gəlir. Ya bütün qüvvəni öz qurduğun tamaşanın üstünə qoyub onu lazımi səviyyəyə çatdırmaq, yaxud öz tamaşanı arxa plana çəkib bütün daxili enerjini yalnız özgə pyeslərdə oynadığın rollara yönəltmək. Bunun hər ikisinin eyni dərəcədə uğurlu alınması məncə mümkün deyil... Siz məni başa düşürsünüz?

Sual mənə ünvanlansa da duydum ki, nə cavab verəcəyim onu qətiyyən maraqlandırmır. Məncə O, özünü bu an səhnədə hiss edirdi və bu sual onun monoloqunun bir hissəsi kimi əslində mənə yox,

hansısa xəyali tamaşaçılara ünvanlanmışdı. Məhz bu an mən də özümü teatr zalında hiss elədim. Və bu gözəl monoloqu pozmamaqçun təbii ki, heç nə cavab vermədim. O isə üçüncü dəfə qədəhini doldurub qurtum-qurtum içməyə başladı.

-- Mənə elə gəlir ki, mən eqoist adamam. Çünki illər boyu ən çox arzuladığım şey öz qurduğum tamaşanı absurd teatral xaosun içindən qoparıb, tam azad və sərbəst bir səhnəyə çıxartmaq olub. Heç kimin qurduğu, yaxud qurmaq istədiyi həyat tamaşalarının iştirakçısı olmaq istəmirdim. Məni düzgün başa düşün. Dünyada bir çox adamlar can atıb ki, bütün bəşəriyyət, milyonlarla insan yalnız onun qurduğu tamaşanın iştirakçısı olsun. Bəziləri buna dünya ağalığı da deyib. Nə isə, məsələ onda deyil. Demək istəyirəm ki, mənə bu lazım deyildi. Mən öz düşündüyüm, öz qurduğum və yalnız özüm ifa etdiyim azad, sərbəst bir monotamaşa qurmaq istəyirdim. Hə, mən belə bir tamaşa arzulayırdım, amma qəribə səslənsə də arzuladığım bu tamaşanı heç cür təsəvvürümdə canlandıra bilmirdim. Bəlkə elə buna görə də bu əlçatmaz, gizli və müəmmalı azadlıq məni belə dəlicəsinə cəlb edirdi. Elə bil ki, bu axmaq ideyanın mistik bir cazibə dairəsinə düşmüşdüm və heç cür ordan çıxa bilmirdim......Əslinə qalsa heç özüm də bilmirdim ki, nə istəyirəm, lakin istəyirdim, dəhşətli bir ehtirasla istəyirdim...

O, əlindəki boşalmış qədəhi jurnal stolunun üstünə qoyub bir müddət susdu. Konyakın təsirindən azca xumarlanan qəhvəyi gözləri mənə zillənsə də hiss edirdim ki, məni görmür. Elə bil ki, mən şəffaf bir predmet idim ki, onun baxışları məndən keçərək hansısa məchul bir nöqtəyə dikilmişdi.

-- Sizi görəndən sonra qəfildən hər şey dəyişdi. Bilirsiniz, adətən möhtəşəm teatr səhnələrinə əli çatmayan rejissor öz maraqlı ideyalarını kiçik səhnələrdə həyata keçirməklə özünü sakitləşdirir. Diqqət vermisinizsə yəqin görmüsünüz ki, içində despotluq, hakimiyyət yanğısı olan adam cəmiyyətdə istədiyi zirvəyə çata bilməyəndə öz tiraniyasını kiçik miqyasda, yəni öz ailəsində həyata keçirir. .... Sizi görəndən sonra mən də buna oxşar bir fikrə düşdüm. Öz möhtəşəm ideyamı kiçik miqyasda sınaqdan keçirməyi qərara aldım.

O, gözlərini arxamdakı məchul nöqtədən ayırıb yenə mənim pəncərəmə baxdı. Elə bil ki, üzünə qəribə bir şairanəlik qondu.

-- Mən ilk dəfə pəncərənin qarşısında görən kimi sizi tanımışdım. Lakin əvvəl əhəmiyyət verməmişdim. Yalnız bir neçə gün sonra bizim eyvana gizlincə göz qoymağınızı görəndə mənə olan marağınızı duydum.

Yüngülcə gülümsünüb mənə baxdı.

-- Sizin  sirrinizi qaranlıq pəncərədə qızaran siqaret közü açdı. Məhz elə həmin an teatrda hazırladığım ilk mono pyesin məşq prosesini xatırladım. Təsəvvür edin, qaranlıq zal, işıqlı səhnə. Səhnədə bircə mən, zalda isə gözə görünməyən, arabir səsi eşidilən və qaranlığın içində yalnız siqaretinin közü sezilən rejissor. Həmin vaxt sizin qaranlıq pəncərənizdə siqaretin qızaran közünü görəndə qəfildən mənə elə gəldi ki, yenə teatr səhnəsindəyəm və rejissorumuz da zalın dərinliklərindən mənə baxır. Məhz onda ağlıma gəldi ki, fikrimdəki monopyesi səhnələşdirim.

Tez bir zamanda hər şeyi planlaşdırdım. Hətta quracağım mono pyesə ad da düşündüm. ... «Kleopatranın zühuru». Gözümün qabağına bu mono tamaşanın afişası da gəlirdi. Ortada mənim klassik pozada şəklim. Şəklin ətrafında isə yazılar.

«Yeni mono pyes.

«Kleopatranın zühuru»

Müəllif -Lalə Fətəliyeva

Rejissor -Lalə Fətəliyeva

Ifaçı -Lalə Fətəliyeva»

Gözəl afişadı, düz deyilmi? Lakin bu afişa heç kim üçün idi. Elə belə...

Hərdən məni qorxu bürüyürdü. Bəlkə heç oynaya bilmədim, bəlkə bu işdən heç nə çıxmadı, axı aktrisa da idmançı kimi həmişə öz formasını saxlamaladır. Mən isə artıq neçə müddət idi ki, teatrdan ayrılmışdım... Nəhayət, bu qorxunu bir təhər adlayaraq sizinçün oynamağa başladım. Bəli, sizinçün, mənim yeganə tamaşaçım üçün....Elə ilk gündən gördüm ki, özümdən bədgüman olmağım yersiz imiş. Içimdəki səhnə ehtirası sönməmişdi, əksinə, fəaliyyətsiz qaldığı müddətdə bir az da güclənmişdi. Və mən bu ehtirasın cilovunu azacıq buraxan kimi hiss elədim ki, içimdə vulkan püsgürməyə başladı. Yalnız onda başa düşdüm ki, mən səhnə üçün nə qədər darıxmışam... Heç bir rolun üzərində bu qədər həvəslə, belə ciddi cəhdlə işləməmişdim.

Hər gün pyesimin ilkin variantına dəyişikliklər eləyirdim, oxuduğum əsərlərdən, oynadığım pyeslərdən hansısa detalları götürürdüm, müxtəlif rejissor tryukları düşünürdüm, sizin qarşınızda oynayacağım hər səhnəni incəliklərinə qədər ölçüb biçirdim... Oynadığım rola o qədər uğurla daxil olmuşdum ki, hərdən özüm də çaşıb qalırdım, mənə elə gəlirdi ki, bu baş verənlər tamaşa yox, mənim gerçək həyatımdı. Günün hansı hissəsinin gerçəklik, hansınınsa tamaşa olduğunu artıq özüm də qarışdırmışdım... Əslində bu mənim əvvəl düşündüyüm kimi mono tamaşa alınmadı. Görürdüm ki, pyesin psixoloji effektini artırmaq üçün mütləq ərimə də rol verməliyəm. Uzun tərəddüdlərdən sonra qərara gədim ki, bəzi epizodlarda ondan istifadə edim. Hərçənd ki, ərim bu tamaşadan bixəbər

idi və mənim davranışımdakı qəribə dəyişikliklər onu əməlli başlı çaşdırmışdı. Bilmirdi ki, artıq mənim tamaşamın ifaçısına çevrilib...Hətta bir neçə dəfə aramızda çox ciddi mübahisələr də olmuşdu. Lakin həmin vaxtlar mənim belə xırda şeylərə fikir verməyə zərrə qədər də həvəsim yox idi. Bütün fikrim, diqqətim yalnız sizin qarşınızda oynadığım tamaşanın yanındaydı. Onun əsəbiləşməyi, qıcıqlanmağı mənim gözümdə əhəmiyyətsiz bir şey idi. Mən ona heç fikir də vermirdim...

Onun söhbəti bu yerə çatanda qəfildən məni təəccüb bürüdü. Mərhum əri haqqında bu cür yüngüllüklə danışmağından hiss elədim ki, indi, məhz bu an onun nəzərində mərhum əri tamaşada öz ölüm səhnəsini uğurla ifa edib alqış sədaları altında pərdə arxasına çəkilmiş bir aktyor kimidi. Nədənsə bu an birinci dəfə onun ərinə yazığım gəldi...

--... Beləcə, öz kiçicik mono pyesimi bəşəriyyətin absurd teatrından qopara bildim. Elə bircə bu da, özümü xoşbəxt hiss etməkçün mənə kifayət edirdi. Illərdən bəri əlçatmaz görünən arzum axır ki, həyata keçirdi....

O, bir az susub xəyalpərəstliklə əlavə elədi.

-- Hə, mən oynayırdım və mənə elə gəlirdi ki, pis də oynamırdım... Razılaşın ki, dünyada bundan maraqlı heç nə ola bilməz... Sizi necə başa salım... Təsəvvür edin ki, bütün ruhunuzu qoyub çox gözəl bir roman yazırsınız və bilirsiniz ki, bu romanı yalnız bircə nəfər oxuyacaq. Yalnız bircə nəfər. Bütün kainatda heç kim bu romanın varlığından xəbər tutmayacaq. Bir yazıçı və bir oxucu. Bu gizliliyin, məxfiliyin içində bəlkə də mistik bir cazibə var. Həmin anlarda mən həyatdan əlini üzərək məsçidin qaranlıq bir küncünə çəkilib namaz qılan orta əsr sufilərinin niyyətini anlamağa başladım. Onlar da öz tamaşalarını heç kimin yox, yalnız allahın qarşısında oynamağa çalışırdılar. Başa düşdüm ki dünyada hər şey bu dualizmin üzərində qurulub. Bir ifaçı - bir tamaşaçı, bir mömin - bir allah. Üçüncü varlıq artıq tamaşanın bütün gözəlliyini pozur….

O, ayağa qalxıb çantasını götürdü, içindən bir qutu siqaret və alışqan çıxararaq yenə qayıdıb yerinə oturdu. Qutudan ağ filtrli siqaret çıxarıb yandırdı.

--…Xaricdə bəzi kolleksionerlər külli miqdarda pul xərcləyib xoşlarına gələn rəsm əsərini özləriyçün oğurlatdırır. Illər uzunu bu sənət əsəri yalnız onun zövqünü oxşayır. Əvvəl mən belə söhbətlərə inanmırdım. Heç təsəvvür edə bilmirdim ki, insan hansısa sənət əsərinə milyolarla pul verə, lakin onu heç kimə göstərə bilməyə. Axı, kolleksionerlərin çoxu möhtəşəm auksionlarda sənət əsərlərinə yalnız ona görə pul verir ki, başqalarının yanında malik olduğu şeylə lovğalansın, özü üçün imic yaratsın. Lakin oğurlanmış gözəlliyə sahib olanda lovğalıq, şan-şöhrət barədə heç danışmağa belə

dəyməz. Axı, bu əsərin sənə məxsus olduğunu heç kəs bilmir. Beləliklə, onun gözəlliyindən yalnız sən özün həzz alırsan. Məncə əsl sənət sevgisi budur. Əsl sənət əsəri ilə əsl sənətsevər üzbəüz qalanda məncə saf, təmiz, bütün çirkinliklərdən uzaq ilahi bir harmoniya yaranır... Hərçənd ki, bəziləri bunu eqoizm kimi başa düşür, amma mən bununla razı deyiləm... Inanın mənə, incəsənət adamlarının ən böyük riyakarlığı «yalnız öz içimizi ifadə etmək üçün yaradırıq» deməléridir. Yalandı, onların hamısı şan-şöhrət, var-dövlət xətrinə iş görür. Axı, hansı rəssam, yaxud hansı şair uğurlu saydığı əsəri bütün dünyadan gizlədə bilər? Heç biri. Hətta acından ölənləri də nə vaxtsa şan-şöhrət, var-dövlət qazanacağına əmindir. Gülməlidir... Deməli dünyada əsl incəsənət əsəri yoxdur. Daha doğrusu, bizim gördüklərimizin içində beləsi yoxdu. Göz qabağında olanlar yalnız insan nəfəsinin, yəni şöhrətpərəstliyin, xudbinliyin, lovğalığın məhsulu olan əsərlərdir. Elə ona görə də nə incəsənət, nə də ədəbiyyat bəşər düşüncəsinə heç bir təsir göstərə bilmədi, yalnız əyləncə funksiyasını yerinə yetirə bildi. Bəli, Mona Lizadan tutmuş, axmaq teleseriallara qədər bütün incəsənət yalnız əyləncədir...

Təzəcə yandırdığı siqaretini külqabıya basıb söndürdü və qəribə, kinayəli bir təbəssümlə mənə baxdı:

-- Xətrinizə dəymədi ki? Axı, siz də elitar yazıçı hesab olunursunuz. Və yəqin düşünürsünüz ki, yaratdığınız əsərlər bütün dünyanı dəyişmək iqtidarındadı....Illüziyadı...Absurd bir illüziyadı...Bir çox sənətkarlar bu axmaq illüziyanın qurbanı olurlar. Lakin başa düşmürlər ki, elitar adlandırılan sənət də əyləncədən başqa bir şey deyil. Sadəcə intellektual, elitar insanların əyləncəsidir. Məni düzgün başa düşün. Hansısa axmaq bir teleserial evdar qadının qəlbinə nə qədər təsir edirsə, sizin yaratdığınız sənət əsəri də səviyyəli bir insana eynən o qədər təsir edir. Artıq yox. Onunçun da siz o axmaq teleserialın ssenarisini yazmış yazıçıdan heç də üstün deyilsiniz. Hətta mən deyərdim ki, o sizdən üstündür, çünki onun yaratdığı əsər milyonlarla insanı əyləndirirsə, sizin əsəriniz yalnız beş-on nəfərə yaxın düşə bilir...Inciməyin, mən təkcə sizi nəzərdə tutmuram, elə mən özüm də əvvəllər eləydim. Aylarla əziyyət çəkib oynadığım rolu bütün incəliklərinə qədər dərk etməyə, mahiyyətinə varmağa çalışırdım. Səhnəyə çıxırdım, həvəslə oynayırdım, hamı da alqışlayırdı. Mən də elə bilirdim ki, öz ifamla onların içində böyük titrəyişlər eləmişəm. Lakin sonralar başa düşdüm ki, teatra gələn tamaşaçı ilə gedən tamaşaçı arasında zərrə qədər də fərq yoxdu. Bunu başa düşmək o qədər də çətin deyil, hər bir sənətkar özünə kənardan baxsa kifayətdir. Yadınıza salın ki, hansı sənət əsəri sizin həyatınızda koordinal dəyişikliklər edə bilib? Yəqin ki, heç biri. Ola bilər ki, siz hansısa əsərin təsiri altından uzun müddət çıxa bilməyəsiniz, əsər sizi xeyli düşündürsün, yaxud gizli qalan sirrləri sizin

üçün açsın. Lakin hansısa müsbət dəyişikliklərə qadir deyil. Çünki bayaq dediyim kimi bizim yaratdığımız əsərlər yalnız nəfsimizin məhsuludur... Ruhun yaratdığı əsərlər isə ruhun özü kimi əbədi olaraq gizlində qalır.

O susub xəyala daldı, nəhayət, içini çəkib təəssüflə pıçıldadı:

-- Heyif ki, siz mənim tamaşamın axırını pozdunuz. Hər şey nə qədər gözəl idi. Bu, mənim ruhumun yaratdığı həqiqi sənət əsəri idi. Çünki mən sizinçün oynayanda nə şan-şöhrəti, nə mükafat titul düşünmürdüm. Yalnız əsər yaratmaq xətrinə yaradırdım... Mən təsəvvür edə bilməzdim ki, siz tamaşaçı olmaqdan bezib pyesin gedişatına müdaxilə edəcəksiniz və hər şey darmadağın olacaq...

Səsinin tonu artdıqca daha da həyəcanlanırdı.

--... Axı niyə, nəyə görə pyesə sona qədər baxmağa səbriniz çatmadı. Axı, nəyə görə mənim bütün əziyyətimi yerə vurdunuz. Məgər mən sizdən xahiş eləmişdim ki, mənim ərimi öldürəsiniz? Nə olsun ki, mən onu sevmirdim. Axı, o mənim ərim idi... Siz mənim ruhumun yaratdığı saf, təmiz sənət əsərini məhv etməklə bərabər ailəmi də dağıtdınız. Indi mən artıq dul qadınam, 28 yaşlı dul….

O, bunu deyib hönkürdü. Pyedestalında donan heykəl kimi kresloya sıxılıb ona baxdıqca hiss edirdim ki, ərinin ölümünə görə yox, tamaşasının pozulmağına görə ağlayır....Xeyli ağladıqdan sonra xalatın cibindən çıxartdığı dəsmalla qızarmış gözlərini sildi və mənə baxıb son sözünü dedi:

-- Mən polisə sizin barənizdə heç nə deməmişəm, heç demək fikrim də yoxdur. Məncə onlar ərimin qatilini heç vaxt tapa bilməyəcəklər. Indi isə gedin, sizdən xahiş edirəm, çıxın gedin mənim həyatımdan. Mən bir daha heç vaxt sizi görmək istəmirəm.

Bunu deyib daha bir siqaret yandırdı və başını geri atıb gözlərini yumdu. Mən isə hansısa pultdan əmr almış robot kimi ayağa qalxıb ağır addımlarla otaqdan çıxdım.Birinci mərtəbənin dəhlizindən keçib bayıra çıxmaq istəyəndə gözüm divardakı xalçanın üstündən asılmış bıçağa sataşdı. Həmin bıçaq idi. Təəccübləndim. Fikirləşdim ki, görəsən niyə polislər onu müsadirə etməyib?...

Birdən-birə elə bil beynim açıldı, taqətsiz halda xalçanın qarşısındakı kresloya çöküb bıçağa baxa-baxa fikrə getdim. Bu yuxuydu, yoxsa nə? Şüurum elə bil baş verənləri dərk etməkdə çətinlik çəkirdi. Bayaqdan yuxarıda onu dinlədikcə mən də özümü teatrda hiss edirdim. Elə bil onun danışığı şəxsən mənə heç bir dəxli olmayan bir əsərin monoloquydu və mən adi bir tamaşaçıydım. Onun mistik aorasının cazibəsinə düşmüşdüm. Yalnız bıçağı görəndən sonra birdən-birə dərk elədim ki, bu, tamaşa yox, gerçəklik idi. Və çox dəhşətli bir gerçəklik. Onun son sözləri sərt bir

ittiham kimi təkrar-təkrar qulaqlarımda səslənirdi. «Sizdən kim xahiş etmişdi ki, mənim ərimi öldürəsiniz».

Tədricən mənə aydın oldu ki, bu da mənim əsərim idi və final səhnəsində bizim hər ikimizin tamaşası quyruqları dolaşmış ilanlar kimi bir-birinə möhkəm düyünlənib..

Və qəfildən elə bil kimsə mənim tamaşamın adını dedi: «QATIL». Məni üşütmə basdı. Iki gün qabaq törətdiyim ağır cinayətin bütün dəhşətini yalnız indi anlamağa başladım. Qulaqlarımda öz səsim cingildədi: «Mən qatiləm, mən qatiləm...»

Elə bildim ki, evin tavanı aşağı enib məni döşəməyə sıxır. Nəfəsim çatmırdı, boğulurdum. Birtəhər ayağa qalxıb çətinliklə bayıra çıxdım. Mənə elə gəldi ki, kreslodan qapıya qədər olan məsafəni qət etməyim bir il çəkdi. Çölə çıxıb pilləkənlərin üstünə oturdum. Yadıma günahsız qurbanımın üzünə tüfürməyim düşdü. Özümdən asılı olmayaraq onun meyidi gözümün qabağına gəldi: Sinəsinə sapladığım bıçaq, yaradan axan qan, kreslodan sallanmış əlləri, sakit həyəcansız üzü.... Sonra yavaş-yavaş onun sifətinin cizgiləri əriməyə başladı, gözləri, dodaqları, burnu əridikcə altında öz sifətim görünürdü. Hə, sinəsinə bıçaq sapladığım, üzünə tüfürdüyüm adam mən idim, mən.

Qəfildən məni qusmaq tutdu, qeyri ixtiyari ögüməyə başladım. Mədəmin suyu pilləkənlərin üstünə fışqırdı. Öz-özümdən dəhşətli dərəcədə iyrəndim.

Arxamı pilləkənin məhəccərinə söykəyib özümü sakitləşdirmək üçün dərindən nəfəs almağa çalışdım. Yenə qulaqlarım cingildədi. Ətrafdakı kölgələr də mənə baxıb «qatil, qatil» qışqırırdı.

Beynim qarışqa yuvasına dönmüşdü. Elə bil ki, müxtəlif fikirlər dayanmadan , civə kimi qaynaşır, beyin hüceyrələrimi çeynəyirdi.

«Mən adam öldürmüşəm, adam öldürmüşəm...Axı niyə? Onu sevdiyimə görəmi? Ərinin ona zülm, əzab verdiyini zənn etdiyimə görəmi? Öz kəpənəyimi hörümçəyin cəngindən xilas etmək istədiyimə görəmi?.... Lakin sən demə O, oyun oynayırmış. Sadəcə oyun… vaxt keçirmək üçün... öz axmaq istəklərini, xəstə arzularını həyata keçirmək üçün…Günahsız bir adam isə bu oyunun qurbanı oldu. Məni qatil eləyən Ona yaranan sevgim olub, hə, sevgi, məhəbbət məni cani elədi. Budumu şairlərin vəsf etdiyi qadın məhəbbətinin saflığı, təmizliyi? Qadınla kişi arasında yaranan hisslər kimisə qatilə çevirib, günahsız adamın qanının tökülməyinə səbəb ola bilirsə, bunun harası saf, təmiz, ülvi eşqdir? Yox, bu eşq deyil, şeytan əməlidir. Elə şeytan nökərləri tərəfindən vəsf olunub ilahiləşdirilən rəzalətdi.

Yaddaşımın künc-bucağından gözümün önünə bəzi görüntülər sıçradıqca başa düşürdüm ki, Onun məhz zahiri gözəlliyini, bədəninin çılpaqlığını, ehtiraslı, qıcıqlandırıcı hərəkətlərini seyr

etdikcə mənim içimdə yavaş-yavaş müəyyən hisslər, istəklər yaranmağa başlamışdı. Onun qabaqcadan düşünüb planlaşdırdığı hərəkətlər sayəsində bu qığılcımlar tədricən yanğına çevrilərək Onun günahsız ərini yandırmışdı.

Hə, O, öz oyununu çox gözəl qurmuşdu. Hər şeyi çox gözəl hesablamışdı. Mənsə hər şeyə inanırdım, elə bilirdim ki, Onu həqiqətən sevirəm, Onun son ümid yeriyəm... Bəlkə doğrudan da sevirdim... Yox, belə eşq ola bilməz. Bu yalnız nəfsin istəyi, bədənlərin cazibəsi idi. Hə, mən Onun zahiri gözəlliyinin, çılpaqlığının cazibəsinə düşmüşdüm. Elə bu cazibə də məni şeytan nökərinə çevirdi... Heyif ki, mən bunu çox gec başa düşdüm. Xirtdəyim şeytanın çənginə keçəndən sonra Allaha tərəf baxmağın nə xeyri...

Ilahi, bağışla məni. Mən sənin son imtahanından üzü ağ çıxa bilmədim. Iblis məni düz yolumdan sapdırdı, məni qatil elədi. Hə, hə, iblis. Bu Onun yox, iblisin tamaşasıydı. Məni imtahana çəkməkçün qurulan tamaşa... Bəlkə O, elə özü iblisdi? Iblisdi, şeytandı, Allah bilir nədi... Görəsən məndən sonra nə qədər adamı yolundan sapdıracaq.

Yox, buna yol vermək olmaz, qətiyyən. Həm də mən öz günahımı yumalıyam. Mütləq...

Hiss elədim ki, bayaqki halsızlığım əriyib, mənə elə bil ilahi güc gəlib. Qətiyyətlə yerimdən qalxıb təzədən evə keçdim.

Xalçanın üstündəki bıçağı çıxarıb pilləkənlərlə cəld yuxarı qalxdım və bayaq oturduğumuz otağa girdim. O, yarımçılpaq halda çarpayıda uzanıb yuxuya getmişdi. Ağ mələfənin bir ucu Onun yalnız qarnının üstünü örtmüşdü. Bayaq əynində olan qırmızı ipək xalat döşəmədəydi.

Özümdən asılı olmayaraq bircə anlıq duruxdum. Elə bil ki, Onun sinəsini, ayaqlarını birinci dəfə görürdüm. Hiss elədim ki, bayaqkı qətiyyətim yavaş-yavaş əriyir. Sıxılmış barmaqlarım boşaldı, az qaldı bıçaq yerə düşsün...

Düzdür, mən Onun çılpaq bədəninə bir neçə dəfə pəncərədən tamaşa eləmişdim. Lakin bu cür yaxından görməyim ilk dəfəydi. Ilahi, necə də gözəldi... Nəfəs aldıqca qalxıb enən sinəsini, hamar çiyinlərini, zərif ayaqlarını seyr etdikcə, nə vaxtsa eşitdiyim şerin bir misrasını xatırladım. «Iblis mələkdən gözəldi»...

Ayaqlarım məni lap çarpayının yanına gətirdi. Əlimdəki bıçağı gecə lampasının yanına qoyub çarpayının kənarında oturdum və heyranlıqla Onun çılpaq bədəninə, asudəliklə uyuyan çöhrəsinə tamaşa etməyə başladım. Nədənsə, gözlərim yaşardı...

Birdən bayaqkı ilğım təkrar olunmağa başladı. Onun zərif çöhrəsi əriyib yox oldu, yerində mənim sifətim peyda oldu. Elə bil ki, güzgü qarşısındaydım. Əvvəl diksindim. Sonra içimdə qorxuqarışıq bir qəzəb, nifrət yarandı. Bu murdar sifəti əzib dağıtmaq istədim. Ağlıma gəldi ki,...

Yerə atdığı ipək xalatın uzun kəmərini çıxarıb diz üstə çarpayıya qalxdım, onun əllərini başı üstə birləşdirib kəmərlə çarpayının naxışlı başlığına bağladım. Sonra sərt bir hərəkətlə əynində qalan alt paltarını da cırıb onun üstünə uzandım. Elə bu vaxt yuxudan oyandı, kirpiklərini qaldırıb məni öz üstündə görən kimi dəhşətdən gözləri böyüdü, lakin səsi çıxmadı. Elə bil dili tutulmuşdu. Sərxoş və yuxulu şüuru nə baş verdiyini dərk etməyə başlayanda, mən artıq onu zorlamağa başlamışdım.... Birdən Onun dili açıldı. Əvvəl ağrıdan inildədi və mən başa düşdüm ki, indi qışqıracaq. Mələfənin bir ucunu tez bürmələyib Onun ağzına basdım ki, səsi çıxmasın. Ağlaya-ağlaya çırpınıb əlimdən çıxmağa çalışsa da, buna müvəffəq olmadı... Nəhayət, bir neçə dətiqədən sonra mən çarpayıdan qalxdım. Üst- başımı qaydaya salıb yenə çarpayının kənarında oturub təngənəfəs halda ona baxmağa başladım.

Təəccübümə rəğmən O, artıq ağlamırdı. Hətta əllərini azad eləməyə də cəhd göstərmirdi. Eləcə gözlərini geniş açaraq nifrət və qəzəb dolu baxışlarını mənə zilləyib sakitcə uzanmışdı.

Bir az mənə baxandan sonra ağzına basdığım parçanı çıxartmaq üçün başını yellətməyə başladı və təsadüfən gözü gecə lampasının yanına qoyduğum bıçağa sataşdı. Təəccüblə bıçağa baxdı və yenə üzünü çevirib gözlərini mənə zillədi. Sözün düzü, bu an Ona yazığım gəldi.

Sonra nədənsə baxışlarındakı nifrət getdikcə yox oldu, gözləri şeytani bir təbəssümlə parıldadı. Elə bil tələyə düşmüş canavar idi.

Ayağıyla mələfənin o biri ucunu dartaraq ağzından çıxartdı. Çığıracağından qorxub yerimdən sıçradım. Lakin gözlərindəki təbəssümə bir də diqqətlə baxandan sonra sakitləşdim, anladım ki qışqırmaq fikri yoxdur.

O isə bir-iki dəfə udqunub gülümsündü və azca xırıltılı səslə pıçıldadı:

-- Fantastik bir final səhnəsidir. -Gözlərilə bıçağı göstərdi. -Amma deyəsən hələ pərdə enməyib.

«Düzdü, hələ enməyib» fikirləşdim. Əlimi atıb sakitcə bıçağı götürdüm və bir az düşünüb əlimi çarpayının başlığına tərəf uzatdım. Üzünün ifadəsindən anladım ki, əvvəl çaşdı. Yəqin elə bildi ki, kəməri kəsib əllərini açmaq istəyirəm. Lakin bıçağın iti dəmirinin soyuğunu öz biləyində hiss edəndə, deyəsən hər şeyi başa düşdü və təəccübü itdi. Gözlərindəki həmin sərsəri təbəssüm öz yerinə qayıtdı.

Sol əlinin venasını kəsib bıçağı kənara qoydum və yenə bayaqkı kimi çarpayının kənarında oturub əlimi çənəmin altına dirəyərək Ona baxmağa başladım. Beləcə, gözlərimiz bir-birinə zilləndi. Lakin baş verənlərə Onun soyuq, biganə münasibətinin səbəbi mənə qaranlıq qalmışdı. Elə bilirdim ki, mütləq çığırıb bağıracaq, çırpınıb əl-qol atacaq, canını xilas etməyə cəhd göstərəcək. O isə…

Birdən son sözünü xatırladım və mənə hər şey aydın oldu. O, elə indi də özünü teatrda hiss edirdi və rol aldığı tamaşada öz ölüm səhnəsini yaradırdı. Yəqin əmindir ki, gözlərini yumacaq və gurultulu alqış sədaları altında yenidən gözlərini açıb ayağa qalxacaq, «bravo» qışqırıqları eşidəcək, vəcdə gəlmiş tamaşaçılardan gül dəstələrini qəbul edəcək...

Onun gözlərinə diqqətlə baxdıqca yanılmadığıma əmin oldum. Yox, ölüm bu dəqiqə ondan yüz min kilometr uzaqlardaydı, O ölmürdü, O, yenə də oynayırdı....

Bədəni yavaş-yavaş ağarmağa başladı. Venasından axan qan ağ balışın yuxarı küncünə damcılayıb parçanın içinə hopduğuna görə heç bir qan gölməçəsi, dəhşətli qan ləkələri gözə dəymirdi. Ilk baxışdan adama elə gəlirdi ki, sadəcə sol biləyində qırmızı qolbaq var. Balış elə bil bu gözəl ölüm lövhəsini qırmızı ləkələrlə korlamamaq üçün bütün qanı acgözlüklə udurdu… Bədəni ağardıqca daha da gözəlləşirdi.

Beş-altı dəqiqədən sonra gördüm ki, artıq gözləri bağlanır. O, böyük iradə bahasına daha bir neçə dəqiqə gözlərini açıq saxlaya bildi və nəhayət, son dəfə mənə baxıb gülümsünərək gözlərini yumdu. Ürəyi hələ döyünsə də artıq huşunu itirmişdi...

Daha bir neçə dəqiqədən sonra qalxıb enən sinəsi də hərəkətsiz qaldı.

Ətrafa ölü bir sükut çökdü. Eyvanın açıq qapısının qabağında oynaşan sərçələrin cikkiltisi, dənizkənarı diskotekalardan gələn musiqi sədaları, ara-sıra yaxınlıqdan keçən maşınların vıyıltısı-bir sözlə, bütün səslər eşidilməz oldu. Elə bil ki, Onun nəfəsi dayanan kimi bütün ətraf aləmi də ölüm kölgəsi örtmüşdü. ...Başa düşdüm ki, qulaqlarım tutulub...

... Öldü? Yox, ölməyib, mən heç kimi öldürə bilmərəm. Biz sadəcə oynayırdıq...

... Yerimdən qalxıb gözlərimi sildim və öz pyesimin son replikasını dedim:

-- Yazıq qızcığaz, sən indiyədək bilmədin ki, kainatda yalnız bir rejissor var, o da Allahdı. Biz hamımızsa təhkim olunduğumuz tamaşaya cüzi dəyişikliklər belə etməyə ixtiyarı çatmayan aciz aktyorlarıq.

Sözümə pauza verib pıçıldadım: -Sizin pyesiniz başa çatdı, mənimki isə hələ davam edir. Mənim tamaşamın final səhnəsi qonşu evdə oynanılacaq. Xudahafiz. Cəhənnəmdə görüşənədək.

Üzümü çevirib çarpayıdan aralandım. Lakin qapıya çatanda qeyri ixtiyari ayaqlarım dayandı. Qəfildən içimdə elə bil nə isə partladı. Geri çönüb çarpayıya tərəf cumdum. Göz yaşı içində boğula-boğula Onun cansız bədənini, çöhrəsini, saçlarını, əllərini sərsəm bir ehtirasla öpüb oxşamağa başladım. Üzümü onun çılpaq sinəsinə sıxıb dəli kimi hönkürür, heç cür özümü sakitləşdirə bilmirdim. Sanki illərlə əziyyətini çəkdiyim, nazıyla oynadığım, boya-başa çatdırdığım yeganə övladımı itirmişdim...

Nə qədər ağladığımı heç özüm də bilmirəm. Bəlkə on dəqiqə , bəlkə bir saat, bəlkə də yüz il. Mənim üçün zaman artıq öz mövcudluğunu itirmişdi. Bu an bütün kainatda cəmi üç məxuq var idi, günahkar bir bəndə, şeytani gözəlliyin ən ali təzahürü olan O, bir də göylərdən boylanaraq bizim yolumuzu gözləyən məsum qurban.

Nəhayət birtəhər sakitləşib üzümü Onun yumşaq sinəsindən ayırdım. Çılpaq bədəni göz yaşlarımdan tamam islandığından sahildə can vermiş su pərisinə oxşayırdı. Böyük əziyyət bahasına çarpayıdan aralanıb ayağa qalxdım. Bir müddət də dayanıb Onun çılpaq bədəninə baxdıqdan sonra ağır addımlarla otaqdaq çıxdım…

Pilləkənləri düşəndə yadıma düşdü ki, O, ölənə qədər heç bircə dəfə də mənim səsimi eşitmədi...

**Gündəliyin sonu.**

***Sentyabr-Oktyabr: 2003.***